# ƏXLAQ SAYƏSİNDƏ SAĞLAM HƏYAT

Ayətullah əl-üzma Nasir
Məkarim Şirazi

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR-**
**RƏHMANİR-**
**RƏHİM**

***Kitabın adı: Əxlaq sayəsində sağlam həyat***
***Müəllif: Ayətullah əl-üzma Nasir Məkarim Şirazi***
***Tərcümə edən: Rza Şükürlü***
***Ədəbi redaktor: Elmar Rəhimli***

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK ***/Y saylı 6 may 2013-cü il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.*

***Kitabın bütün çap hüquqları qorunur***

## ÖN SÖZ

### *Biz bu sətirlərdə nəyi arayırıq?*

*Dünyada çıxılmaz vəziyyətlə üzləşənlərin, zülm, haqsızlıq, təcavüz, müharibə və cinayətlərə məruz qalanların ah-naləsi, ailə ocaqlarının dağılması bu həqiqətə canlı şahiddir: Zahirən, haçandan bəri insanların islah və rifahı uğrunda irəli sürülən qanun və ideyalar artıq kiməsə ideal həyat bağışlamağa qadir deyil və bundan sonra da onlara ümid bağlamaq olmaz. Hələ də bilmirik ki, haçana qədər bu qanun və üsulları sınaqdan keçirməliyik. Onların öz carçılarını belə himayə edə bilmədiyini gördüyümüz halda, başqalarının dərdinə çarə haqda danışmağımız yersizdir! Bu qanunlar dərin quyuları xatırladır ki, bəzən yerin altındakı böyük daşları sındırsaq da, məqsədə çatmayıb, özümüzü zəhmətə salmış, su da əldə etməmişik!*

*Hər şeydən əvvəl, qoyulan hər hansı qanunun eyib və nöqsanını axtarmalı, sonra isə həlli haqda fikirləşməliyik. Adətən, bir çox qanunlar xarici istifadə yönünə və tam səthi təsirə malik dərmanlara bənzədiyindən zəhmət, səy və batini təkanların mənşəyi olan insanlıq vicdanının dərinliyinə bir addım belə yaxınlaşmır, daxili istedad və qüvvələrini dirçəltmir, dərdinin köklərini qıra bilmir. Hansı qanun sərvətlərini pişiklərə vəsiyyət edərək milyoner pişiklər kəndi yaradan dünya sahibkarlarını ağıla gətirir, onlara insanlıq şəfqəti bağışlayır?! Hansı qanun bəşəriyyəti yoxsul təbəqələrin himayəsinə dəvət edir?! Hansı qanun boyunlarını qiyməti məlum olmayan ləl-cavahiratla bəzəyənlərdə, evinin yalnız bir otağını neçə milyon məbləğli*

*albomlarla zinətləndirənlərdə insansevərlik ruhunu aşılayır, onları milyonlarla ağır xəstənin nicatı üçün səsləyir? Görəsən, onların ruh və canına yeriyəcək, onlarda azacıq dəyişiklik yarada biləcək bir qanun varmı? Aydındır ki, cavab mənfidir və mövcud qanunlar buna qadir deyil.*

*Belə bir vaxtda "əxlaq"ın (ilahi-fitri vicdan) zərurəti tam aydınlaşır, onun prinsipləri güclü dalğalar kimi, hər maneni arxada qoyur, fəzaları belə ötüb keçir, insanın daxilinə yol tapır, onu tamamilə dəyişdirərək həqiqi mənada yüksək səciyyəvi xüsusiyyətlərə malik yeni bir şəxs düzəldir, onu elə bir kəsə çevirir ki, özünü başqalarının qəm-kədərinə şərik bilir, özü və başqalarının mənafeyinə bir gözlə baxır, öz rahatlığını artıq başqalarının narahatlığında axtarmır, onun genişüfüqlü fikri nəfsindən coşan hiddətlərə, haqsızlıqlara, təcavüzlərə, kin-küdurətlərə və qisaslara son qoyur, başqaları ilə yekdillik yaradaraq xeyir və bərəkəti artırır.*

*"Əxlaq"ı vicdanlarda diriltməyi özünə borc bilən qarşınızdakı bu kitab məhz həmin məqsədi izləyir və İslamın dəyərli mənbələrindən qaynaqlanır.*

# ƏXLAQ VƏ TƏRBİYƏ

Görəsən, insanların əxlaq və davranışları tərbiyə ilə dəyişilə bilərmi?

Bu sual "əxlaq"a hansı cəhətdən baxışla aydınlaşır. Çünki insanların əxlaq və mənəviyyatının bir sıra cismi və ruhi parametrlərə mexaniki tabe olduğunu qəbul etsək, onda "əxlaq" səmərəsiz bir şey, onun dəyişildiyini qəbul etdikdə isə, bu zaman onun əhəmiyyət və dəyəri çox gözəl aydın olacaq. Bəzi alimlər birinci ehtimalı qəbul edərək demişlər ki, bağbanın zəhməti acımeyvəli ağacın mahiyyətini dəyişmədiyi kimi, pis və çirkin insanların batini də "tərbiyə" ilə dəyişilmir və əgər dəyişilsə də, çox səthi olub tez də ilk vəziyyətə qayıdır. Onların əqidəsinə görə, cisim və ruhun "əxlaq"la (rəftar) yaxın rabitəsi vardır və həqiqətdə hər kəsin əxlaqı cismi-ruhi vəziyyətinə bağlı olduğundan dəyişmir. Onlar öz müddəalarını sübut etmək üçün "Ən-nasu məadinu kə-məadiniz-zəhəbi vəl-fizzə!" *(İnsanlar qızıl və gümüş mədənlərinə bənzəyirlər!)*[1] – kimi

---

*1 . "Biharul-ənvar", 61-ci cild, səh.65, hədis: 51. Onların bu kimi hədisləri əsas götürmələri heç də o demək deyildir ki, belə hədislərin yalnız bir mənası vardır. Bu isə sadəcə olaraq onların belə qavradığını göstərir.*

hədislərə istinad edirlər.

Amma buna əks olaraq bir çox təcrübələr göstərir ki, *"sağlam mühit"*, *"yaxşı yoldaş"* və *"düzgün tərbiyə"* nəticəsində şər və pis insanlar tamamilə islah olunurlar. Bundan əlavə, əxlaqı nəzərə almadan peyğəmbərlərin və dini rəhbərlərin bütün səmavi göstəriş və qadağaları ləğv və mənasız sayılar. Çünki bütün bunlar insanların tərbiyəsi üçün göndərilmişdir. Biz hətta heyvanların belə, bir sıra üsullarla tərbiyələnməsini və qərizəvi hisslərindəki dəyişikliklərini gördüyümüz halda, necə qəbul edə bilərik ki, insanlarda pis əxlaq heyvanların vəhşilik və yırtıcılıq xüsusiyyətindən də qatı olsun!

Bizim nəzərimizcə, bu müddəanın sübutu üçün mütləq insanın əxlaqi xislətlərinin yaranma tərzi araşdırılmalı, onların aradan qaldırılması yollarını tapmalıyıq. Bildiyimiz kimi, hər yaxşı və pis əməlin insanın ruhunda müəyyən təsiri vardır ki, onun təkrarı ilə bu təsir artaraq, yavaş-yavaş "adət"ə, daha sonra isə "sifət və xislət"ə çevrilir və beləcə, insanın meyilləri onun "adət" və "xislət"lərindən mənşələnir. Burada biz təcrübəyə əsaslanmalıyıq. Məsələn, əxlaqi adət və xislətlər bir əməlin təkrarı ilə yarandığı kimi, onların aradan qalxması da elə bu yolladır. Yəni əvvəlcə "əməl", sonra "təkrar", daha sonra əxlaqi bir xislətin yaranmasının şahidi oluruq. Deməк, təlqin, təfəkkür, düzgün təlim və sağlam mühitin insanın əxlaqının müsbət inkişafı yönündə böyük təsiri var.

### *Pis əxlaq bir növ xəstəlikdir*

Hamımız bilirik ki, bütün canlı varlıqlar arasında insan xüsusi və müstəsna keyfiyyətlərə malikdir. Onda

bir-birinə zidd daxili qüvvələr vardır ki, bir tərəfdən onu (nəfsani meyillər, heyvani istəklər və instinktiv hisslər) günaha, çirkinliyə, başqalarının hüquqlarına təcavüz etməyə, yalan və xəyanətə sövq edir, digər tərəfdən isə (əql və idrak qüvvəsi, vicdan və insanlıq şəfqəti) ədalətə, insansevərliyə, paklığa, doğruluğa və təqvaya çağırır. Bütün insanlarda bu qüvvələr bir-birilə mübarizə aparır, birinin digərinə nisbi qələbəsi onların insani dəyərlər baxımından fərqlənmələrinə, təkamül və tənəzzülünə səbəb olur. Bəzən, insan Allahın ən yaxın mələklərindən üstün və fəzilətli, bəzən isə yırtıcı heyvanlardan da qorxulu olur. Bu həqiqət bir çox hədislərdən də başa düşülür. İmam Əli (ə) buyurur:

إِنَّ اللهَ خَصَّ الْمَلَكَ بِعَقْلٍ دُونَ الشَّهْوَةِ وَ الْغَضَبِ، وَ خَصَّ الحَيواناتِ بِهِما دُونَهُ وَشَرَّفَ الْاِنْسانَ بِاِعْطاءِ الْجَمِيعِ فَاِنِ انْقادَت شَهْوَتُهُ وَغَضَبُهُ لِعَقْلِهِ، صارَ اَفْضَلَ مِنَ الْمَلائِكَةِ لِوُصُولِهِ اِلى هذِهِ الرُّتْبَةِ مَعَ وُجُودِ الْمُنازِعِ

*"Allah-Taala mələklərə ehtiras və qəzəb deyil, yalnız əql; heyvanlara əql deyil, yalnız ehtiras və qəzəb, insanı isə şərəfli sanaraq ona hər üçünü əta edib. Əgər onun əqli ehtiras və qəzəbinə qalib gəlsə, əks və zidd qüvvənin varlığı ilə belə məqama çatdığı üçün mələklərdən üstün olacaq."*[1]

Diqqət yetirmək lazımdır ki, təbii meyil, istək, ehtiras və instinktiv hisslər həyatın davamı üçün zəruridir. Başqa sözlə, insanın cismində bihudə bir üzv olmadığı kimi, ruhi istək və meyillərin də rolu vardır. Əlbəttə, bu o zamana qədərdir ki, hər istək öz təbii dairəsini aşmasın, zərərli və qorxulu meylə çevrilməsin. Məsələn,

---

*1 . "Camiüs-səadat", 1-ci cild, səh.34.*

heç kim insanda "qəzəb"in rolunu inkar edə bilməz. Hüququ tapdanmış şəxs onu bütün qəzəbi sayəsində mübarizə meydanında tələb etməyincə, sakit və aram halda onu əldə etmək əbəs fikirdir? Amma qəzəb öz təbii halını itirib əqlin ixtiyarından çıxdıqda da insanı heç bir hədd-hüdudu tanımayan vəhşi bir heyvana çevirməyə də qadirdir. Yaxud insanın sərvətə malik olmaq və vəzifəyə yiyələnmək üçün çalışması normal və təbii meyil sayıldığı halda, yalnız dünya, sərvət və vəzifə düşkünlüyünün, yəni bu meyillərdə ifrata varmağın viranedici təsiri də heç kimə gizli deyildir.

Buna əsasən, cismi normaların pozulması həmişə xəstəlik və acınacaqlı hadisələrlə yanaşı olduğu kimi, ruhi qüvvələr, ehtiras və istəklərin də normal vəziyyətinin bir-birinə dəyməsilə bir növ ruhi-psixoloji xəstəliklər yaranır ki, əxlaq alimləri ona "qəlbi xəstəlik" deyirlər. Bu ifadəni biz Qurani-Kərimdə nifaq və ikiüzlülük sifətinə sahib olan münafiqlərə verildiyini müşahidə edirik. Belə ki, bir ayədə buyurulur:

{فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ اللّهُ مَرَضاً}

***"Onların qəlblərində məraz (xəstəlik) vardır. Allah onların (pis əməllərinə görə) xəstəliyini artırar."***[1]

## *Nəfslə mübarizə, yaxud böyük cihad*

Nəfslə mübarizə və onu əxlaqi rəzilətlərdən saflaşdırmağın nə böyük əhəmiyyət daşımasına bu kifayətdir ki, onu "böyük cihad" adlandırmışlar. Bu ifadə Peyğəmbəri-Əkrəmin (s) müharibələrin birindən qayıdan mübariz səhabələrinə buyurduğu məşhur bir

*1 . "Bəqərə" surəsi, ayə 10.*

hədisdən götürülmüşdür:

مَرْحَباً بِقَوْمٍ قَضَوُا الْجِهادَ الْاَصْغَرَ وَ بَقِيَ عَلَيْهِمُ الْجِهادُ الْاَكْبَرُ، فَقِيلَ: يا رَسُول اللهِ مَا الْجِهادُ الْاَكْبَرُ؟ قالَ: جِهادُ النَّفْسِ

*"Kiçik cihadı yerinə yetirən dəstəyə afərin! (Qarşıda isə hələ) onları böyük cihad gözləyir." Soruşdular: "Böyük cihad hansıdır?" Buyurdu: "Nəfslə mübarizə!"*[1]

Bəzi hədis alimləri öz əsərlərində nəfsin saflaşdırılması ilə bağlı bəhsləri "cihad" bölümündə qeyd etmiş və onu cihadın bir qismi bilmişlər. Digər hədislərdə də Peyğəmbəri-Əkrəmin (s) buyruğunun davamı belə verilmişdir:

اِنَّ اَفْضَلَ الْجِهادِ مَنْ جاهَدَ نَفْسَهُ الَّتِي بَيْنَ جَنْبَيْهِ

*"Ən üstün cihad insanın daxilindəki nəfsi ilə mübarizəsidir."*[2]

Bu cümlə nəfslə bağlı İslamın nəzərini çox gözəl aydınlaşdırır və bu haqda bir sıra araşdırmalardan sonra aşağıdakı həqiqətlər üzə çıxır:

**1.** İnsanın taleyi daxilindəki iki zidd qüvvənin qarşıdurması və birinin digəri üzərindəki qələbəsinə bağlıdır.

**2.** Bu mübarizənin "böyük cihad" adlandırılması onun daimi olmasına görədir. Həm də bu daxili müharibə insan üçün xarici müharibədən təhlükəli və daha qorxuludur. Nəfslə mübarizə adlı böyük cihadda məğlubiyyət bədbəxtlik, adi müharibələrdə isə məğlubiyyətlə hətta "şəhidlik" kimi böyük iftixara

---

1 . *"Vəsailüş-şiə", 11-ci cild, səh.123.*

2 . *Yenə orada.*

çatmaq olur. Başqa sözlə, xarici düşmənlə mübarizədə həqiqi məğlubiyyət əsla olmadığı halda, nəfslə mübarizədə məğlubiyyət ehtimalı çoxdur.

**3.** Bu cihad çətin və ağır olsa da, təkamülün rəmzidir. Təkamül isə ziddiyyətlərin, "xeyir" və "şər" qüvvələrin çəkişməsi nəticəsində əmələ gəlir. Bir də ki, insan hadisələr, çətinliklər və ağrı-acılarla üzləşməyincə möhkəmlənməz. İmam Əli (ə) buyurmuşdur: *"(Həmişə müxtəlif hadisələrlə üzləşən) meşə ağacları möhkəm və közü davamlıdır."*

Bunlar göstərir ki, zidd qüvvə və istəklər təkamül üçün mühüm rola malikdirlər.

**4.** Mümkündür, zahiri düşmənlə mübarizədə maddi məqsədlər (qənimət yığmaq, şöhrət qazanmaq və s.) güdülsün, lakin nəfslə mübarizədə məqsəd təkamülə çatmaq, fəzilət qazanmaqdır. Ona qalib gəlməklə insan böyük iradə, güclü iman, yüksək himmət və şəxsiyyət qazanır.

### *Səadət və xoşbəxtlik*

Əxlaq alimlərinin nəzərinə görə, bu elm insanlara əsil səadət və xoşbəxtliyi aşılayır və ona çatmaq üçün daim çalışmağa, onun arzusu ilə hər çətinliyə qatlaşmağa dəyər.

Səadəti qısa ibarə ilə belə tərif etmək olar: "İnsana layiq hər mümkün kamala çatmaq səadət adlanır." Başqa sözlə, insan ixtiyarındakı maddi və mənəvi qüvvələrdən düzgün bəhrələndiyi halda səadəti əldə edir.

Kamal və bəhrələnməyin qısa-ümumi məfhumu aydın olduğu halda, xarici həyatındakı nümunələri

baxımından ayırd edilməsi çox çətin və adətən, insanların səadət yolunu özləri seçməsi müyəssər deyildir. Misal üçün, uzun müddət ömrünü rifah içrə keçirən, ruhi aramlığı mal-dövlətdə görən xudbin şəxs, mümkündür, özünü xoşbəxt bilsin. Hətta onun ölümündən sonra mal-dövlətini cinsi ehtirasların təmini və s. yollarda dağıdan naxələf övladı belə özünü səadətli və xoşbəxt hesab etsin. Şübhəsiz, onların hər ikisi səhv yoldadır. Əsl səadətə çatmaq istəyən insan hökmən həqiqi təkamülün, maddi və mənəvi nemətlərdən düzgün istifadənin yollarını öyrənməlidir.

### *Səadət yalnız ruhi yönəmi malikdir?*

Kalabon kimi bəzi qədim yunan filosoflarının əqidəsinə əsasən, səadət yalnız ruhi yönə malikdir və maddi amillərin insanın səadət və xoşbəxtliyində heç bir təsiri yoxdur. Onlar deyirdilər ki, səadət yolu yalnız insani keyfiyyətlər, əxlaqi fəzilət və kamallarla qazanılır. Bu dünyada insanın kamil səadətə çatması qeyri-mümkündür və ruhun maddi bədənlə əlaqəsi və cismə bağlılığı davam etdiyi vaxta qədər həqiqi səadət və xoşbəxtlikdən məhrumdur. Ruh bədəndən ayrılarkən mütləq səadət mümkündür. Bununla da, onlar əsl səadətə nail olmaq üçün tərki-dünyalığa üz çevirir, ona etinasız yanaşırdılar. Hətta filosof Kalabonun bir çalada yaşaması, yaşayış vəsaitindən yalnız bir su qabı ilə kifayətlənməsi məşhur hadisədir. Deyilənlərə görə, o, bir gün bir kəsin arxdan əli ilə su içdiyini gördükdə, həmin su qabını da tullamışdır.

Bu əqidəyə tam əks olan "ekzistensialist"lər isə

səadət və xoşbəxtliyi maddi ləzzətlərdən qeyd-şərtsiz istifadədə görür, bunun qarşısını almağı mənasız bilirlər! Onlar mütləq xoşbəxtliyi yalnız maddi ləzzətlərdə görür, bu yolla dəlilik həddini belə aşır, hətta praktiki olaraq ictimai-əxlaqi qayda-qanun və şərtləri ayaq altına qoyurlar!

Şübhəsiz, (müasir dövrdə qərbdə və qərbyönlülər arasında yayılan) bu təfəkkür tərzini "məktəb" adlandırmaq olmaz. Əksinə, bu, bir növ ruhi-psixoloji xəstəlik və səadət yolunu cismi yönlərdən tam təcrid edən Kalabon məktəbi kimi ifrat fikirlərə əks cərəyandır.

### *Mötədil və orta mövqeli məktəb*

İnsan təkcə cismin, yaxud ruhun deyil, hər ikisinin məhsuludur. Buna əsasən, xoşbəxtliyi yalnız iki qisimdən birində arayıb-axtarmaq olmaz. Şübhəsiz, insan varlığının yalnız bir cəhətini araşdıran hər hansı məktəb və proqram onun mahiyyətini tam əhatə etmədiyindən səadət və xoşbəxtliyi də təmin edə bilməz. Burada ruhun cisim və maddəyə nisbət ilkinliyini də unutmamalıyıq.

Şərqdə "ilk müəllim" kimi tanınan məşhur yunan filosofu Aristotel və onun ardıcılları bu məktəbin tərəfdarlarıdır. Demək olar, İslam özü yüksək təlimləri ilə bu məktəbin önündə durur və onu yeni üsullarla bəyan edir. Bunu biz Qurani-Kərimin bir çox ayələri və böyük İslam rəhbərlərinin kəlamlarında müşahidə edə bilərik. Burada İslamın şüarı aşağıdakı ayədə xülasə edilir:

{فَإِذَا قَضَيْتُم مَّنَاسِكَكُمْ فَاذْكُرُواْ اللّهَ كَذِكْرِكُمْ آبَاءكُمْ أَوْ أَشَدَّ ذِكْرًا فَمِنَ

النَّاسِ مَن يَقُولُ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا وَمَا لَهُ فِي الآخِرَةِ مِنْ خَلاَقٍ وِمِنْهُم مَّن يَقُولُ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ أُولَـئِكَ لَهُمْ نَصِيبٌ مِّمَّا كَسَبُواْ وَاللّهُ سَرِيعُ الْحِسَابِ}

***"İnsanların bəzisi "Ey Rəbbimiz, bizə bu dünyada (xeyir) əta et!" – deyirlər. Belələrinin axirətdə heç bir payı yoxdur. Bəziləri isə "Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də xeyir ver, bizi cəhənnəm əzabından qoru!" – deyirlər! Belə şəxsləri gördükləri işə (və duaya) görə mükafat gözləyir. Allah tezliklə haqq-hesab çəkəndir!"***[1]

Belə təfəkkürə əsasən, cisimlə ruh bir-birinə elə sıx bağlıdır ki, onların biri nasaz olduqda, digərinə də təsir edir. Müasir psixologiya isbat edir ki, bir çox əxlaqi-fikri azğınlıqların mənşəyi cismi və maddi ehtiyacların lazımınca təmin olunmamasıdır. Əksərən, əzilmiş meyil və qərizələr özünü ruhi kin-küdurət və psixoloji düyünlər kimi göstərir. Bunlar psixoloq və əxlaq alimləri üçün böyük çətinliklər yaradır, onları ümumi tərbiyə üsulları ilə aça bilmirlər. Onların müalicəsini yarandığı və vücuda gəldiyi yolda axtarır, yəni ehtiyacları bərpa etməklə münasib üsulu məqsədəuyğun görürlər.

Məsələn, çoxlarındakı bədbinlik, qorxu, həsəd, təkəbbür və kin-küdurət kimi rəzil sifətlər deyilən problemdən irəli gəlir. Buna görə də bu gün əxlaqi xəstəliklərin, cisim və ruhun dərmanı və müalicəsində onların hər ikisi nəzərə alınmalıdır. İslam bu dərin məsələni nəzərə alaraq müəyyən yollar təklif edir:

---

*1 . "Bəqərə" surəsi, ayə 200-202.*

{قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللّهِ الَّتِيَ أَخْرَجَ لِعِبَادِهِ وَالْطَّيِّبَاتِ مِنَ الرِّزْقِ قُلْ هِي لِلَّذِينَ آمَنُواْ فِي الْحَيَاةِ الدُّنْيَا}

***"(Ya Peyğəmbər!) De: "Allahın öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur? De ki, bunlar dünya həyatında iman gətirənlər üçündür!"***[1]

İmam Əlinin (ə) "qısa kəlamlar"ından birində belə buyurulur:

لِلْمُؤْمِنِ ثَلاثُ ساعاتٍ: فَساعَةٌ يُناجِي فِيها رَبَّهُ وَ ساعَةٌ يَرُمُّ مَعاشَهُ وَ ساعَةٌ يُخَلِّي بَيْنَ نَفْسِهِ وَ بَيْنَ لَذَّتِهِ فِيما يَحِلُّ وَ يَجْمُلُ

*"Mömin (öz həyatını) üç qismə bölür: bir qismini Allahla raz-niyaz və münacata, bir qismini məişətə, bir qismini isə halal və bəyənilən ləzzətlərə həsr edir."*[2]

Bəzi rəvayətlərdə bu cümlə də görünür:

وَ ذالِكَ عَوْنٌ عَلي سائِرِ السّاعاتِ

*"Üçüncü qisim digər qisimləri qüvvətləndirir."*

## *Fərdi və ictimai əxlaq*

Bir sıra alimlərin nəzərinə əsasən, əxlaq normaları ictimai həyatda formalaşır: yəni ictimai yaşayışının mövcud olmadığı, insanların bir-birindən ayrı – fərdi həyat sürdüyü fəzada "əxlaq" heç bir məfhum daşımır. Belə ki, qibtə, həsəd, paxıllıq, təvazökarlıq, təkəbbür, ədalət, zülm, iffət, paklıq, səxavət və digər sifətlər yalnız ictimai və birgə yaşayışın məhsuludur. Deməs,

---

*1 . "Əraf" surəsi, ayə 32.*
*2 . "Nəhcül-bəlağə", qısa kəlamlar 390.*

cəmiyyətdən uzaq olan insan əxlaqi dəyərlərdən də uzaqdır.

Bizim əqidəmizə görə, insanın ictimai həyatında məna kəsb edən bir çox əxlaqi fəzilət və rəzil sifətlər də fərdi yönə malik ola bilir. Məsələn, müsibətlərə dözmək və yaxud ah-nalə etmək, hadisələrdən qorxmaq və yaxud şücaətli olmaq, fərdin müəyyən məqsəd üçün əzmi və yaxud tənbəlliyi, aləmlərin Rəbbinə sitayişi və yaxud qəflətə uyması, Onun sonsuz nemətlərinə şükür etməsi və yaxud nankorluğu kimi (əxlaq elmində fəzilət və rəzil sifətlərə dair) məsələlər fərdi həyatı da əhatə edir. Burada əxlaqın "fərdi" və "ictimai" kateqoriyaları meydana gəlir ki, onun ictimai yönü əxlaq elmində daha böyük əhəmiyyət kəsb edir və şəxsiyyətin formalaşmasında özünəməxsus yer tutur. Bununla belə, fərdi əxlaqın da öz növbəsində əhəmiyyəti az deyildir.

### *Böyük yanlış*

Qeyd etmək lazımdır ki, nəfsi saflaşdırmaq, yüksək səciyyəvi xislətlər qazanmaq üçün ictimai həyatdan uzaqlaşıb, bir guşəyə çəkilənlər, böyük amal və məqsədə nail olacağını təsəvvür edənlər həqiqətən səhv edir və əslində ictimai əxlaqdan məhrum olurlar. Bu həyat tərzi onları bir sıra əyintilərdən uzaqlaşdırsa da, fəzilət sayılmır və onlar eynilə cinsi ehtirası boğmaq üçün öz cinsiyyət üzvünü kəsənə bənzəyirlər. Belə bir fərd əyri yola düşməsə də, onun bu işi fəzilət sayılmır. Bundan əlavə, təcrübi müşahidələrə görə, ictimai həyatdan uzaqlaşıb bir guşədə tək-tənha yaşayan insanda camaata qarşı bədbinlik, xudbinlik, bədxasiyyət, qürur

və Allahın təqdirinə inamsızlıq kimi bir sıra psixoloji pozuntular yaranır ki, gələcək bəhslərdə bu məsələ ilə bağlı geniş söz açılacaq.

İslam dini də məhz ictimai həyatı qiymətləndirir və cəmiyyətdə əxlaqi üsulları gözləməyə böyük əhəmiyyət verir.

## *Əxlaqi-psixoloji pozuntuların müalicəsi*

Bura qədər əxlaq elminin mövzusu, əhəmiyyəti, onun fərdi və ictimai həyatla əlaqəsi ilə bağlı ümumi məsələlər açıqlandı. İndi isə əxlaqi xislətlərin təfərrüatını və rəzil sifətlərin müalicə yollarını araşdırmağa başlayır və elə bu məqsədlə də iki dəqiq məsələni qeyd etməyi lazım bilirik:

**1.** Əxlaqi pozuntulara düçar olanlarla xəstə kimi davranmaq lazımdır. Çünki belə hallar bir növ ruhi-psixoloji xəstəliklərdir ki, bəzən cismi xəstəliklərə səbəb olur, bəzən də cismi xəstəliklərdən qaynaqlanır. Deməli, cismi xəstəliklərin müalicəsində gözlənilən üsullar burada da riayət olunmalıdır.

**2.** Xəstəliklərin müalicəsində həmişə üç əsas nəzərə alınır:

a) Xəstəliyi ayırd etmək;

b) Xəstəliyin səbəbini təyin etmək;

s) Xəstəliyi müalicə və dərman etmək.

Xəstəliyin ayırd edilməsində, adətən, onun təsir və əlamətlərinə diqqət yetirilir. Əlbəttə, bu iş cismi xəstəliklərdə nisbətən asan olur, xüsusilə, müasir təchizatlar buna yaxşı imkan yaradır. Əxlaqi məsələlərə gəldikdə isə, bu iş çox çətindir. Çünki əksər hallarda əxlaqi pozuntuların oxşar əlamətlərə malik olması, yaxud

neçə əxlaqi xəstəliyin nəticəsində yaranan əyri rəftarlar bunu çox çətinləşdirir. Bu səbəbə görə, əxlaq alimləri və təbiblər özlərini, yaxud başqalarını müalicə etmək üçün mütləq onları diqqətlə araşdırmalı, xəstəliyin yaranma səbəblərini ayırd etmək üçün azğın şəxsin keçmiş həyat tərzi (xüsusilə, insan şəxsiyyətinin əsasını təşkil edən uşaqlıq çağları), eləcə də ailə və ictimai mühiti, işi, coğrafi məntəqəsindən tamamilə agah olmalıdırlar. Hətta burada genetik amilləri də nəzərdən qaçırmaq olmaz. Çünki pis əxlaq (cismi xəstəliklər kimi) bəzən genetik yönə də malik olur.

Əxlaqi pozuntuların müalicəsində onların qatı adət hallarına diqqət yetirmək lazımdır ki, belə halların müşahidəsi zamanı ehtiyatla müalicəyə başlamalı, onların düzəlməyəcəyindən əsla ümidimizi üzməməliyik. Amma səthi halların müalicəsi isə, qısa bir müddət ərzində müvəffəqiyyətlə başa çatır. Buna görə də cavan nəslin və ya uşaqların islahı böyüklərə nisbətən daha asandır. Çünki onlar tez aludə olduğu kimi, tez də dərman və müalicə olunurlar. İmam Sadiq (ə) buyurmuşdur:

عَلَيْكَ بِالْاَحْداثِ فَاِنَّهُمْ اَسْرَعُ اِلى كُلِّ خَيْرٍ

*"Cavanlardan başlayın ki, hər bir yaxşılığa yönəlməyə hazırdırlar."*[1]

## *Əxlaqın gigiyenası*

Müasir tibb iki qismə bölünür: "Tibbi müalicə və dərman" və "tibbi gigiyena".

Tibbi müalicə və dərmanın nə olduğu aydındır. Lakin

---

*1 . "Vəsailüş-şiə", 11-ci cild, səh.447.*

tibbi gigiyena dedikdə, xəstəliklərin yaranmasının qarşısını almaq və zərərli amillərin aradan qaldırılması nəzərdə tutulur. Xəstəliyin qarşısını almaq onun müalicəsindən daha asan olduğu üçün gigiyena insanların həyat və taleyində böyük əhəmiyyət daşıyır və bu işə böyük büdcələr ayrılır.

Bunu biz eynilə əxlaqi məsələlər və ruhi-psixoloji xəstəliklərə də aid edə bilərik. Buna əsasən, imkan daxilində əxlaqi pozuntuların qarşısının alınmasında ciddi addımlar atılmalı, lazımı tədbirlər görülməli, özümüzün və başqalarının əxlaqi gigiyenasına diqqət yetirməliyik. Bu məqsədin nisbətən gerçəkləşməsi naminə aşağıdakılara riayət etmək məsləhət görülür:

**1. Zərərli və şübhəli əlaqələri kəsmək:** Şübhəsiz, pis adətlərin çoxu keçici xəstəliklər kimi, müəyyən əlaqə və rabitələr vasitəsilə yaranır. Xüsusilə, azyaşlılıq, məlumatsızlıq və yaxud imanın zəifliyi və bu kimi halların nəticəsində başqalarının bir sıra əxlaq və xüsusiyyətlərinin keçməsinə zəmin yaranır ki, belə hallarda mütləq onlarla əlaqəni qırmaq lazımdır. Bəzən insanın taleyi belə əlaqə və gediş-gəlişlər nəticəsində alt-üst olur və həyatı tamamilə dəyişilir.

İnsan şəxsiyyətinin formalaşmasında ünsiyyət və əlaqələrinin təsiri o qədər böyükdür ki, hətta bəziləri belə demişlər: "İnsanı tanımaq üçün onun dostuna və kimlərlə oturub-durduğu şəxslərə baxmaq lazımdır." İmam Əli (ə) buyurmuşdur:

مَنِ اشْتَبَهَ عَلَيْكُمْ اَمْرُهُ وَ لَمْ تَعْرِفُوا دِينَهُ فَانْظُرُوا اِلى خُلَطائِهِ

*"Vəziyyətinin naməlum və dini-imanını tanımadığınız*

*kəsin dostlarına baxın (və bununla da onu tanıyın)."*[1]

Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

**اَلْمَرْءُ عَلى دِينِ خَلِيلِهِ وَقَرِينِهِ**

*"İnsanın dost və yoldaşı ilə dini tanınır."*[2]

Pis adamlarla yoldaşlıq ruhi zülmət yaradır, müsbət hiss və duyğuları öldürür, pis əxlaq və çirkin əməlləri qəbahətsiz göstərir. Rəvayətlərdə bu hal "ölü qəlb" adlandırılır. Peyğəmbəri-Əkrəm (s) buyurur:

**اَرْبَعٌ يُمِتْنَ الْقُلُوبَ... وَ مُجالَسَةُ الْمَوْتى؛ فَقِيلَ لَهُ: يا رَسُولَ اللهِ! وَ مَا الْمَوْتى؟ قالَ: كُلُّ غَنِيٍّ مُتْرَفٍ**

*"Dörd şey qəlbi öldürür: "...(Onlardan biri də) ölülərlə oturub-durmaqdır." Soruşdular ki, ey Allahın Rəsulu! Ölülər kimlərdir? Həzrət buyurdu: "İsrafçı sərvətlilər."*[3]

Pis adamlarla rabitə insanda bədbinlik hissini oyadaraq, onu ətrafdakılara qarşı bədbin edir. İmam Əli (ə) buyurur:

**مُجالَسَةُ الْاَشْرارِ تُورِثُ سُوءَ الظَّنِّ بِالْاَخْيارِ**

*"Pis adamlarla oturub-durmaq yaxşı insanlara qarşı bədbinlik yaradır."*[4]

Bir sözlə, yoldaşlıq məsələsi o qədər əhəmiyyətlidir ki, hətta Allah-Taala Qurani-Kərimdə peyğəmbərləri belə, pis və şər adamlarla oturub-durmaq və yoldaşlıqdan çəkindirmişdir. Amma buna əks olaraq

---

*1 . "Kafi", Şeyx Kuleyni, 2-ci cild, səh.375.*
*2 . "Biharul-ənvar", 2-ci cild, səh.128.*
*3 . Yenə orada.*
*4 . Yenə orada, 74-cü cild, səh.191.*

yaxşı adamlarla yoldaşlıq isə tərbiyənin, nəfsin saflaşmasının, əxlaqi fəzilətlərin çoxalmasının, qəlbin dirilməsi və şəxsiyyətin təkamülünün mühüm amillərindən sayılır. İslam dini bu məsələyə böyük əhəmiyyət verir və Qurani-Kərimdə buyurulur:

{وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُم بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَن ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا}

***"Səhər-axşam Rəbbinin razılığını diləyərək Onu çağıranlarla birlikdə ol! Heç vaxt gözlərini onlardan (möminlər) çevirmə ki, dünyanın zinətlərinə meyil edərsən. Qəlbini Bizi yad etməkdən qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işlərində ifrata varan kəslərə itaət etmə!"***[1]

Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

اَسْعَدُ النّاسِ مَنْ خالَطَ كِرامَ النّاسِ

*"İnsanların ən səadətlisi onların yaxşı və xeyirxahları ilə oturub-duranıdır."*[2]

**2. Ətraf mühiti islah etmək:** Mühit, xüsusilə aşkar günah və fitnə-fəsada şərait yaradan cəmiyyətdə əxlaqi pozğunluqlara düşmə təhlükəsi çoxdur və bu da inkaredilməz bir həqiqətdir. Deməli, əxlaqın gigiyenası üçün ən əhəmiyyətli məsələ ətraf mühiti pozan amillərlə mübarizə aparmaq, günah və fəsadın qarşısını almaqdır.

---

*1 . "Kəhf" surəsi, ayə 28.*

*2 . "Biharul-ənvar", 74-cü cild, səh.185.*

Ümumiyyətlə, günah, pis adət və rəftarların qarşısını alan ən mühüm amillərdən biri insan nəzərində günah və fəsadın böyüklüyü, qəbahəti, eləcə də ona qarşı nifrət hissidir. Belə ki, onun nəzərində aşkar günah və pis işlərin qəbahəti kiçildiyi zaman ona qarşı nifrət hissi də azalır və hər bir əyri yol üçün zəmin yaranır. Buna görə də İslamda bir sıra günahkarların cəzası, məhz cəmiyyət qarşısında təşkil olunur ki, vaxtaşırı, günahın qəbahəti vicdanlarda canlansın. Necə ki, Qurani-Kərimdə buyurulur:

{وَلْيَشْهَدْ عَذَابَهُمَا طَائِفَةٌ مِّنَ الْمُؤْمِنِينَ}

***"Möminlərdən bir dəstə də o iki nəfərin (zinakar kişi və qadın) əzabına şahid olsun."***[1]

Belə tədbirlər onlarda günaha qarşı nifrət hissini daim yüksəldir, əyri fikir və rəftarların təsiri yenidən bərpa edilir.

İslam dini aşkar günah və fəsadı qadağan edərkən, ictimai pərdələri yırtan bu amilin günahkar şəxsin ehtiramının aradan getdiyinə bais olduğunu da açıqlayır. İmam Sadiq (ə) buyurur:

اِذا جاهَرَ الْفاسِقُ بِفِسْقِهِ فَلا حُرْمَةَ لَهُ

*"Aşkar günah edən kəsə ehtiram yoxdur."*[2]

İmam Məhəmməd Baqir (ə) buyurur:

ثَلاثَةٌ لَيْسَ لَهُمْ حُرْمَةٌ: صاحِبُ هَوىً مُبْتَدَعٌ وَالْاِمامُ الْجائِرُ وَ الْفاسِقُ مُعْلِنٌ بِلْفِسْقِ

*1 . "Nur" surəsi, ayə 2.*

*2 . "Vəsailüş-şiə", 8-ci cild, səh.604.*

*"Üç nəfərə ehtiram düşmür: "Bidət qoyana, zülmkar rəhbərə və açıq-aşkar günah edənə!"*[1]

Hətta cəmiyyət arasında fikirləri bulandıran, ətrafdakılara əyri və pis yolları aşılaya bilən hər hansı bihudə və nalayiq söz danışmaq da İslam baxımından qadağandır. Peyğəmbəri-Əkrəm (s) buyurur:

مَنْ سَمِعَ فاحِشَةً فَاَفْشاها كانَ كَمَنْ اَتاها، وَمَنْ سَمِعَ خَيْراً فَاَفْشاهُ كانَ كَمَنْ عَمِلَهُ

*"Pis bir sözü eşidib faş edən, onu yerinə yetirən kimi və yaxşı bir söz eşidib onu faş edən də onu yerinə yetirən kimidir."*[2]

Bir sözlə, çirkin və xəstə mühiti islah etmək, fitnə-fəsadın yayılmasının qarşısını almaq əxlaqi dəyərləri qoruyan mühüm amillərdən biridir və bunsuz insan özü və başqalarının əxlaqında tam dəyişiklik yarada bilməz. Demək, xəstəliklərlə mübarizə zamanı mikrobların aradan qaldırılmasına əhəmiyyət verildiyi kimi, ictimai mühiti də qorumaq üçün onun gigiyenasına əhəmiyyət vermək lazımdır.

**3. Hicrət – çirkin mühitdən uzaqlaşmaq:** Öncə deyildiyi kimi, mühitin islahı son dərəcə əhəmiyyət daşıyır. Lakin müxtəlif səbəblər üzündən lazımı şərait olmadıqda, insanın orada qalması fitnə-fəsada düşməsinə səbəb ola bilər ki, bu zaman mütləq sağlam və təmiz mühitə köç etmək lazımdır. Biz bu məsələnin bənzərini eynilə bəzi xəstəliklərdə də görə bilərik. Belə ki, çox vaxt həkimlər xəstələrə təbiətin müxtəlif

1 . *Yenə orada, səh.605.*
2 . *Yenə orada, səh.609.*

guşələrinə çəkilməyi məsləhət görürlər.

"Hicrət və köç" məsələsi İslamda xüsusi əhəmiyyət daşıyır və doğrusu, İslam tarixinin əsası da onunla başlanır. İslam Peyğəmbərinin (s) Məkkədən Mədinəyə hicrəti, məhz iman və fəziləti yaymaq üçün çirkin bir mühitdən təmiz və münasib bir mühitə köçü deməkdir. Bir qrup doğru və həqiqi müsəlmanların Peyğəmbəri-Əkrəmin (s) əmri ilə Məkkədən Həbəşəyə hicrəti də bunun başqa bir nümunəsidir.

İslam tarixində ilk müsəlman mühacirlərinin adı xüsusi qeyd edilir və Qurani-Kərimdə onlar haqda çoxlu ayə müşahidə olunur. Günah və şirklə dolu məntəqədən təmiz və sağlam bir yerə hicrətə dair çoxlu hədislər vardır ki, onun əhəmiyyətini daha da artırır. "Məcməül-bəyan" kitabında

{وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيراً وَسَعَةً}

***(Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik tapar!)***[1] – ayəsinin təfsirində Peyğəmbəri-Əkrəmdən (s) belə nəql olunur:

مَنْ فَرَّ بِدِينِهِ مِنْ اَرْضٍ اِلى اَرْضٍ وَ اِنْ كانَ شِبْراً مِنَ الْاَرْضِ اسْتَوْجَبَ الْجَنَّةَ وَ كانَ رَفِيقَ اِبْراهِيمَ وَ مُحَمَّدٍ

*"Öz dini üçün bir məntəqədən başqa məntəqəyə – bir qarış belə – hicrət edən şəxsin behiştə getməsi qətidir və o, İbrahim və Mühəmmədlə (hicrət edən iki böyük peyğəmbər) birgə olacaq."*[2]

Hədisdə qeyd olunan "və in kanə şibrən" (bir qarış

*1 . "Nisa" surəsi, ayə 100.*

*2 . "Biharul-ənvar", 19-cu cild, səh.31.*

belə) – ibarəsi bu məsələyə bir daha təkiddir. Hicrət edən şəxsi iki böyük peyğəmbərə qovuşduran amil onun (Allah yolunda) hicrətidir. Tarixə görə, İbrahim peyğəmbər bütpərəst nəmrudçuların mərkəzi sayılan Babildən Şam və Fələstinə, İslam Peyğəmbəri (s) isə Məkkədən Mədinəyə hicrət etmişdir. Əli ibn İbrahim öz "Təfsir" kitabında

{يَا عِبَادِيَ الَّذِينَ آمَنُوا إِنَّ أَرْضِي وَاسِعَةٌ فَإِيَّايَ فَاعْبُدُون}

***(Ey iman gətirən bəndələrim! Şübhəsiz ki, Mənim yerim genişdir. Buna görə də yalnız Mənə ibadət edin!)*** – ayəsinin təfsirində imam Həsən Əskəridən (a) belə bir hədis nəql edir:

لا تُطِيعُوا اَهْلَ الْفِسْقِ مِنَ الْمُلُوكِ فَاِنْ خِفْتُمُوهُمْ اَنْ يَفْتِنُوكُمْ عَنْ دِينِكُم فَاِنَّ اَرْضي واسِعةٌ

*"Fasiq hökmdarlara itaət etməyin. Əgər onların sizi pak dininizdən çıxaracağından qorxsanız, (hicrət edin,) çünki Mənim yerim genişdir!"*

Hər bir günah və fəsada çəkə bilən məclislərdən uzaq olmaq, naməhrəmlərlə bir otaqda tək qalmamaq və s. kimi İslam göstərişlərinə görə, bunlar da bir növ günah və azğınlıq məntəqəsindən kiçik hicrət sayılır və sözsüz, burada əxlaqi dəyərləri qorumağın, günahdan çəkinməyin əhəmiyyəti nəzərdə tutulur.

# KLASSİK ALİMLƏRİN NƏZƏRİNDƏ ƏXLAQIN ÜSULLARI

Burada hər şeydən əvvəl alimlərin əxlaq üsulları haqda fikir və mülahizələrinə nəzər yetirəcək, onların bu məsələ ilə bağlı nəzərlərini qısa da olsa araşdıracağıq.

Əxlaq alimləri əxlaqi fəzilətləri dörd əsas üsul üzərində yekunlaşdırırlar:

1. Hikmət (zəka);
2. İffət;
3. Şücaət;
4. Ədalət;

Onlar bu üsulları qərizə və hiss üzvlərinin ifrat və təfrit dərəcələri arasındakı orta hədd sayır və hər bir fəzilətin müqabilində iki rəzil və mənfi sifəti də qeyd edirlər:

1. Hikmət – əşyaları olduğu kimi ayırd və dərk etmək, şüurda mötədillik deməkdir. Onun ifrat tərəfi bir növ "sofizm", yəni hər şeyə həddən artıq tərəddüdlə yanaşmaq, ehtimallara əsaslanmaq, şəkk-şübhə yaratmaq, düzgün nəzəriyyələrdən yayınmaq, təfrit tərəfi isə nadanlıqdır.

2. İffət – ehtirasları normal saxlamaq, qərizə və meyillərdən düzgün bəhrələnmək deməkdir. Onun ifrat tərəfi hərislik, təfrit tərəfi isə sönüklük və reaksiyasızlıq adlanır.

3. Şücaət – qəzəb qüvvəsini normal saxlamağa, qorxulu şeylərdən qorxmağa və qorxulu olmayanlardan qorxmamağa deyilir. Onun ifrat tərəfi ümumiyyətlə, qorxmazlıq və təfrit tərəfi isə qorxaqlıqdır.

4. Ədalət – ehtiras və əsəb qüvvəsinin əqlə tabe olması, səadət və islah uğrunda onların düzgün idarəsindən ibarətdir. Onun ifrat tərəfi zülm, təfrit tərəfi isə köləlik, zülmə tabe olmaqdır.

Həmin alimlər mənfi və rəzil sifətləri saysız-hesabsız bilsələr də, orta hədd olan əxlaqi fəzilətləri bir zolaq hesab edərək, onu yalnız dairənin mərkəzi nöqtəsinə, rəzil sifətləri isə dairənin ətrafındakı saysız-hesabsız nöqtələrə bənzətmiş, bəzən də onu sonsuz əyri xətlər içərisindəki iki nöqtəni birləşdirən vahid düz xəttə oxşatmışlar.

Xacə Nəsrəddin Tusi və digər alimlərə görə, dində adı çəkilən tükdən nazik və qılıncdan iti olan "sirat" körpüsündə məqsəd də həmin "əxlaq normalar"ıdır. Bəzi əxlaq alimləri bunu belə izah etmişlər: "Axirət aləmi həqiqətdə dünya həyatının təcəssümü olduğu üçün çox ehtimal ki, "sirat" körpüsü bu aləmdə əxlaq normalarına riayət deməkdir."

Gəlin görək, bu üsullar haradan yaranmışdır?

Əxlaq alimləri insan "nəfs"ini üç qüvvəyə ayırırlar:

1. İdrak qüvvəsi;

2. Mənafe hissi və ehtiras qüvvəsi (geniş mənada);

3. Zərəri dəfetmə hissi, yaxud dafiə, başqa sözlə,

qəzəb qüvvəsi.

Bu qüvvələrin hər birinin normallığı əxlaqi fəzilətlərdən birini təşkil edir ki, tərtiblə "hikmət", "iffət" və "şücaət" adlanır.

Ehtiras və qəzəb qüvvələrinin idrak qüvvəsinə tabe olduğu zaman isə "ədalət" hasil olur. Başqa sözlə, bu qüvvələrin hər birinin mötədilliyi ayrılıqda bir fəzilət sayılır. Amma nə çox ola bilər ki, təcavüzyönlü müharibə meydanında qorxu hissi keçirməyən şücaətli insan zülmkar olsun. Burada şücaət hissi zülmə qulluq etdiyindən belə şəxs ədalətdən uzaq düşür.

## *Təhqiq və tənqid*

Yuxarıda qeyd etdiyimiz kimi, üsullara bir sıra iradlar tutulmuşdur:

**1.** Bəzi əxlaqi səciyyələri həmin dörd üsuldan birinə aid etmək çətindir. Misal üçün, insansevərlik və fədakarlıq xüsusiyyətlərini "iffət"lə uyğunlaşdırmaq olmur. Məsələn, mümkündür, bir şəxs ehtiras hissləri mötədil olduğu halda, insansevər və ya fədakar olmasın. Belə ki, başqalarının hüquqlarına təcavüz etməsə və ya onların zərər çəkməsinə razı olmasa da, fədakar olmaya bilər. Həmçinin nikbinliyi də "hikmət"ə aid etmək olmaz, çünki nikbinlik iki şeyin müqayisəsindən yaranır.

Bəlkə də bu dörd üsul forması antik təfəkkür tərzindən doğmuşdur ki, onlar əksər hadisələrin həmin üsullar üzərində qurulduğunu güman etmiş, maddənin dörd elementdən, bədənin tərkib hissələrinin dörddən, xasiyyətin dörddən və nəhayət, xəstəliklərin əsasının dörddən ibarət olduğunu demiş,

eləcə də bütün dərmanları dörd xassədən birinə malik bilmişlər. İndiki zamanda bizə bəllidir ki, bu dörd bölgünün heç biri düzgün deyil və əxlaq üsullarının dörd hissəyə bölgüsü də elə həmin qəbildən olduğu nəzərə çarpır.

**2.** Hikməti əxlaq üsullarından bilmək və ya rəziləti ona qarşı qoymaq düzgün deyildir. Çünki əxlaqi səciyyələr də idrak qüvvəsi ilə yanaşı meyil, qərizə və emosional hisslər də özünü büruzə verir ki, bu da zəkalılığı "hüsni-əxlaq"dan (yaxşı əxlaq) hesab etməyə imkan vermir.

**3.** Bütün fəzilət və əxlaqi səciyyələri ifrat və təfrit arasında mötədil və orta hədd bilmək də əsassızdır. Çünki bu məsələ bəzən düzgün olsa da, çox vaxt yanlışdır. Məsələn, hikmətin düşüncənin normal forması olduğunu demək düzgün deyildir. Çünki (onun antoniminin ifrat tərəfi olan) "sofizm" şüur və düşüncənin çoxluğundan doğmur. Ona görə də, adətən, elmdə ifratın mənası yoxdur. Əksinə olaraq "sofizm" əxlaq alimlərinə görə, bir növ fikri nasazlıq, zehni azğınlıq deməkdir. Həmçinin ədalətin ifrat tərəfini zülm saymaq olmaz, çünki ədalətdə ifratın mənası yoxdur. Əgər zülmə tabe olmaq tənbəllik və süstlükdən doğursa, onda "iffət"ə qarşı olacaq və əgər haqqı tələb etməyin qorxusundan yaranırsa, onda qəzəb qüvvəsinin təfrit dərəcəsi olacaqdır. Ümumiyyətlə, ədalətdə ifratın mənası yoxdur, xüsusilə də onların ədaləti qəzəb və ehtiras qüvvəsinin əqlə tabeliyi ilə əlaqələndirmələri əsassızdır. Şübhəsiz, bu zaman ifrata varmaq mənasızdır.

Buradan belə nəticə alırıq ki, əxlaqi fəzilət və

səciyyələrdə orta hədd məsələsi şücaət və iffət kimi bir sıra hallara şamil olsa da, həmişə ümumi yönə malik olmayıb, bəzən ədalət və hikmətlə uyğun gəlmir. Həm də yaxşı və pis sifətlərin dörd üsula bölünməsinin də elə bir dəlili yoxdur və çox vaxt iradla yanaşıdır.

Beləliklə, əxlaqi fəzilətləri dörd üsula həsr etməyə bir əsas qalmır. Əksinə insanın vücudundakı istək və hisslərin sayı qədər yaxşı və pis əxlaqi yön ola bilər ki, onların hər birinin inkişaf və mötədilliyi fərd və cəmiyyətin təkamülünə faydalı və müsbət təsirli olduğu zaman "fəzilət", zərbə vurduğu zaman isə "rəzilət" sayılsın. Deməк, orqanizmə uyğun xəstəliklərin sayı qədər də ruha uyğun mənəvi fəzilət və rəzilətlər mövcuddur.

Əhli-beytin (ə) hədis və rəvayətlərində də çoxsaylı əxlaqi fəzilətlər qeyd edilmişdir ki, onları dörd üsul əsasında toplamaq mümkün deyil. Məsələn, "Üsuli-kafi" kitabının "əql və cəhl qoşunları" bölümündə imam Sadiqdən (s) nəql olunan məşhur bir hədisdə əql və cəhlin hər birinin yetmiş beş qoşunu olduğu deyilir ki, onların əsas hissəsi əxlaqi fəzilət və rəzilətlərə aiddir. Yeri gəlmişkən, hədisdə qeyd olunan "qoşun" ifadəsi dərin mənaya malikdir. Yəni əslində qərizə və instinktiv hisslər insanın vücuduna hakim olmayıb, əql və şüur qüvvəsinin sayəsində ehtiyacların təmini və ya aradan qaldırılmasında mühüm rol oynayır.

## *Yaxşı və pis rəftarın əxlaqi meyarı*

Bütün əxlaq və rəftarlar tam aşkar və aydın deyildir. Əlbəttə, şücaət, səxavət və fədakarlıq kimi bəzi dəyərlər o qədər aydındır ki, heç kim onların fəzilət

və yaxşı xislət olduğuna şübhə etmir və onların qorxu, paxıllıq və xudbinlik kimi əks tərəflərini də açıq-aydın rəzilət bilir. Lakin bir sıra xislətlər də vardır ki, insan onların yaxşı, yaxud pis olduğunu ayırd edə bilmir. Buna əsasən, dəqiq meyar olmadan əxlaqi ölçüləri araşdırmaq olmaz. Məsələn, müasir dövrdə Bertrand Rassel kimi bəzi materialistlərin əqidəsinə görə, hər hansı bir əməlin başqalarına zərəri dəyməyincə, onun yerinə yetirilməsini məhkum etməyə bir dəlil yoxdur. Məsələn, elə deyil ki, "tabu" (bir sıra antik adət-ənənələrdə mövcud olan səbəbsiz qadağalar) kimi qədim bir təfəkkürün çirkin adlandırdığı bir əməli hökmən biz də rədd etməliyik və mütləq onun xeyir və zərərini nəzərə almaq lazımdır.[1] Hətta Rassel bir çox pis əməllərə başqalarına zərər yetirmədiyi təqdirdə icazə verir. (O cümlədən, hər iki tərəfin razılığı ilə müxalif və ya həmcinslə iffətsizliyi təbii sayır.)

Sosialist materializmi isə, bir çox ənənəvi-əxlaqi üsulların varlı sinfin mənafeyinə xidmət etdiyini yürütdüyündən, onlar yalnız fəhlə hərəkatının inkişaf və davamına kömək edən qaydaları etik sayırdılar. Həmçinin müəyyən bir məktəb və təfəkkürə tabe olmayan qruplar tərəfindən (həya və iffət kimi) bir sıra məsələlər barəsində yürüdülən fikirlərin artması da, şübhəsiz, əxlaqi bəhslərdə aydın bir meyara ehtiyac duyulduğunu göstərir.

Belə isə, ümumi rəftarlarda əxlaqi meyar nədir və ya necə ayırd etmək olar ki, filan əməl əxlaqidir, yoxsa əxlaqa zidd; başqa sözlə, fəzilətdir, yoxsa rəzilət? Əgər bunu dini-məzhəbi baxımdan araşdırmaq istəsək,

---

*1 . "Cəhani ki, mən mi-şenasəm!", səh.68.*

vəzifəmiz tamamilə aydındır. Çünki İslam dininin haqq olduğunu bildikdən sonra əxlaqi fəzilət və rəzilətlərin üsullarını ayırd etmək üçün Quran və sünnədə mövcud olan qəti sənədlərə müraciət edəcəyik. Hər halda, bunu nəzərə almalıyıq ki, insanın təkamülünə şərait yaradan amillər "fəzilət", onu azğınlığa və geriyə salan amillər isə "rəzilət" sayılır. İnsan yalnız maddi və dünyəvi ehtiyacları baxımından diqqət mərkəzində olmamalı, onun mövcudatdan xüsusi fərqləndirən mənəvi yönlərinə də əhəmiyyət verilməlidir. Hətta müəyyən bir əməl başqalarının əzab-əziyyətinə səbəb olmasa da, onu yerinə yetirən şəxsi mənəvi qiymətdən sala bilir və şübhəsiz, həmin əməl rəzil və çirkin iş sayılır.

Təkcə maddi yönləri nəzərə alanlar həqiqətdə insanı yarımçıq (bəlkə də çox az) tanımışlar. Halbuki əxlaqi üsullar insan vücudunun bütün yönləri – həm cismi, həm də ruhu əsasında araşdırılmalıdır. Bundan da pisi insanın mənəvi yönlərinə əsla diqqət yetirməyən və maddi yönlərdə də yalnız bir qismə (insan əməyinə) göz dikən sovet əxlaqıdır.

Məlum olduğu kimi, belə məktəblər insanın varlığını düzgün işıqlandıra bilmədiyindən düzgün nəticələr də çıxara bilməz və sözsüz, əxlaqi fəzilət və rəzilətlərin təyinində böyük səhvlərə düçar olacaq. Buna əsasən, əxlaqi üsulların düzgün əql və məntiqə uyğun təyinində öncə qeyd etdiklərimiz mütləq nəzərə alınmalıdır: insan təkamülünün bütün yönlərinə diqqət yetirilməli, ona kömək edən amillər ayırd edilməli, onların əsasında fəzilət və rəzilətlər müəyyənləşdirilməlidir.

## *Əxlaqın fərdi və guşənişin həyat tərzinə baxışı*

Görəsən, mənəvi saflaşma və əxlaqi fəzilətlərin kəsbi cəmiyyət arasında daha yaxşı mümkündür, yoxsa cəmiyyətdən uzaq guşənişin həyat tərzində? Təbii olaraq bu sual çoxlarını düşündürür. Bəzi mütəfəkkirlərin nəzərinə görə, adətən, cəmiyyətdən uzaq düşən insanda fərdi və əxlaqi səciyyələr daha sağlam formalaşır. Çünki əyri rəftar və hisslərin bəzisi və ya əksəriyyəti cəmiyyətin məhsuludur. İnsan da həsəd, paxıllıq, təkəbbür, yalan, qeybət, böhtan, riya, kin-küdurət və bu kimi xüsusiyyətlər başqaları ilə əlaqədə yaranır. Camaatla birgə yaşamayan şəxs nə qeybət edir, nə qeybət eşidir, nə o başqasına, nə başqası ona paxıllıq edir, nə riyakarlığa düçar olur, nə yalan danışır, nə kin-küdurət bəsləyir, nə də pis gümanlara düşür. Cəmiyyətdən ayrılıb fərdi, guşənişin həyat tərzi keçirməyin tərəfdarları içərisində bəzi əxlaq alimləri, zahid və abidlər qeyd edilən fikrə dair onun fəzilət və əxlaqın inkişafına təsiri haqda digər dəlil və sübutlar da irəli sürürlər. Onlar deyirlər ki, guşənişin insan Allaha daha yaxşı ibadət edə bilir, münacat və raz-niyaz zamanı Onun dərgahına tam hüzuri-qəlblə üz tutur, yaradılışın sirlərini, digər elm və fənləri daha yaxşı qavrayır, həqiqətləri başqalarından yaxşı ayırd edir və düzgün nəticə çıxarmağa mane olan təəssübkeşlik, kin-küdurət, dava-dalaş və çəkişmələr fərdi və guşənişin həyat tərzində çox azdır. Bu səbəblərə görə də bir çox böyük mütəfəkkirlər fərdi, guşənişin həyat tərzi keçirmiş, ona xüsusi üstünlük vermişlər.

Bundan əlavə, cəmiyyətdə yaşayan insanın

üzərinə, adətən, bir çox ağır vəzifə və məsuliyyət düşür ki, çox vaxt onların öhdəsindən gələ bilmir və ya səhlənkarlığa yol verir və nəhayət, haqq yolunu azır. Məsələn, insan ictimai həyatda bir sıra çirkin və yaramaz işlərlə üzləşir ki, "əmr be məruf" (yaxşılığa dəvət) və "nəhy əz münkər" (pislikdən çəkindirmək) vəzifəsi onu mübarizəyə çağırdığı halda, vəzifəsinin faydasız olduğunu görüb cəmiyyətdən ayrılır, fərdi və guşənişin həyat tərzinə üz gətirir. Hələ bir sıra ayə və rəvayətlərdə də cəmiyyətdən uzaq düşməyin və guşənişinliyin təriflndiyini, müsbət olduğunu görürük. Burada nümunə üçün bir neçə ayə və rəvayəti qeyd etməklə kifayətlənirik:

{فَلَمَّا اعْتَزَلَهُمْ وَمَا يَعْبُدُونَ مِن دُونِ اللَّهِ وَهَبْنَا لَهُ إِسْحَقَ وَيَعْقُوبَ وَكُلًّا جَعَلْنَانَبِيًّا}

1. ***"Onlardan və onların Allahdan başqasına ibadət etdiklərindən uzaqlaşdığı zaman Biz ona İshaqla Yəqubu bəxş etdik və onların hər birini (böyük) peyğəmbər etdik!"***[1]

Bu ayədə İbrahim peyğəmbərin cəmiyyətdən ayrılıb, bir tərəfə çəkildiyi zaman peyğəmbər seçilən övladlara sahib olduğu göstərilir.

{وَإِذِ اعْتَزَلْتُمُوهُمْ وَمَا يَعْبُدُونَ إِلَّا اللَّهَ فَأْوُوا إِلَى الْكَهْفِ يَنشُرْ لَكُمْ رَبُّكُم مِّن رَّحمته}

2. ***"(Onlara dedik:) Onlardan və Allahdan başqasına ibadət etdiklərindən uzaqlaşdığınız zaman mağaraya***

---

*1 . "Məryəm" surəsi, ayə 49.*

***sığının ki, Rəbbiniz sizə Öz rəhmətindən əta etsin!"***[1]

Bu ayə də "Əshabi-kəhf"in cəmiyyətdən uzaqlaşıb, bir guşəyə – mağaraya üz tutduqları zaman ilahi lütf və mərhəmətə şamil olduqlarına dəlalət edir.

**قِيلَ لِرَسُولِ اللهِ(ص): اَيُّ النّاسِ اَفْضَلُ؟ قالَ: مُؤْمِنٌ مُجاهِدٌ بِنَفْسِهِ وَ فِي سَبِيلِ اللهِ تَعالى. قِيلَ: ثُمَّ مَنْ؟ قالَ: رَجُلٌ مُعْتَزِلٌ فِي شِعْبٍ مِنَ الشِّعابِ يَعْبُدُ ربَّهُ وَ يَدَعُ النّاسَ فِي شَرِّهِ**

3. *"Peyğəmbəri-Əkrəmdən (s) "İnsanların ən fəzilətlisi kimdir?" – deyə soruşulduqda, o həzrət buyurdu: "Mal və canı ilə Allah yolunda cihad edən mömin şəxs!" Soruşdular: "Ondan sonra (fəzilətli şəxs) kimdir?" Həzrət buyurdu: "Cəmiyyətdən ayrılıb, bir dağ yamacında Allaha ibadət edən və camaatın da onun şərindən amanda qalan şəxs!"*[2]

Bu hədisə görə də "cihad"dan sonra bir tərəfə çəkilib fərdi və guşənişin həyat tərzi keçirmək xüsusi qiymətləndirilir.

4. "Misbahuş-şəriət" kitabında imam Sadiqin (ə) belə buyurduğu nəql olunur:

**صاحِبُ الْعُزْلَةِ مُتَحَصِّنٌ بِحِصْنِ اللهِ وَ مُحْتَرِسٌ بِحَراسَتِهِ فَيا طُوبى لِمَنْ تَفَرَّدَ بِهِ سِرّاً وَ عَلانِيَةً**

*"Guşənişin həyatı seçən şəxs Allahın qalasına sığınmışdır. Xoş olsun aşkar və gizlində Allahla birgə olanların halına!"*[3]

---

*1 . "Kəhf" surəsi, ayə 16.*
*2 . "Məhəccətül-beyza", 4-cü cild, səh.9. Bu hədisin ravisi Əbu Səid Xudridir və "Ehyaül-ülum" kitabının haşiyəsində də nəql olunmuşdur.*
*3 . "Biharul-ənvar", 70-ci cild, səh.110.*

## *Mədəni-ictimai təfəkkürün tərəfdarlarının dəlilləri*

Yuxarıdakı guşənişin həyat üçün qeyd edilən fayda və müsbət təsirlərin müqabilində belə həyat tərzinin müxtəlif zərərləri də vardır ki, ictimai əlaqələrin faydaları kənarında onları ictimai həyatın üstünlüyü dəlillərindən hesab etmək olar:

**1.** İctimai həyatın dəyər və əhəmiyyətini bildirən ilk məsələ odur ki, əxlaqi fəzilət və səciyyələrin çoxunu yalnız ünsiyyətdə qazanmaq olur və bu da fərdi həyat tərzində mümkün deyil. Çünki bu səciyyələrin çoxu – təvazökarlıq, məhəbbət, fədakarlıq, əfv və güzəşt, səxavət, səbir, qəzəbə qalib gəlmək, şəfqət, mehribanlıq, nəfsi ələ almaq və s. xüsusiyyətlər digər insanlarla əlaqə və münasibətlər zamanı tapılır ki, onları qazanmaq üçün insanlarla birgə yaşamaq lazımdır. Bir də ki, cəmiyyətdən uzaq olan fərdi həyat tərzində həsəd və paxıllıq, təkəbbür, yalan, qeybət və bu kimi hallardan kənar qalmaq həqiqətdə fəzilət deyil və artıq burada onların mənası da yoxdur. Bu, eynilə bir şəxsin iffət və paklığa zidd əməldən xilas olması üçün özünü bir sıra əzalarından məhrum etməsinə bənzəyir. O şəxs müəyyən çirkinliklərdən amanda qalsa da, onun paklığı burada fəzilət yox, bir növ qorunmaqdır. Fəzilət isə odur ki, insan cəmiyyətdə yaşadığı halda, Yusif peyğəmbər kimi, həssas mövqelərdə öz nəfsinə hakim kəsilib, iffətə zidd rəftar etməsin. Bu da göstərir ki, bir çox dəyər və əxlaqi fəzilətləri qazanması üçün birgə yaşayış və camaatla ünsiyyətdən başqa yolu yoxdur. Başqa sözlə, bu səciyyəvi xüsusiyyətlər ehtiras və fitnə-fəsadla mübarizə zamanı kəsb edilir. Necə ki,

ağaclar küləklər vasitəsilə möhkəmlənir, inkişaf edir və ucalır. Əgər onlar bağlı mühitdə becərilsə, həmin möhkəmliyi itirəcək. Eləcə də bir tərəfə çəkilib fərdi həyat tərzi keçirənlər tədricən bir çox ruhi-əxlaqi keyfiyyətləri əldən verirlər. Bəlkə də aşağıdakı hədis elə bu həqiqətə toxunur:

Peyğəmbəri-Əkrəmin (s) dövründə müsəlmanlardan biri ibadət məqsədilə camaatdan ayrılıb, bir dağa çəkildi. Onu Peyğəmbəri-Əkrəmin (s) yanına gətirdikdə, Həzrət buyurdu:

لا تَفْعَلْ اَنْتَ وَ لا اَحَدٌ مِنْكُمْ، لَصَبْرُ اَحَدِكُمْ فِي بَعْضِ مَواطِنِ الْاِسْلامِ خَيْرٌ مِنْ عِبادَةِ اَحَدِكُمْ اَرْبَعِينَ عاماً

*"Nə sən, nə də sizlərdən (müsəlmanlar) heç biriniz belə bir iş görməsin. Çünki bəzən İslama görə sizlərdən birinizin dözüm və səbri qırx ilin ibadətindən yaxşıdır!"*

Bu hədislə fərdi və guşənişin həyat tərzinin tərəfdarlarının birinci dəlilinin cavabı aydınlaşır.

**2.** Cəmiyyətdən uzaq fərdi həyat tərzində bir sıra fikri azğınlıqlar yaranır ki, insan nə qədər ağıllı olsa da, yenə səhvlərdən yaxa qurtara bilmir. Bu səhvlər yalnız başqaları ilə ünsiyyətdə üzə çıxır və insan onları başa düşür. Cəmiyyətdən ayrılıb fərdi həyat sürən insan isə islahdan yayınıb öz azğın yoluna davam edir və bir o qədər də haqq yoldan uzaqlaşır. Bəzən azğın düşüncələri onu tamamilə səhv nəticələrə yuvarlayır. Deməк, cəmiyyətdən uzaq düşüb fərdi həyat tərzi tərəfdarlarının "İnsan tək və guşənişin olduqda, yaxşı təfəkkür edir, düşünür!" – fikri tam səhvdir. Çünki təklikdə azğınlığın təhlükəsi daha çoxdur.

**3.** Fərdi və guşənişin həyat tərzində insanın düçar olduğu böyük eyiblərdən biri də xudbinliyi və özünüsevməsidir. İnsanın özünə rəğbəti hissi, adətən, onu özünə və öz xasiyyətlərinə həddən artıq bağlayır, bu hiss həqiqətdə bir mikroskop kimi onun elm və bacarığını olduğundan daha böyük, eyiblərini isə olduğundan daha kiçik göstərir. Beləliklə, bu hisslər onda özünüsevmə və xudbinlik xüsusiyyətlərini dirçəldir.

Buna əks olaraq insan ictimai həyat və başqaları ilə birgə yaşayışda özünü olduğu kimi tanıyır, öz kamal və bacarığından, eləcə də eyib və nöqsanlarından xəbərdar olur, ondan üstün və fəzilətli olanlarla üzləşdiyi zaman öz eyib və nöqsanlarını başa düşür. Bu isə xudbinliyin kökünü qırır, yaxud azaldır. Halbuki cəmiyyətdən ayrılıb bir guşəyə çəkilənlərin çoxları bəzən qəribə iddialara düşürlər ki, bu da onların sərt xudbinliyini göstərir.

Yeri gəlmişkən, buradan aydınlaşır ki, ictimai əlaqələrin böyük faydalarından biri də insanın öz eyiblərini sezə bilməsidir. Xalq, xüsusilə insanı bəyənməyənlər, yaxud düşmənləri onun eyibləri üçün gözəl ayna sayılır, bəlkə də onlar olmadıqda, bir çox eyibləri həmişəlik gizli qalır, bir guşədə tək-tənha həyat sürməklə bu aynanı sındırmış olur və getdikcə ruhi surəti aynaya əsla baxmayanların çirkin surətinə düşür!

**4.** Ətrafdakılara qarşı bədbinlik: Cəmiyyətdən ayrılıb bir tərəfə çəkilməyin, guşənişin həyat tərzi keçirməyin eyib və nöqsanlarından biri də xalqa qarşı bədbinlikdir ki, həqiqətdə bu xislət də xudbinlikdən

mənşələnir. Çünki xudbin insan əksər hallarda xalq tərəfindən özünə qarşı münasib rəftarı (təvəqqesi qədər təşəkkür və minnətdarlığı) müşahidə etmədikdə, onda müxtəlif fikirlər baş qaldırır. Elə güman edir ki, camaatın ona qarşı mövqeyi səhvdir və qərəzli surətdə dəyərə qarşı etinasızlıq edirlər. Nəticə etibarı ilə belə xalq hüquq və fəzilətləri gözləmir, cəhalətdədir və onlarla əlaqə saxlamağın da mənası yoxdur.

Bunlar göstərir ki, guşənişinliyin özü bu səhv fikrə zəmin yaradır, cəmiyyətə qarşı bədbinliyi artırır.

**5.** Sərtlik və əsəbilik: Cəmiyyətdən uzaqlaşıb tək yaşayanlar adətən, əsəbi, qaş-qabaqlı və sərt olurlar. Onlar meyilləri ilə uyğun olmayan bir söz eşitdikdə, yaxud bir hadisə gördükdə, tez narahat olur, necə deyərlər, özlərindən çıxırlar. Əlbəttə, bu nəzər ümumi yönə malik olmasa da, bir çox hallarda müşahidə edilir.

Lakin buna əks olaraq, camaatla birgə yaşayanlar, adətən, mülayim, mehriban və xoşəxlaq olur, hər şeyə əsəbiləşmirlər. Bunun da səbəbi aydındır. Çünki onlar belə hallarla çox üzləşdiyi üçün əhval-ruhiyyələri tarazlaşır, onlarda hövsələ, səbir və dözüm artır. Təbiidir ki, ictimai həyat bir sıra narahatedici hadisələrlə yanaşı olduğundan, insan da tədricən təmkinli olmağa çalışır. Bundan əlavə, fərdi həyat tərzi keçirənlər, adətən, az gülür, az zarafat edir, düzgün istirahət etmir, həyat tərzləri eyni və yorucu olur. Bu isə onlarda ruhi normaları dəyişdirir. Onlar daxili gərginliklərini açmaq və aradan qaldırmaq fikrinə düşmədiyindən həmişə ruhi-psixoloji nasazlıq və narahatlıq içərisində qalırlar. Bu da getdikcə sərt rəftar və əsəblərini artırır.

**6.** Elm və təcrübədən məhrum olmaq: Bir çox

bilik və təcrübələri yalnız mədəni həyatda öyrənmək mümkündür. Bu da həqiqətdir ki, birgə həyatın nəticəsi müsbət və faydalı təcrübələrdən başqa bir şey deyildir.

Yuxarıda qeyd edilən mədəni və ya guşənişin həyat tərzinin fayda və zərərlərinə diqqət yetirdikdə, birinci qrupun tərəfdarlarının məntiqli nəzər və dəlillərinin üstünlüyü tamamilə aydınlaşır.

## *Tərki-dünyalığın müstəsna halları*

Burada neçə məsələni qeyd etməyi lazım görürük. Bəzən insanın ictimai həyatında müstəsna hallar qarşıya çıxır ki, cəmiyyətdən ayrılmaq, guşənişinliyə çəkilmək, yaxud heç olmazsa, ictimai əlaqələri azaltmaqdan başqa bir yolu qalmır. Bu o zamandır ki, çirkin və azğın mühitdə yaşadığından ictimai əlaqələrin ona yalnız zərəri vardır. Keçici xəstəliklər yayılan ərazilərdən uzaqlaşmaq vacib olduğu kimi, belə cəmiyyət və mühitlərdən də mütləq uzaqlaşmaq lazımdır. Peyğəmbərlərin sərgüzəştlərində həzrət İbrahimin (ə), yaxud "Əshabi-kəhf"in cəmiyyətdən uzaqlaşması da məhz bu qəbildəndir. Yaxud imam Sadiqin (ə) Süfyan Suriyə buyurduğu məsləhət də elə bu həqiqətə toxunur. Belə ki, o həzrət buyurmuşdur:

فَسَدَ الزَّمانُ وَ تَغَيَّرَ الْإِخْوانُ فَرَاَيْتُ الْاِنْفِرادَ اَسْكَنَ لِلْفُؤادِ

*"Zaman korlanmış, dostlar isə dəyişilmişdir. Odur ki, təklik və guşənişinliyi qəlbə rahatlıq bəxş edən gördüm."*[1]

Elə bu hədislə guşənişinlik və cəmiyyətdən uzaq düşməyin tərəfdarlarının bir çox dəlillərinin cavabı aydınlaşır.

1 . *"Biharul-ənvar", 47-ci cild, səh.60.*

Həmçinin pis rəftar və əxlaqa malik olan və onu əsla tərk edə bilməyən insanın da camaatın onun pis rəftarından amanda qalması üçün guşənişinliyə çəkilməsi bəyənilmiş iş sayılır. Guşənişinlik və cəmiyyətdən uzaq düşməyin tərəfdarlarının dəlilləri bəhsində nəql etdiyimiz "rəculun moṫəzilun fi şiḃin minəş-şiab" – hədisi belələrinə işarədir.

Qeyd edilməsi lazım olan başqa bir incə məsələ də odur ki, insanın ictimai əlaqələrlə yanaşı, hər gün dərindən düşünməsi, riya və Allaha qarşı şəkk-şübhədən uzaq ibadət və itaətlə məşğul olması üçün bir neçə saat tək-tənha qalması və guşənişinliyə çəkilməsi zəruridir. Bir çox böyük alim və āriflər gündəlik həyat proqramlarında belə işlərə vaxt ayırmışlar. Mümkündür, guşənişinliyi tövsiyə edən rəvayətlərin bir qismi elə bunu nəzərdə tutmuş olsun!

Demək, insanın həyatında dönüş yaradan əsas amil ictimai əlaqələrə, cəmiyyətdən uzaq düşmək isə xüsusi zamanlara aiddir.

## *"Müraqibə" və "mühasibə", yaxud məqsəd və nəticələrin araşdırılması*

Əxlaq alimləri öz əsərlərində əxlaqi səciyyələrin qazanılması və rəzil sifətlərin dəfində bu iki əsasın zəruriliyini qeyd etmişlər. Şübhəsiz, bu iki faktorsuz heç kim ruhi və əxlaqi təkamül dərəcələrini keçə bilməz.

"Müraqibət" – iş və əməldən öncə onun keyfiyyətinə diqqət yetirilməsi, "mühasibə" isə əməldən sonra onun nəticə və təsirinin arayıb araşdırılması deməkdir. Bəzən onların birində qəflət və xəbərsizlik insanı

acınacaqlı taleyə düçar edə bilər ki, ondan xilas olmaq asan deyildir.

Burada insanın ruhi vəziyyəti eynilə cisminə bənzəyir. O, öz cisminin sağlamlığını qorumaq üçün müxtəlif gigiyenik qaydaları gözləməli, hər dəfə yeməkdən və hər hansı bir mühitdə yaşamaqdan qabaq müxtəlif xəstəliklərin səbəb və mənşəyinə diqqət yetirməlidir. Bəzən insan yoluxucu xəstəliklərə qarşı müqavimət qüvvəsi yaratmaq üçün "vaksin" vurdurmalı, bəzən yemək və s. ilə əlaqədar digər rejimlər saxlamalı, bəzən də dəqiq müayinədən keçmək üçün özünü mütəxəssis həkimə göstərməli, müayinədən sonra müşahidə olunan mənfi təsirləri aradan qaldırmaq üçün əsaslı şəkildə özünü cismən qüvvətləndirməlidir.

Əxlaqi nasazlıqlarla mübarizə aparmaq və ruhi sağlamlıq əldə etmək üçün nəzərdə tutulan ölçülərə riayət zəruridir. Ümumiyyətlə, insani keyfiyyət və əxlaqi gözəllikləri qazanmağa cəhd göstərmək istəyən insan mütləq aşağıdakı məsələləri nəzərə almalıdır:

1. Həmişə özünü gözləməli və özündən qabaq hər an Allah-Taalanın onu görüb qoruduğunu diqqət mərkəzində saxlamalıdır. Qurani-Kərimdə buyurulur:

{أَفَمَنْ هُوَ قَآئِمٌ عَلَى كُلِّ نَفْسٍ بِمَا كَسَبَتْ}

***"Hər bir kəsin nə qazandığına nəzarət edən Allah bunu bacarmayan bütlər kimidirmi?"***[1]

Bu ayədən belə başa düşülür ki, Allah-Taala insanın başı üstə durub, onu qoruyan şəxs kimidir. Başqa bir ayədə isə belə buyurulur:

*1 . "Rəd" surəsi, ayə 33.*

{إِنَّ اللّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا}

***“Həqiqətən, Allah sizin üzərinizdə gözətçidir!”*[1]**

Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan hədisdə belə buyurulur:

أُعْبُدِ اللهَ كَأَنَّكَ تَراهُ فَإِنْ لَمْ تَرهُ فَإِنَّهُ يَراكَ

*“Allaha elə ibadət et ki, sanki Onu görürsən; əgər sən Onu görməsən də, O, səni görür!”*[2]

Diqqəti cəlb edən odur ki, bu hədis “Nəhl” surəsinin “İnnəllahə yəmuru bil-ədli vəl-ehsan!” ***(Həqiqətən, Allah ədalətli olmağı və yaxşılıq etməyi əmr edir!)***[3] – ayəsində qeyd edilən “ehsan” sözünün təfsirində buyurulmuşdur. Yəni bütün yaxşılıqların qaynağı “müraqibət”dir (nəfsi nəzarət altına alıb, ona diqqət yetirməkdir).

2. Hər bir söz və əməldən qabaq onun səbəb və nəticəsini götür-qoy etmək lazımdır. Hədisdə buyurulur:

اِنَّهُ يُنْشَرُ لِلْعَبْدِ فِي كُلِّ حَرَكَةٍ وَ اِنْ صَغُرَتْ ثَلاثَةُ دَواوِينَ: اَلْاَوَّلُ لِمَ؛ اَلثّانِي كَيْفَ؛ اَلثّالِثُ لِمَنْ

*“Hər bir rəftar və əməli – kiçik olsa belə – yerinə yetirən zaman onun xüsusiyyətlərini yazmaq üçün üç dəftər açılar: birincisi (əməlin) səbəbini, ikincisi keyfiyyət və necəliyini, üçüncü isə kimin üçün yerinə yetirildiyini (son məqsədini) göstərir.”*[4]

1 . *“Nisa” surəsi, ayə 1.*
2 . *“Biharul-ənvar”, 72-ci cild, səh.279.*
3 . *“Nəhl” surəsi, ayə 90.*
4 . *“Ehyaül-ülum” və “Məhəccətül-beyza”.*

Şübhəsiz, belə təfəkkür tərzi insanı çirkinliklərə qarşı hazır edir.

3. Gündəlik işləri yerinə yetirdikdən sonra əməlləri dəqiq “mühasibə” etmək (hesaba çəkmək) lazımdır. İnsandan baş verən xəta və günah ruhi formaya düşməzdən qabaq dərhal onun təsirləri qəlb və ruhdan təmizlənməlidir; belə ki, onun acınacaqlı axır-aqibəti haqda düşünüb özünü danlamalı, nəfsini qınamalı, gələcəkdə özünü möhkəm gözləmək və idarə etmək üçün lazımı qərara gəlməli, qurşandığı çirkin iş qədər yaxşı əməllər yerinə yetirməlidir ki, canı və qəlbinin saflığı ilkin vəziyyətə qayıtsın. Eynilə cismi xəstəlikdən qurtulan şəxs kimi, müəyyən bir müddətdə iman, ruh və mənəviyyatını gücləndirməyə başlamalıdır. (Həqiqi tövbə də məhz bundan ibarətdir.)

“Mühasibə” və insanın özünü sorğu-suala çəkməsi çox mühümdür və Peyğəmbəri-Əkrəm (s) bu haqda buyurmuşdur:

اِنِّي لَاَسْتَغْفِرُ اللهَ وَ اَتُوبُ اِلَيْهِ فِي الْيَوْمِ سَبْعِينَ مَرَّةً

*“Mən hər gün yetmiş dəfə tövbə və istiğfar edirəm.”*[1]

Aydındır ki, Peyğəmbərin (s) tövbəsi günaha görə yox, itaətkarlığın keyfiyyət və necəliyi ilə bağlıdır!

*1 . “Məhəccətül-beyza”, Feyz Kaşani, 2-ci cild, səh.315.*

# ÖZÜNÜİSLAHDA İLK ADDIM
# DİL VƏ DANIŞIQ

### *Dil – zahir və batinin aynası*

Əxlaqi bəhslərdə dil və danışıq qəlbin aynası, əqlin nümayəndəsi, insan şəxsiyyətinin açarı və ruha açılan mühüm qapı kimi yüksək əhəmiyyət daşıyır. Başqa sözlə, ruh aynasında görünənlər (düşüncə və hisslər) dil və danışıqda aşkar olur. Əgər keçmişdə təbiblər orqanizmin səhhətini xəstənin dili ilə müayinə edirdilərsə, müasir psixoloqlar əksər hallarda psixoloji gərginlikləri insanların danışıqlarında arayıb-axtarırlar! Əxlaq alimləri də məhz dil və danışığın islahına xüsusi əhəmiyyət verir, onun islahını ruhi təkamül, fəzilət və əxlaqi səciyyə hesab edirlər. Əhli-beytdən (ə) nəql olunan hədislərdə də bu mövzu qısa və diqqəti cəlb edən təbirlərlə açıqlanır. Aşağıdakı iki hədis bizim müddəamıza şahiddir. İmam Əli (ə) “Nəhcül-bəlağə”də belə buyurur:

اَلْمَرءُ مَخْبُوءٌ تَحْتَ لِسانِهِ

*"İnsan dilinin altında gizlənib!"*[1]

İmam Sadiq (ə) buyurur:

لا يَسْتَقِيمُ اِيمانُ عَبْدٍ حَتّى يَسْتَقِيمَ قَلْبُهُ، وَ لا يَسْتَقِيمُ قَلْبُهُ حَتّى يَسْتَقِيمَ لِسانُهُ

*"Bəndənin qəlbi düzəlməyincə imanı düzəlməz, dili düzəlməyincə də qəlbi düzəlməz!"*[2]

## *Dildən çıxan otuz böyük günah*

Əksər günahların dilin vasitəsilə baş verdiyini bildiyimiz zaman bir sıra yaxşı əməllər kimi, dilin islahına verilən əhəmiyyət da daha aşkar olur. Mərhum Feyz Kaşani "Məhəccətül-beyza"da, Qəzali isə "Ehyaul-ülum" kitabında "dilin günahları" ünvanı ilə geniş mövzu açmışlar. Məsələn, Qəzali dildən çıxan iyirmi günah və xətanı qeydə almışdır ki, aşağıdakılardan ibarətdir:

1. İnsana aid olmayan işlər haqda danışmaq;
2. Çox və yersiz danışmaq;
3. Azğın işlərdən söhbət açmaq, məsələn, şərab, qumar və əxlaqsız qadın məclislərini vəsf etmək;
4. Mübahisəni qızışdırmaq, başqalarını təhqir etmək, yaxud öz üstün cəhətlərini dilə gətirərək ətrafındakıları alçaltmaq;
5. Çəkişmə, mücadilə və inadkarlıq;
6. Sözdə fəndişlətmə, qafiyəbazlıq və s.

---

*1 . "Nəhcül-bəlağə", "qısa kəlamlar": 148.*

*2 . "Biharul-ənvar", 75-ci cild, səh.262 və "Məhəccətül-beyza", 5-ci cild, səh.193.*

7. Söyüş söymək və tərbiyəsizlik;
8. Lənət demək;
9. Xanəndəlik və ədəbə zidd şeirlər söyləmək;
10. Məcazi ifadələrdə ifrata varmaq;
11. İstehza və masqara etmək;
12. Başqalarının sirrini faş etmək;
13. Yalan vəd vermək;
14. Yalan danışmaq və and içmək;
15. Qeybət;
16. Xəbərçilik;
17. İkiüzlülük;
18. Yersiz tərif;
19. Danışığa diqqət yetirməmək və dil ilə xəta və günahlara yol vermək;
20. Başa düşmədiyi mövzular haqda kor-koranə suallar vermək.

Bildiririk ki, dilin afət və azğınlıqları Qəzalinin qeyd etdiklərilə bitmir və verilənlər dilin xətalarının qabarıq nümunələridir. Məsələn, onlara aşağıdakıları da əlavə etmək olar:

1. Töhmət;
2. Nahaq şəhadət vermək;
3. Özünü tərifləmək;
4. Yalan və əsassız şayiələr yaymaq;
5. Kobudluq;
6. (Bəni-İsrail kimi) hər şeyə israrla yanaşmaq;
7. Dil və sözlə başqalarını incitmək;
8. Məzəmmətə layiq olmayan şəxsi danlamaq;
9. Dillə nemətə nankor olmaq;
10. Əyri işlərə cəlb etmək və günaha təşviq.

Əlbəttə, qeyd etdiklərimizin bəziləri başqa birisi

ilə uyğun gələ bilər. (Məsələn, yalan vədi və nahaq şəhadəti yalanın qismindən hesab etmək olar.) Eləcə də bəziləri təkcə dilə məxsus deyil. (Məsələn, qeybət, mömini incitmək, nemətə nankor olmaq və s. günahlar həm dil, həm də dildən başqa üzvlər vasitəsilə də baş verir.)

Şübhəsiz, burada dilin islahına dair əxlaq normaları mühüm bir məsələ kimi araşdırılmalıdır. Onun əhəmiyyəti o zaman daha aydın olur ki, biz dilin insanın ixtiyarındakı aciz və kiçik bir üzv olduğu halda, digər əzalara nisbətən əməldə sürətini dərk etmiş olaq. Odur ki, bu üzvü daim qorumalı, onu şiddətli partlayış gücü və qabiliyyətinə malik maddəyə bənzətməliyik. İnsan belə bir maddəyə həssas yanaşdığı kimi, bədəninin ən aktiv üzvü olan dilə qarşı da son dərəcədə diqqətli olmalıdır.

## *Sükut*

Əxlaq ustadları dilin azad buraxılması nəticəsində üz verən təhlükələri nəzərə alıb, danışmağın zəruri olduğu yerləri müstəsna etməklə sükutu böyük və ağır təhlükələrin qarşısını alan amil saymışlar. Peyğəmbəri-Əkrəm (s) və Əhli-beyt imamlarından (ə) nəql olunan bir çox rəvayətlərdə sükutun əhəmiyyəti haqda gözəl məsləhətlər verilir. Məhz bəzi ariflər də nəfsin saflaşdırılmasına elə buradan başlamışlar. Bir də ki, sükut insanı təfəkkürə, mənəviyyata və daxili saflığa sövq edir. Allahın böyük peyğəmbəri Zəkəriyyanın sərgüzəştində oxuyuruq ki, üç gün sükut orucu tutmaqla Allah dərgahında duası qəbul olur. Quranda belə buyurulur:

{قَالَ رَبِّ اجْعَل لِّي آيَةً قَالَ آيَتُكَ أَلَّا تُكَلِّمَ النَّاسَ ثَلَاثَ لَيَالٍ سَوِيًّا}

***"Zəkəriyya dedi: "Ey Rəbbim! Mənim üçün bir əlamət müəyyən et!" Allah buyurdu: "Əlamətin odur ki, sağlam ikən üç gün-üç gecə insanlarla danışa bilməzsən."***[1]

Biz başqa bir ayədə də Məryəmə sükut orucu tutmaq göstərişi verildiyinin şahidiyik. Belə ki, buyurulur:

{فَقُولِي إِنِّي نَذَرْتُ لِلرَّحْمَنِ صَوْمًا فَلَنْ أُكَلِّمَ الْيَوْمَ إِنسِيًّا}

***"De: "Mən rəhman olan Allah üçün oruc (sükut orucu) tutmağı nəzir etmişəm və bu gün heç kimlə danışmayacağam."***[2]

İslam Peyğəmbəri (ə) də hər dəfə vəhy nazil olmazdan qabaq neçə gün ardıcıl "Hira" dağında sükuta qərq olar və yaradılışın sirləri haqda düşünərdi.

Sükutun faydalarına dair qısa şəkildə aşağıdakıları misal göstərmək olar:

1. Sükut insanı bir çox günahlardan qoruyur. Peyğəmbəri-Əkrəm (s) qısa və mənalı bir cümlədə belə buyurur:

مَنْ صَمَتَ نَجا

*"Sükut edən nicat tapar (başqa sözlə, qurtuluş susanındır)."*[3]

Bunun səbəbi aydındır. Çünki xəta və günahların çoxu dil vasitəsilə baş verir. Necə ki, Peyğəmbəri-Əkrəm (ə) buyurur:

1 . *"Məryəm" surəsi, ayə 10.*
2 . *"Məryəm" surəsi, ayə 26.*
3 . *"Biharul-ənvar", 77-ci cild, səh.88 və "Məhəccətül-beyza", 5-ci cild, səh.192.*

اِنَّ اَكْثَرَ خَطايَا ابْنِ آدَمَ فِي لِسانِهِ

*"İnsanın əksər xəta və səhvləri dilindədir."*[1]

Başqa bir hədisdə də belə buyurulur:

اُخْزُنْ لِسانَكَ اِلّا مِنَ الْخَيْرِ فَاِنَّكَ بِذالِكَ تَغْلِبُ الشَّيْطانَ

*"Dilini xeyir söyləməkdən başqa yerlərdə qoru ki, bununla şeytana qalib gələrsən."*[2]

2. Sükut insanı mənəvi həyat mənbəyi olan təfəkkür və düşüncəyə sövq edir. Adətən, şüur və təfəkkür sahibləri əməl meydanında olur, çox danışanlar isə işdən yayınmağa çalışırlar. Peyğəmbəri-Əkrəm (s) başqa bir hədisdə belə buyurur:

اِذا رَأَيْتُمُ الْمُؤْمِنَ صَمُوتاً وَ قُوراً فَادْنُوا مِنْهُ فَاِنَّهُ يُلْقِي الْحِكْمَةَ

*"Sükut içində olan vüqarlı mömini gördükdə, onunla əlaqə saxlayın ki, dilindən hikmət yağar!"*[3]

İmam Əli (ə) buyurur:

اِذا تَمَّ الْعَقْلُ نَقَصَ الْكَلامُ

*"Ağıl kamilləşdikdə, söz də azalar."*[4]

Qeyd olunan hədislərdən məlum olur ki, sükut təfəkkür qüvvəsini dirildən ən gözəl amildir. İnsan bihudə danışarkən düşüncə qabiliyyətini itirir. Əgər bu enerjini toplaya bilsə, həqiqi təfəkkürə nail olacaq. Bir də ki, sükut ruha aramlıq, duyğulara mötədillik bəxş edir.

---

*1 . "Məhəccətül-beyza", 5-ci cild, səh.194.*
*2 . Yenə orada, 5-ci cild, səh.195.*
*3 . Yenə orada.*
*4 . "Nəhcül-bəlağə", qısa kəlamlar 71.*

3. Çox danışmaq insanı dəyərdən salır, səhvləri artır, həyası azalır və xətalara yol açan həya pərdəsi yırtıldıqda da, əyri və çirkin əməllər adiləşir. İmam Əmirəlmöminin Əli (ə) buyurur:

مَنْ كَثُرَ كَلامُهُ كَثُرَ خَطَاُهُ، وَ مَنْ كَثُرَ خَطَاُهُ قَلَّ حَياؤُهُ وَ مَنْ قَلَّ حياؤُهُ قَلَّ وَرَعُهُ، وَ مَنْ قَلَّ وَرَعُهُ ماتَ قَلْبُهُ، وَ مَنْ ماتَ قَلْبُهُ دَخَلَ النّارَ

*"Çox danışanın səhvi çox olar, səhvi çox olanın həyası azalar, həyası azalanın təqvası azalar, təqvası azalanın qəlbi ölər, qəlbi ölən isə cəhənnəmə daxil olar."*[1]

Buradan belə qənaətə gəlirik ki, sükut ibadətdə də böyük rol oynayır. Bir hədisdə buyurulur:

اَلْعِبادَةُ عَشَرَةُ اَجْزاءٍ تسْعَةٌ مِنْها فِي الصَّمْتِ

*"İbadət on qisimdir, onun doqquzu sükutdadır."*[2]

Qeyd etməliyik ki, burada sükut heç kimlə danışmamaq, bir guşəyə çəkilib fərdi həyat tərzi keçirmək yox, əksinə qeybət, yalan, töhmət və bu kimi günahlardan qorunmaqdır. İnsan bu günahlardan çəkinməklə, sağlam əhval-ruhiyyə ilə yanaşı fəzilət də qazanmış olur. Amma danışmağın zəruri olduğu yerlərdə sükut ən böyük eyib sayılır və insanın zəifliyini, gücsüzlüyünü, Allahdan başqasından qorxusunu göstərir. Bütün bunlara rəğmən, yaxşı əməllərin mühüm bir qismi, o cümlədən, Allahı yad etmək, camaatı doğru yola yönəltmək, "əmr be məruf" (yaxşılığa dəvət) və "nəhy əz münkər" (pislikdən çəkindirmək), təlim-tərbiyə və s. dilin imkanlarındandır.

---

*1 . "Nəhcül-bəlağə", qısa kəlamlar 349.*

*2 . "Məhəccətül-beyza", 5-ci cild, səh.196.*

# DÜZ DANIŞMAQ ŞƏXSİYYƏTİN BARİZ NİŞANƏSİ

## *Doğruluğun dəyər və əhəmiyyəti*

Şübhəsiz, doğruluq və düz danışmaq (sözdə sadiqlik və əmanətdarlıq) sifətləri insan şəxsiyyətinin ən bariz nişanələridir. Bu iki sifətsiz heç kimə həqiqi insan adını vermək olmaz və hər ikisi də müştərək bir kökdən qaynaqlanır. Çünki düz danışmaq sözdə əmanətdarlıqdan başqa bir şey deyil və doğruluq da əməldə sədaqət deməkdir. Sonra qeyd edəcəyik ki, onların ictimai təsirləri də bir-birinə yaxındır. İslam rəhbərlərinin kəlamlarında "sidqul-hədis" (düz danışmaq) və "ədaul-əmanət" (əmanətdarlıq və doğruluq) birgə qeyd edilib. İnsanlar da adi söhbətlərində düz danışmaqla doğruluğu eyni mənada işlədirlər.

Qeyd etdiyimiz kimi, düz danışmaq və doğruluq insan şəxsiyyətinin səciyyəvi xassəsi kimi, onun təfəkkür yüksəkliyi və ruh saflığını büruzə verir. Düz danışanlar, adətən, şücaətli, arxayın, ixlaslı, tamahsız, yanlış təəssüblərdən, dostluq və düşmənçilikdə ifratdan uzaqdırlar. Çünki bunlar düz danışığın meyarı

və onlarsız düzlüyü müəyyənləşdirmək çətindir. Yalan danışanlar isə, adətən, qorxaq, riyakar, tamahkar, inadkar, təəssübkeş olub, dostluq və ədavətdə ifrata varırlar.

Düz danışanlar həyatda qayda-qanunları pozmur, şəxsi mənafe güdmür, hiylə və ikiüzlülükdən uzaq olurlar. Çünki sədaqət və doğruluq bunların heç biri ilə uyğun gəlmir. Gələcək bəhslərdə (yalanın səbəblərində) qeyd edəcəyik ki, yalan həmin çirkin xislət və rəzilətlərin mənşəyidir. Bu baxımdan düz danışmağı bir sıra batini hisslərin kəşfində açara bənzətmək olar. Əhli-beytdən (ə) nəql olunan bəzi hədislərdə də düz danışmaq və doğruluq insanları tanımaq üçün meyar sayılmışdır. İmam Sadiq (ə) buyurmuşdur:

**لا تَنْظُرُوا اِلى طُولِ رُكُوعِ الرَّجُلِ وَ سُجُودِهِ فَاِنَّ ذالِكَ شَيْءٌ قَدِ اعْتادَهُ فَلَوْ تَرَكَهُ اسْتَوْحَشَ لِذالِكَ، وَ لاكِنِ انْظُرُوا اِلى صِدْقِ حَدِيثِهِ وَ اَداءِ اَمانَتِهِ**

*"İnsanı səcdə və rükusunun uzunluğu ilə qiymətləndirmə! Ola bilər, bunu adət üzrə görsün və əgər onu tərk etsə, narahat olar. (Əksinə) onun düz danışığı və əmanətdarlığına bax!"*[1]

Qurani-Kərimdə buyurulur:

**{وَلَتَعْرِفَنَّهُمْ فِي لَحْنِ الْقَوْلِ}**

***"Həqiqətən, onları (münafiqləri) danışıqlarından tanıyacaqsan."***[2]

### *Düz danışmağın təsirləri*

İctimai nöqteyi-nəzərdən düz danışmaq və

1 . *"Biharul-ənvar", 71-ci cild, səh.8.*
2 . *"Mühəmməd" surəsi, ayə 30.*

doğruluq insana cəmiyyətdə inam və etimad qazandırır. Bildiyimiz kimi, bəşəriyyətin bütün elmi, texnoloji və iqtisadi tərəqqiləri onların həyat sistemi, yəni ictimai yaşayışının nailiyyətləridir. Lakin ictimai həyatın əsasını təşkil edən həmkarlıq və səmimi ünsiyyət onların bir-birlərinə qarşı inam və etimadlarından doğur. Əks-təqdirdə, həyat problemlər, qalmaqallar, narahatlıqlar, ağrı-acılar və vəfasızlıqlarla üzləşəcək.

Məlum olduğu üzrə, inam və etimadı qazanmaqda doğruluq və düz danışmaq mühüm rol ifa edir və onun qorxulu düşməni isə yalandır. Məsələn, iqtisadiyyatda əmtəə və məhsulların təbliğində gedən yalan, şişirtmə reklamlar, sözsüz, alıcı kütləsinin rəğbətini qazanmayacaq. Hakim orqanların yalan məlumatları onların doğru vəd və təkliflərini də şübhə altına alacaq və xalqın etimadını qazanmayacaqlar. Yalanın elmi ocaqlara nüfuzu da, sözsüz, alim, müəllim və tələbə sinifləri arasındakı etimadı azaldacaq, elmi-tədqiqi işlərdə birtərəflilik hökm sürəcək və qiymətli həmkarlıq işlərinə son qoyulacaq. O təbəqələr arasında yalan isə xəyanətdir.

### *Yalan – günahların mənşəyi*

Hədislərə əsasən, düz danışmaq və doğruluq insanın əməllərini saflaşdırır, yalan isə onu günahlara çəkir. Mümkündür, bəziləri düz danışmaq və yalanın insanın əməl və rəftarında təsirini dərk etməsin. Bununla əlaqədar bir məsələni araşdırmağı lazım bilirəm. Lakin əvvəlcə Əhli-beyt imamlarından nəql olunan hədislərə toxunmaq istəyirəm. İmam Əli (ə) buyurmuşdur:

اَلصِّدْقُ يَهْدِي اِلَى الْبِرِّ وَالْبِرُّ يَدْعُوا اِلَى الْجَنَّةِ

*"Düz danışmaq (insanları) yaxşılığa yönəldir, yaxşılıq da behiştə çağırır."*[1]

İmam Sadiq (ə) buyurmuşdur:

اِذا صَدَقَ الْعَبْدُ قالَ اللهُ: صَدَقَ وَ بَرَّ، وَ اِذا كَذِبَ قالَ اللهُ كَذَبَ وَ فَجَرَ

*"Bəndə düz danışdıqda, Allah-Taala "O düz danışdı və yaxşı iş gördü!", yalan danışdıqda isə "O, yalan danışdı və pis iş gördü!" – buyurar."*[2]

İmam Həsən Əskəri (ə) buyurmuşdur:

جُعِلَتِ الْخَبائِثُ كُلُّها فِي بَيْتٍ وَ جُعِلَ مِفْتاحُها اَلْكِذْبُ

*"Bütün çirkinliklər bir evdə toplanıb və açarı da yalandır."*[3]

Bu hədisdən aydın başa düşülür ki, yalan bütün günah və çirkinliklərin mənşəyidir. Aşağıda insanın əməlində düz danışmağın və yalanın təsirlərini qeyd edirik:

1. Yalan nifaq və ikiüzlülük əlamətidir. Düz danışıqda dil və qəlb uzlaşdığı halda, yalan isə onları qarşı-qarşıya qoyur. İnsanın zahiri ilə batini arasındakı fərq də elə buradan başlanır və yalan danışan yavaş-yavaş nifaqa doğru yönəlir. Qurani-Kərimdə bu həqiqət belə açıqlanır:

{فَأَعْقَبَهُمْ نِفَاقًا فِي قُلُوبِهِمْ إِلَى يَوْمِ يَلْقَوْنَهُ بِمَا أَخْلَفُواْ اللّهَ مَا وَعَدُوهُ

---

1 . *"Mişkatul-ənvar", Təbərsi, səh.157.*

2 . *Yenə orada, səh.156.*

3 . *"Biharul-ənvar", 72-ci cild, səh.263.*

وَبِمَا كَانُوا۟ يَكْذِبُونَ}

***"Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan danışdıqlarına görə (bu əməl) onların ürəyinə Allaha qovuşacaqları günə (qiyamət gününə) qədər nifaq saldı."***[1]

2. Yalan çox vaxt günahlar üçün bir vasitə olur. Məsələn, oğru, xain, möhtəkir, vəfasız və qorxaq adamlar yalan danışmasalar əl-ayaqları bağlanar, işləri keçməz.

3. Özündənrazı, paxıl, xəbərçi, dünyagir və tamahkar şəxslər məqsədlərinə çatmaq üçün, adətən, yalana əl atır və bununla qarşı tərəfi camaatın gözündə kiçildir, özlərini böyük və alicənab kimi göstərir, xalq arasında təfriqə salırlar.

**4.** Düz danışanlar və bu xislətin sahibləri, adətən, günahlardan qorunmağa çalışırlar. Həmişə əyri və günah işlərin aqibətini düşünərək bir zaman rüsvay olacaqlarından qorxub, günaha əl uzatmırlar. Bununla da həmin xislət onlarda bir növ sipərə çevrilir.

**5.** Yalanlar çox vaxt insanı yalançılığa və digər günahlara sövq edir. Çünki yalan danışan şəxs xilaf və çirkin işini yozmaq üçün başqa-başqa yalanlara, yaxud yalanının üstü açılmamaq üçün digər xilaf əməllərə də əl atır.

Bunlar göstərir ki, həmişə düz danışmağı özünə vəzifə bilən insan yalan vasitəsilə baş verən bir çox günahlardan uzaq olur.

---

*1 . "Tövbə" surəsi, ayə 77.*

## *Yalan imanla uyğun gəlmir*

Bir çox hədislərə əsasən, yalan imanla ziddir və yalançının nişanəsi imansızlığıdır. Bütün bu hədislər Qurani-Kərimə əsaslandırılıb. Belə ki, bir ayədə buyurulur:

{إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِآيَاتِ اللّهِ وَأُوْلـئِكَ هُمُ الْكَاذِبُونَ}

***"Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsl yalançılardır."***[1]

Mümkündür, qeyd olunan "yəftəril-kəzibə" (yalan uydururlar) təbiri bilə-bilə yalan danışanlara aid olsun.

İndi isə rəvayətlərə nəzər salaq:

سُئِلَ رَسُولُ اللهِ(ص): يَكُونُ الْمُؤْمِنُ جَباناً؟ قالَ: نَعَم. قِيلَ: وَ يَكُونُ بَخِيلاً؟ قالَ: نَعَمْ. قِيلَ: وَ يَكُونُ كَذّاباً؟ قالَ: لا

**1.** *Peyğəmbəri-Əkrəmdən (s) "Mömin qorxaq ola bilərmi?" – deyə soruşulduqda, buyurdu: "Bəli!" Soruşdular: "Paxıl da ola bilərmi?" Buyurdu: "Bəli!" Yenə soruşdular: "Yalançı necə?" Buyurdu: "Xeyr!"*[2]

**2.** İmam Əli (ə) buyurur:

لا يَجِدُ عَبْدٌ طَعْمَ الْاِيمانِ حَتّى يَتْرُكَ الْكِذْبَ هَزْلَهُ وَ جِدَّهُ

*"İnsan yalanı – istər ciddi, istərsə də zarafat olsun – tərk etməyincə, imanın dadını duymaz."*[3]

**3.** İmam Əli (ə) buyurur:

جانِبُوا الْكِذْبَ فَاِنَّهُ مُجانِبُ الْاِيمانِ

---

*1 . "Nəhl" surəsi, ayə 105.*

*2 . "Biharul-ənvar", 72-ci cild, səh.262.*

*3 . Yenə orada, 72-ci cild, səh.249.*

*"Yalandan çəkinin ki, o, imana qarşıdır."*[1]

Bu bir neçə hədisdən məlum olur ki, möminlər yalandan çəkinir və imanla yalan bir yerə yığışmır. Buradan belə nəticə çıxarırıq ki, yalan insanın qəlbinə qaralıq gətirir və yalançı kəs özünü başqaları ilə müqayisə edərək dinə dəvəti asanlıqla qəbul etmir. Belə ki, onlar kiçik və dəyərsiz məsələlərə görə yalan danışdıqları üçün başqalarının mühüm sözlərinə də inanmırlar. Belələri hətta möminlərin cərgəsinə də qoşula bilər, lakin qəlblərinin şəkk və tərəddüddən yaxa qurtarması mümkün deyildir. Əlbəttə, bu, hədislərin ibarəsi ilə desək, "kəzzab"lara (əsl yalançılara) aiddir. Buna əks olaraq düz danışanlar, adətən, tez inanır, özləri düz danışdıqları üçün eşitdikləri hər sözə əhəmiyyət verirlər. Yalançılar isə hər kəsə və hər şeyə qarşı ya bədbindirlər, ya da şübhə ilə yanaşırlar. Belə isə heç onlarda iman hissi möhkəmlənə bilərmi? Tarix də göstərir ki, çox vaxt münafiq, azğın və yalançılar ilahi peyğəmbərlərə iftira yaxırmış, onları yalançı hesab edirmişlər.

Başqaları ilə özünü müqayisə hissi insanda psixoloji bir hal olub, bəzən bir çox işlərin həllinə yol açır. Məsələn, çox vaxt canilər, oğrular, xainlər qeyri-adi hərəkətləri ilə başqalarını xəbərdar edirlər. Öz batinlərindən xəbərdar olduqları üçün başqaları ilə müqayisə zamanı özlərini gizlətməyə çalışır və nəhayət, qeyri-adi hərəkətləri ilə diqqəti özlərinə cəlb edirlər.

*1 . Yenə orada, 78-ci cild, səh.9.*

## *Yalan insanı dəyərdən salır*

Yalançı elə təsəvvür edir ki, boyun qaçırdığı vəzifələrini cürbəcür hiylələrlə yoza biləcək. Belələri üçün əhd-peymanı pozmaq, fürsəti əldən vermək, vəzifəyə əməl etməmək və s. çox asandır. Çünki bir sıra saxta üzrlərlə məsələni sadələşdirib, məsuliyyətdən danışaraq özünü suçsuz qələmə verəcək. Lakin doğruluq və düz danışmağı seçənlər bunun əksinə olaraq heç vaxt səhlənkarlığa yol vermir, özlərini dəyər və qiymətdən salmırlar.

## *Yalançı özünə də inanmır*

Yalançılar ətrafdakılara inanmadıqları kimi, bəzən özlərinə də etibar etmirlər. Həqiqətdə onlar hər şeyə, hətta öz iradə və bacarıqlarına biganədirlər, həyatda çətinliklərlə üzləşməkdən qorxurlar. İmam Əmirəlmömininin Əlinin (ə) "Nəhcül-bəlağə"nin "qısa kəlamlar" bölümündə belə bir buyruğu var:

**اِيّاكَ وَ مُصادَقَةَ الْكِذّابِ فَاِنَّهُ كَالسَّرابِ! يُقَرِّبُ عَلَيْكَ الْعَبِيدَ وَ يُبَعِّدُ عَلَيْكَ الْقَرِيبَ**

*"Yalançı ilə dostluqdan çəkin ki, o, ilğıma bənzəyir; sənə uzağı yaxın, yaxını isə uzaq göstərər."*[1]

Bu məsələ, yəni həqiqəti əksinə göstərmə yalançılarla oturub-duranlara nisbət verilsə də, ona adət nəticəsində yalançıların özünə də keçir və onlar hər həqiqət və gerçəkliyə şəkk edirlər. Bu isə insanın öz vicdanından ayrıldığı ən dərdli haldır.

---

*1 . "Nəhcül-bəlağə", qısa kəlamlar 38.*

## *Yalanın mənşəyi*

Öncə işarə etdiyimiz kimi, yalan, psixoloji zəifliyin nişanəsidir. Bəzən insanın yoxsulluğu kimlərinsə onun ətrafından dağılması, hər hansı məqam və mövqeni əldən verməsi qorxusu onu yalana vadar edir və bura mal-dövlət, məqam, vəzifə və mənafe hissləri də daxildir. Bəzən şiddətli təəssübkeşlik, ifrat dərəcədə sevgi və məhəbbət, kin-küdurət və nifrət də yalana bais olur, insan istədiyi kəsin xeyrinə, yaxud nifrət etdiyi kəsin zərərinə olaraq həqiqəti gizlədir. Hətta özlərini müxtəlif yanlış ifadələrlə böyük, elmli və bilikli göstərənləri də buna misal göstərmək olar.

Həqiqətdə yalana bais olan bu mənfi sifətlər daxili-ruhi acizlik və imanın zəifliyindən irəli gəlir. Özünə inanmayan ruhən zəif kəslər hər hansı məqsədə nail olmaq və ya zərərdən yaxa qurtarmaq üçün yalana və xəyanətə əl atırlar. Şücaətli, mətanətli və iradəli kəslər isə öz mənəvi qürurlarına sığınır, uğur və müvəffəqiyyətləri bunda görürlər. Allahın yenilməz qüdrət və qüvvəsinə kamil iman gətirənlər bütün nemət, bərəkət, uğur və müvəffəqiyyəti Onunku bilir, Onun bütün qüdrətlərdən üstün olan himayəsinə arxalanaraq mənfəət əldə etmək, yaxud zərəri aradan qaldırmaq üçün yalana lüzum görmürlər.

Bəzən də yalanın pis təsirləri və doğruluğun əhəmiyyəti unudulduqda, yaxud ailə ocağını dağıdan və sağlam ictimai həyatı pozan mühit hakim kəsildikdə, insanda bu rəzil sifət kök atır.

Yalan danışmağa bais olan amillərindən biri də insanın öz şəxsiyyətinə həqarət hissidir. Bu hissə giriftar olan, bəzən yalan danışmaqla onu aradan qaldırmaq

fikrinə düşür.

### *Yalanın müalicəsi*

Yalan doğuran amillərə diqqət yetirməklə, onun müalicəsi yolu da aydın olacaq. Ümumiyyətlə, onun müalicəsi üçün aşağıdakı üsullar məsləhət görülür:

**1.** Hər şeydən öncə bu xəstəliyə düçar olanlara onun acınacaqlı aqibətini, maddi-mənəvi, fərdi-ictimai təsirlərini anlatmaq, Quran ayələri, din rəhbərləri və alimlərin kəlamları əsasında yalanın cüzi mənfəətləri müqabilində aqibətin bada verilməsini düzgün müqayisə etmək lazımdır. Həmçinin onlara yalanın bəzən insana verdiyi xeyrinin ani və keçici olması başa salınmalıdır. Çünki cəmiyyətdə insana qarşı etimad və inamdan böyük sərmayə yoxdur və onun böyük düşməni isə yalandır.

Bəziləri elə təsəvvür edir ki, yalanın üstünün açılmaması ilə inam və etimadı qorumaq olar. Bu da yanlış fikirdir və gec-tez yalanın üstü açılır. Buradakı sirri belə izah etmək olar: xarici aləmdə hər bir hadisə zaman, məkan, insanlar və digər əşyalarla əlaqədar baş verir. Amma xaricdə mövcud olmayan hadisənin müəyyən danışıqla icadı isə bütün əlaqə və bağlılıqlardan kənar surəti deməkdir. Hətta çox zirək və diqqətli olub, əlavə neçə yalanı artırmaqla, əsl yalanla hadisələr arasında əlaqə yaratmaq fikrinə düşülsə də, heç vaxt həqiqi əlaqələrin yerini doldurmaq olmaz. Ona görə də çox vaxt yalançılar neçə sualdan sonra çıxış yolu tapa bilməyib, aciz qalırlar. Məsələn, imam Əlinin (ə) bir cavanla əlaqədar yürütdüyü hökmünə diqqət yetirək. O cavanın atası mal-dövlətini götürüb,

bir neçə nəfərlə birlikdə səfərə çıxmışdı. Səfərdən qayıdarkən yoldaşları onun öldüyünü iddia etdilər. Halbuki müttəhimlər onun qatilləri idilər. İmam Əli (ə) cüzi məsələlərə toxunaraq cavanın atasının xəstəliyi, ölümü, kəfən və dəfni haqda müxtəlif suallar soruşur və onlar rüsvay olurlar. Çünki onlar cavanın atasının xəstəlik nəticəsində öldüyü fikri ilə əlbir olmuşdular. Amma onların onun harada, hansı saat və hansı gündə vəfat etdiyi, kimin ona qüsl verdiyi, kəfənlədiyi, namaz qıldığı və s. uyğun gəlməyən cavabları həqiqəti aşkar etdi.

Yalan danışan nə qədər mahir olsa belə, sadə bir təhqiqatla yalanlarının üstü açıla bilər. Bir də ki, insanın yalanlarındakı saxta bağlılıqların bir həqiqəti olmadığından və onları düzgün yadında saxlaya bilmədiyindən müəyyən zamandan sonra ondan soruşulduqda, çaşaraq bir-birinə zidd cavablar verir ki, bu da yalanın üstünün açılmasına kömək edən digər bir amildir. "Yalançının yaddaşı olmaz!" fikri də, məhz bunu sübut edir, yəni insanın yaddaşı nə qədər güclü olsa da, yenə belə bir halda dizə çökür!

**2.** Şəxsiyyətvermə: yalanın müalicəsi ilə bağlı ən təsirli üsullardan biri insanda şəxsiyyət hissini yaratmaqdır. Bildiyimiz kimi, adətən, yalan ruhi-psixoloji amil kimi, özünü göstərən şəxsiyyətsizlik və həqarət hissindən doğur. Həqiqətdə yalan həmin hissi dəf etmək üçün bir növ vasitə olur.

Əgər yalana adət edənlər daxildə daha üstün qüvvə və istedadlara malik olduqlarını, eləcə də onları inkişaf etdirməklə dəyər və şəxsiyyətlərinin ucaldığını hiss edərlərsə, daha saxta şəxsiyyətə görə

yalana əl atmayacaqlar. Onlara başa salmaq lazımdır ki, sadiq insanın əxlaqi səciyyələrlə qazandığı etimad və ictimai dəyəri bütün dəyərlərin fövqündə durur və heç bir maddi gəliri "ictimai şəxsiyyət" adlı böyük mənəvi sərmayə ilə müqayisə etmək olmaz. Onlar bu böyük sərmayə ilə digər maddi imkanlara da malik ola bilərlər. Belə insanlar həm xalqın nəzərində başıucadırlar, həm də Allah dərgahında peyğəmbərlər və şəhidlərin məqamına yüksəlirlər. Qurani-Kərimdə düz danışanların məqamı peyğəmbər və Haqq yolunda şəhid olanlarla eyni qeyd olunur. Məsələn, bir ayədə buyurulur:

{وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَـئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء وَالصَّالِحِينَ وَحَسُنَ أُولَـئِكَ رَفِيقًا}

***"Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemət verdiyi peyğəmbərlər, siddiqlər (düz danışanlar), şəhidlər və əməlisalehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır."***[1]

Lüğət alimi Rağib İsfahani "Müfrədat" kitabında "siddiq" sözü üçün neçə məna qeyd etmişdir:

a) sırf düz danışanlar;

b) heç vaxt yalan danışmayanlar;

c) sözü və əqidəsində doğru olanlar (onların doğruluğunu əməlləri təsdiqləyir).

**3.** Yalana adət edənlərdə Allaha imanın əsaslarını gücləndirmək, onlara Allahın qüdrətinin hədsizliyi və bütün çətinliklərin həllinə qadir olduğunu, yalançı şəxsdə isə imanın zəif olduğunu başa salmaq lazımdır.

*1 . "Nisa" surəsi, ayə 69.*

Düz danışanlar hər bir hadisədə Allaha söykənir və güvənir, yalançılar isə belə hallarda tək-tənha qalırlar.

**4.** Yalanın səbəblərini – tamah, qorxu, xudbinlik, təəssübkeşlik, ədavət və s. kimi əxlaqi natarazlıqların əsaslarını qırmaq lazımdır ki, onlarda bu rəzil sifət inkişaf etməsin.

**5.** Onların ətraf mühitini yalançılardan təmizləmək lazımdır ki, təsir altına düşməsinlər.

Bu məsələ böyük əhəmiyyət daşıyır və İslamın tərbiyəvi göstərişlərində özünəməxsus yer tutur. İmam Əli (ə) buyurur:

**لا يَصْلُحُ الْكَذِبُ جِدٌّ وَلا هَزْلٌ وَلا اَنْ يَعِدَ اَحَدُكُمْ صَبِيَّهُ ثُمَّ لا يَفِي لَهُ**

*"Yalan danışmaq caiz deyil; istər ciddi olsun, istərsə də zarafat. Həmçinin sizin öz övladlarınıza verdiyiniz vədinizə vəfa etməməyiniz də yaxşı deyildir."*[1]

Demək, ata-ana (övladlarına verdiyi kiçik vədələrdə belə) düz danışmağa adət etsələr, övladları da yalan danışmaz.

## *Yalanın müstəsna halları*

Əxlaq alimləri və fəqihlər hədislərə istinad edərək yalanın müstəsna hallarını qeyd etmiş və bəziləri yalan danışmağa iki yerdə icazə vermişlər: 1. Zərurət və çarəsizlik zamanı; 2. İki nəfər arasında sülh və barışıq yaratmaq üçün.

Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

**اِحْلِفْ بِاللهِ كاذِباً وَ نَجِّ اَخاكَ مِنَ الْقَتْلِ**

*"Allaha yalan and iç və günahsız qardaşını ölümdən*

1 . *"Vəsailüş-şiə", 8-ci cild, səh.577.*

*xilas et."*[1]

Burada hər şeydən öncə iki məsələyə diqqət yetirməliyik:

1. Həqiqətdə yalanın bütün müstəsna halları bir nöqtəyə tuşlanıb və o da budur ki, yalana yalnız onun mənfi təsirlərini kölgə altına salan mühüm hadisələrdə icazə verilir. Bu qayda təkcə yalana aid olmayıb, "meyit, murdar ət və nəcis yemək", "yetimə əziyyət vermək" və s. kimi haram olan məsələlərdə də canı qorumaq, yaxud ədəbləndirmək üçün məsləhət görülür. Hədislərdə qeyd olunan (müstəsna) hallar nümunə kimi göstərilib. Məsələn, insanlar arasında sülh yaratmaq, qəlbləri bir-birinə qovuşdurmaq, qəlblərdən ədavət və kin-küdurəti yumağın faydası kiməsə zərər yetirməyən yalandan mühüm olduğu üçün ona icazə verilib. Özünün, həm də başqalarının canı, malı və namusunu qoruyan, yaxud hərbi əməliyyat və gərgin hallarda bir müharibəyə son qoyan, qan tökülməsinin qarşısının alan, yaxud da amansız düşmən və peşəkar canini məhkum edən yalan əhəmiyyət daşıyır. Hətta bəzən, ər-arvad arasında baş verən bir sıra qarşıdurmalar ayrılığa və yaxud çəkişmələrə gətirib çıxardığı zaman bir yalanla aralarındakı ixtilaf aradan qaldırıla bilər. Bütün bu hallarda yalan daha mühüm məsləhətlərə görə caiz olur. Göründüyü kimi, işarə edilən hallarda yalanın zərər və mənfi təsirləri faydaları ilə müqayisədə müşahidə olunmur.

2. Burada diqqəti cəlb edən məsələ odur ki, bu hallarda yalan danışmağın caiz olması eynilə canı qorumaq üçün murdar ətin zərurət qədər yeyilməsinə

*1 . Yenə orada, 16-cı cild, səh.162.*

icazə verilməsinə bənzəyir. Nəinki şəriət müstəsna hallara icazə verməklə böyük günahlara cürət tapmağa, hər kiçik məsələdə yalan danışmağa icazə vermiş olsun.

Amma çox vaxt büdrəyişlər elə müstəsna halların kənarında, o "qadağan olunan məntəqə"yə və ya "təhlükə məntəqəsi"nə yaxın düşərkən baş verir. Rəvayətlərdə bu yerlər "himəllah" (Allahın qadağan etdiyi məntəqələr) və "hovləl-hima" (qadağan olunan sərhədlər) ünvanı ilə qeyd olunur. Belə ki, hədislərin birində buyurulur:

مَحارِمُ اللهِ حِمىَ اللهِ فَمَنْ يَرْتَعْ حَوْلَ الْحِمى يُوشَكُ اَنْ يَقَعَ فِيها

*"İlahi haramlar Allahın qadağan qoyduğu məntəqələrdir. Kim heyvanlarını qadağan olunan sərhədlərə yaxın aparsa, mümkündür ki, ora girsin."*[1]

Təəccüblüdür ki, əhli-sünnə alimi Qəzali "Ehyaul-ülum" kitabında "yalanın rəva görülən halları" fəslinin sonunda belə yazır: "Bəziləri elə təsəvvür edirlər ki, əməli fəzilətlərə dair saxta hədis qoşub, günahlara bilərəkdən yol vermək caizdir." Sonra belə əlavə edir: "Bu batil bir fikirdir. Çünki bu işdə məsləhət və ya onun faydaları yalanın mənfi təsirlərini üstələyə bilmir və buna heç də zərurət yoxdur. Həm də ki, bu məsələ ilə bağlı ayə və rəvayətlər kifayət qədərdir və bu özü şəri qanunlarda qarşıdurma yaradır."[2]

Lakin bizim nəzərimizcə, bu fikirlərə yalnız nadan və şəriətdən xəbərsizlər düşürlər ki, ürəklərini İslama Allah və Peyğəmbərdən çox yandığını güman etmişlər. Halbuki bu işin özü tamamilə şər, fəsaddır və onun

1 . *"Fəraidul-üsul" (Rəsail), Şeyx Mürtəza Ənsari, səh.360.*
2 . *"Ehyaul-ülum", 3-cü cild, səh.139.*

və belə nadanların İslam üçün təhlükəsi düşmənlərin təhlükəsindən az deyildir.

### *“Tövriyə” nədir?*

Zahirindən uyğun məna başa düşülüb, danışanın başqa məqsəd güddüyünü bildirən ifadəyə “tövriyə” deyilir. Fəqihlər arasındakı məlum nəzərə görə, yalanın rəva görülən zəruri hallarında gərək “tövriyə”dən istifadə edilsin və “tövriyə” mümkün olduğu təqdirdə aşkar yalana yol verilməsin.

Bəzi əhli-sünnə alimlərinin nəzərlərindən belə başa düşülür ki, onların arasında da bu qayda mövcuddur.

“Tövriyə”ni belə də mənalandırırlar: “Tövriyə odur ki, insan dediyi sözün uyğun mənasını nəzərdə tutsun, lakin onu elə desin ki, qarşı tərəf (eşidən kəs) onun başqa mənasını başa düşsün. Bununla da danışan kəs öz məqsədinə çatır və o, sözün uyğun mənasını seçdiyi halda, qarşı tərəf başqa mənaya yönəlir. Məsələn, bir kəsdən “İslam Peyğəmbərinin (s) canişini kim idi?” – deyə soruşduqda, o, belə cavab verir: “Mən bintuhu fi beytihi.” (Qızı evində olan kəs!) Bunu eşidən kəs qızı Peyğəmbərin (s) evində olan kəsin canişin olduğunu başa düşür. Halbuki cavab verən şəxsin məqsədi Peyğəmbərin (s) qızının onun evində olan kəsin canişin olmasıdır.

### *“Tövriyə” yalan sayılırmı və ondan müstəsna hallardan başqa zamanlarda da istifadə etmək olarmı?*

Burada əhəmiyyət kəsb edən məsələ “tövriyə”nin yalana xas olan ölçüləri aşıb-aşmamasını

aydınlaşdırmaqdır.

Ümumiyyətlə, bu məsələ ilə bağlı üç nəzər mövcuddur:

**1.** Bəzi alimlərə görə, "tövriyə" əsla yalan sayılmadığından zərurət zamanı da danışıqda yalana yol verilməmişdir.

Bu nəzərin tərəfdarları onu belə əsaslandırırlar: "Sözün yalan və ya doğruluğunda meyar danışan kəsin məqsədi və nəzərdə tutduğu mənadır. Buna əsasən, danışanın sözü ilə məqsədi uyğun gəlirsə, sözü də doğru olacaq, hərçənd, qarşı tərəf onu başqa cür anlamış olsun. Çünki danışanın məqsədini başa düşməkdə yol verilən səhvin sözün yalan və ya doğruluğuna heç bir təsiri yoxdur. Bütpərəstlərin müqabilində həzrət İbrahimin (ə) "Bəl fəələhu kəbiruhum haza, fəsəluhum in kanu yəntiqun!" ***(Bəlkə onların bu böyüyü bunu etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!)***[1] və həzrət Yusifin (ə) carçısının "İnnəkum ləsariqun!" ***(Ey karvan əhli, siz, həqiqətən, oğrusunuz!)***[2] – dedikləri sözlərini yozan müxtəlif rəvayətlər də "tövriyə"nin yalan sayılmadığını sübut edir.

**2.** Mərhum Mühəqqiq Qummi kimi bəzi alimlərin nəzərinə görə isə "tövriyə"nin yalan sayılmamağında meyar danışanın məqsədi və nəzərdə tutduğu məzmun deyil, onun zahiri mənasıdır.

**3.** Amma Qəzali kimi bəzilərinin kəlamlarından belə başa düşülür ki, "tövriyə" yalanın qisimlərindən biridir, lakin onun qəbahət və fəsadı adi yalandan azdır.

---

*1 . "Ənbiya" surəsi, ayə 63.*

*2 . "Yusif" surəsi, ayə 70.*

Ola bilsin, üçüncü qrupun bu nəzəri sırf yalandan fərqli olaraq "tövriyə" zamanı danışanın yalan söyləmək fikrində olmadığından irəli gəlmişdir ki, bu da onun qəbahət və fəsadını nisbətən azaldır.

### *"Tövriyə" haqqında yeni izah*

Burada zərif bir məsələyə diqqət yetirməklə mövcud mübahisə aradan qalxa bilər və o da budur ki, "tövriyə" hər bir hala aid deyil, söz və kəlamın zatən iki (və daha çox) məna daşıdığı yerlərə məxsusdur; belə ki, danışıq zamanı dinləyən şəxs iki mənadan birini başa düşür. Məsələn, Yusifin (ə) carçısının o həzrətin qardaşlarına dediyi "İnnəkum ləsariqun!" ***(Ey karvan əhli, siz, həqiqətən, oğrusunuz!)*** – ibarənin ilk mənası odur ki, siz hal-hazırda oğurluq etmisiniz və lakin carçı onların keçmişdə Yusifi (ə) atasından oğurladıqlarını nəzərdə tuturdu. Bu isə cümlənin zahirən başa düşülməyən digər mənasıdır. Yaxud bir nəfərdən "bu libası sizə filankəsmi hədiyyə edib?" – deyə soruşulduqda, o, belə cavab verir: "Allah ona uzun ömür versin!" Halbuki ona libası hədiyyə edən kəs başqası imiş.

## QEYBƏT

### *Namərdlərin qorxulu silahı*

Dilin ən böyük və təhlükəli, eyni zamanda çox yayılan azğınlıqlarından biri qeybətdir. Qeybət başqasının nöqsanları və gizli eyiblərinin deyilməsindən ibarətdir ki, əgər bunu eşitsə, narahat olacaq. Bura dini, əxlaqi, ruhi, ictimai, cismi və ümumi olaraq insanın zahiri görünüşü, bədən üzvləri, hərəkət və rəftarları, həyat yoldaşı, övladı, geyimi, evi və s. ilə bağlı eyiblər daxildir.

### *Qeybətin əsas amilləri*

Qeybətin neçə əsas amili vardır:

**1. Ədavət və qisas hissi:** Daxildəki ədavət və kin-küdurət şölələrini söndürmək üçün qeybət və qarşı tərəfin abır-heysiyyətini aparmaq çox asan və sadə yoldur.

**2. Paxıllıq:** Paxıl adam həmişə bəyənmədiyi müqabil tərəfin sahib olduqlarını itirməyi və onun pisliyini istəyir, məqsədinə çatmadıqda da, onun etibarını sındırmaq, abır-heysiyyətini aparmaq üçün nöqsanlarını faş etməklə həsəd və paxıllıq alovunu

söndürməyə, özünü rahatlaşdırmağa çalışır.

**3. Günahı yozmaq:** Bəzən, başqalarının eyiblərini faş etməklə öz əməlini adiləşdirmək və onu yozmaq digər bir əsas olur.

**4. İstehza:** Əlbəttə, istehza və masqaranın müxtəlif səbəb və amilləri vardır ki, ona adət edən insan bəzən həmin boşluğu qeybətlə doldurur.

**5. Əylənmək:** Bəzən də səbəbsiz yerə yalnız əylənmək və boş vaxtı doldurmaq, yaxud məclisi qızışdırmaq üçün başqalarının qeybəti gedir, eyiblər aranır. Çünki belə məclislərdə qeybət hamıya şirin görünür. Diqqət yetirmək lazımdır ki, camaat istirahət və əyləncədən ləzzət aldığı kimi, kimisə güldürmək və başqalarını da əylənməyə çəkməkdən ləzzət alır.

**6. Hadisələrə qarşı instinktiv reaksiya:** İnsandakı bu güclü instinkt onu başqalarını (israrla) qeybətə, hər kəsin eyib və zəif cəhətlərini açmağa sövq edir. Bəlkə də, bəzilərinin nəzərində qeybətin şirinliyi elə bu hissdən qaynaqlanır. Belələri başqalarının sirlərindən agah olmaq, eyiblərini arayıb-axtarmaqdan ləzzət alır və buna görə də, təkid və hərisliklə qarşı tərəfi qeybətə məcbur edirlər.

Bu amillər qeybətin müalicəsində, onun xaricdəki nümunələrini tanıtmaqda bizə kömək edə bilər.

Çox vaxt onlar insanın vücudunda özünü təbii göstərir, vicdan və şəxsiyyət hissi onların büruzə verməyinə icazə vermir. Beləcə, ona zahiri bəzək verir, ürəkyandırmaq, yaxud pislikdən çəkindirmək, yaxud da başqalarına ibrət dərsi vermək məqsədilə qeybətə düşür və bunu özünə bir borc güman edir. Amma yuxarıda dediyimiz amillərin qurbanı olan bu

insan vicdanını boğaraq onun əzabından qurtulmaq üçün həqiqəti dəyişdirir və ona don geyindirir. Bu isə qeybətin ən təhlükəli növü olub, müalicəsi də çətindir.

## *Qeybətin təhlükələri*

Qurani-Kərim, Peyğəmbəri-Əkrəm (s) və Əhli-beyt imamlarından nəql olunan rəvayətlər baxımından bu günahın mahiyyəti, onun fərdi və ictimai təsirləri diqqəti özünə cəlb edir. Əksərən bu mühüm məsələyə əhəmiyyət verilməsə də, İslamda ona çox ciddi yanaşılır. Qurani-Kərim və rəvayətlərdə qeybətlə bağlı şiddətli ibarələr görünür ki, biz onları qısa şəkildə on qismə ayırmışıq. Ümid edirik ki, verilənlər İslam nöqteyi-nəzərindən bu günahın mahiyyətini başa düşməyə kifayət edəcək!

**1. Qeybət Quran baxımından:**

Qurani-Kərim qeybəti insana zidd əməl kimi sayır və onu şəxsin öz ölmüş qardaşının ətini yediyi kimi tanıtdırır. Məlumdur ki, "insan ətini yemək", özü də həmin surətdə insandan baş verə biləcək ən pis əməldir. Quranda bu ibarə yalnız qeybət barəsində işlənir. Bu bənzətmənin səbəbi də aydındır. Çünki İslam nöqteyi-nəzərindən müsəlman qardaşın abır-heysiyyəti qanı kimi möhtərəm sayılır. Peyğəmbəri-Əkrəm (s) buyurur:

كُلُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ حَرامٌ: دَمُهُ وَ مالُهُ وَ عِرْضُهُ

*"Müsəlmanın hər bir şeyi (başqa) müsəlmana haramdır; qanı, malı və abır-heysiyyəti."*[1] Şübhəsiz, qeybət müsəlman qardaşın heysiyyətini kiçildir, abrını aparır.

Diqqəti cəlb edən məsələ odur ki, Qurani-Kərimdə

---

1 . *"Məhəccətül-beyza", Feyz Kaşani, 5-ci cild, səh.251.*

əvvəlcə "sui-zənn" (bədgüman), sonra "eyibləri arayıb-axtarmaq", daha sonra "qeybət" qadağan edilir. Belə ki, buyurulur:

{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيراً مِّنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ تَوَّابٌ رَّحِيمٌ}

*"Ey iman gətirənlər! Çox vaxt zənnə – gümana qapılmaqdan çəkinin. Çünki zənnin bəzisi günahdır. (Başqalarının işlərində) axtarış aparmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı? (Şübhəsiz,) sizin bundan xoşunuz gəlməz. Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edən və mehribandır!"*[1]

Bu ibarədəki sıra göstərir ki, insan əvvəlcə bədgümanlığa düçar olur, bu onu başqalarının eyiblərini arayıb-axtarmağa sövq edir və insan gizli eyiblərdən agah olduqda, qeybətə yol verir.

**2. Qeybət imanla bir yerə sığmır:**

Bərra deyir:

خَطَبَنا رَسُولُ اللهِ(ص) حَتّى اسْتَمَعَ الْعَوائِقُ فِي بُيُوتِها فَقالَ: "يا مَنْ مَعْشَرَ آمَنَ بِلِسانِهِ وَ لَمْ يُؤْمِنْ بِقَلْبِهِ لا تَغْتابُوا الْمُسْلِمِينَ وَ لا تَتَّبِعُوا عِوْراتِهِمْ فَإِنَّهُ مَنْ تَتَبَّعَ عَوْرَةَ اَخِيهِ تَتَبَّعَ اللهُ عَوْرَتَهُ وَ مَنْ تَتَبَّعَ اللهُ عَوْرَتَهُ يَفْضَحُهُ فِي جَوْفِ بَيْتِهِ

"(Bir dəfə) Peyğəmbəri-Əkrəmin (s) bizə söhbətini qadınlar belə evlərində eşitdilər. Həzrət buyurdu: *"Ey*

1 . "Hücurat" surəsi, ayə 12.

*dildə iman gətirib, qəlbdə iman gətirməyənlər! Müsəlmanların qeybətini qırmayın və gizli işlərini arayıb-axtarmayın. Öz din qardaşının gizli işlərini arayıb-axtaranın Allah-Taala da gizli işlərini üzə çıxarar və evində rüsvay edər."*[1]

Qeybətin imanla uyğun gəlməməsinə dair bunu demək olar ki, iman ilk növbədə mömin qardaşa ehtiramı vacib bildiyi halda, qeybət buna ziddir.

**3. Qeybət çirkinliklərin yayılmasına şərait yaradır:**

İmam Sadiq (ə) buyurmuşdur:

**مَنْ قالَ فِي مُؤْمِنٍ ما رَآتْهُ عَيْناهُ وَ سَمِعَتْهُ اُذُناهُ فَهُوَ مِنَ الَّذِينَ قالَ اللهُ عَزَّ وَجَلَّ: {اِنَّ الَّذِينَ يُحِبُّونَ اَنْ تَشِيعَ الْفاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذابٌ اَلِيمٌ}**

*"Mömininin haqqında görüb-eşitdiklərini deyənlərə Allah-Taalanın **"İman gətirən camaatın içərisində çirkinliklərin yayılmasını istəyən kəsi ağır əzab gözləyir!"** – buyruğu şamil olacaq."*[2] Məlumdur ki, camaatın sirlərini, gizli eyiblərini faş etmək – bu eyiblər əksər hallarda dinlə bağlı olduğundan – başqalarını məsiyət və günaha cürətləndirir, nəticə etibarı ilə pislik və çirkinliklərin yayılmasına səbəb olur.

**4. Qeybətin zərəri (çirkinliyi) iffətə zidd əməllərdən şiddətlidir:**

Məşhur bir hədisdə Cabir ibn Abdullah Ənsari və Əbu Səid Xudri Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu nəql etmişlər: *"Qeybət zinadan daha pisdir." Bunun səbəbi hədisin davamında belə açıqlanır: "Zinakar tövbə etməklə Allahın məğfirətini qazanıb,*

*1 . "Məhəccətül-beyza", 5-ci cild, səh.252.*
*2 . "Biharul-ənvar", 75-ci cild, səh.240.*

*bağışlana bilər. (Çünki zina "həqqullah" (Allahın haqqı) qəbilindəndir.) Qeybət edən kəs isə qeybət etdiyi şəxsin razılığını qazanmadan bağışlanmır. (Çünki "həqqün-nas" (camaatın haqqı) qəbilindəndir.)"*[1]

Qeybətin zinadan daha pis olmasının başqa bir səbəbi bu ola bilər ki, qeybət cəmiyyətdə vəhdət və birliyi, sevgini, səfa-səmimiyyəti, nikbinliyi aradan aparır, ona ağır zərbələr vurur. (Sonra bu haqda ətraflı söz açılacaq.) Lakin iffətə zidd əməllərin qəbahəti böyük olsa da, belə təsirləri yoxdur.

**5. Qeybət əməllərin qəbuluna mane olur:**

Məazın nəql etdiyi hədisdə deyilir: *"Bəzən bəndələrin əməlləri günəş şüası kimi parıldasa da, səmaya aparıldıqda, geri qaytarılıb sahibinin üzünə vurular və bu işə məmur olan mələk deyər:*

اَمَرَنِي رَبِّي اَنْ لا اَدَعَ عَمَلَ مَنْ يَغْتابُ النّاسَ يَتَجاوَزُ اِلى رَبِي

*"Pərvərdigarım mənə əmr edib ki, qeybət edənlərin Rəbbimə doğru yüksələn yaxşı əməllərinin qarşısını alım!"*

Keçək hədislərdə verilən izahlara uyğun olaraq burada da bunu deyə bilərik ki, boynunda camaatın haqqı olanların əməllərinin Allah dərgahında qəbulu çətindir. Demək, qeybətin bu qədər pislənilməsi onun camaatın hüquqlarına təcavüzü, abır-heysiyyətlərinin itməsi kimi təsirlərinə görədir.

**6. Qeybət İslamda qardaşlıq prinsipini pozur:**

Peyğəmbəri-Əkrəm (s) buyurur:

لا تَحاسَدُوا وَلا تَباغَضُوا وَلا يَغْتَبْ بَعْضُكُمْ بَعْضاً وَكُونُوا عِبادَاللهِ

---

1 . Yenə orada, səh.222.

اِخْواناً

*"Bir-birinizə qarşı paxıllıq etməyin, ədavət saxlamayın, bir-birinizin qeybətini qırmayın. Ey Allahın bəndələri, bir-birinizlə qardaş olun!"*[1]

Bu hədisin son cümləsindən belə nəticə alırıq ki, Allaha bəndəlik və islami qardaşlıq həsəd, kin-küdurət, ədavət və qeybətlə qarşı-qarşıya durur. Bir də ki, qeybət qardaşlıqdakı məhəbbət və səfa-səmimiyyətə ziddir. Bəlkə də hədisdəki iki xislətin (paxıllıq və ədavət) xüsusi qeyd edilməsi onların qeybətlə əlaqəsindən irəli gəlir. Çünki paxıllıq, adətən, ədavət və kin-küdurətə, ədavət və kin-küdurət isə qeybətə səbəb olur.

**7. Qeybət yaxşı əməlləri yandırır:**

Bu məzmun bir çox hədislərdə müşahidə olunur. İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur:

اَلْغِيْبَةُ حَرامٌ عَلى كُلِّ مُسْلِمٍ... وَالْغِيْبَةُ تَاكُلُ الْحَسَناتِ كَما تَاكُلُ النّارُ اَلْحَطَبَ

*"Qeybət hər bir müsəlmana haramdır... Həqiqətən, atəş odunu yandırıb kül etdiyi kimi, qeybət də yaxşı əməlləri aradan aparır."*[2]

Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan başqa bir hədisdə belə buyurulur:

مَنْ كانَتْ لِاَخِيهِ عِنْدَهُ مَظْلَمَةٌ فِي عِرْضٍ اَوْ مالٍ فَلْيَسْتَحْلِلها مِنْهُ مِنْ قَبْلِ اَنْ يَأْتِيَ يَوْمٌ لَيْسَ هُنالِكَ دِينارٌ وَلا دِرْهَمٌ اِنَّما يُؤْخَذُ مِنْ حَسَناتِهِ فَاِنْ لَمْ تَكُنْ لَهُ حَسَنَةٌ اُخِذَ مِنْ سَيِّئآتِ صاحِبِهِ فَزِيدَتْ عَلى سَيِّئآتِهِ

*"Hər kəsin boynunda din qardaşının abır-heysiyyəti,*

1 . *"Müstədrəkül-vəsail", Mühəddis Nuri, 9-cu cild, səh.118.*
2 . *"Biharul-ənvar", 75-ci cild, səh.257.*

*yaxud malı ilə bağlı bir haqqı olsa, dirhəm və dinarın fayda vermədiyi gün çatmazdan öncə ondan halallıq istəsin ki, (yoxsa) o gün onun yaxşı əməllərindən götürülər və əgər yaxşı əməli olmasa, qarşı tərəfin (din qardaşının) günahları ona yüklənər."*[1]

Qeybətlə yaxşı əməllərin itməsinin səbəbi, ola bilsin, qeybət olunanın ictimai abır-heysiyyəti kimi mənəvi dəyərinin aradan getməsi, belə haqqın, adətən, maddi yolla əvəz edilə bilməməsidir. Allah-Taala da mümkün yolla onu bərpa edir; belə ki, qeybət edənin yaxşı əməllərini qeybət olunanın əməl dəftərinə yazır və yaxşı əməli olmadıqda, qeybət olunanın pis əməllərindən itirilən abır-heysiyyəti qədər onun adına keçir.

Bu məzmunu biz sonuncu rəvayətdən nəticə alırıq və axirətdə əvəz-əvəzin mənası elə budur! Bunlar qeybətin "həqqün-nas" olmasını tamamilə təsdiq edir.

**8. Qeybət ibadəti dəyərdən salır:**

Bir sıra rəvayətlərə görə, qeybət dəstəmaz və oruca nöqsan gətirir. Peyğəmbəri-Əkrəm (s) buyurur:

**اَلْجُلُوسُ فِي الْمَسْجِدِ انْتِظاراً لِلصَّلاةِ عِبادَةٌ مالَم يُحْدِث؛ فَقِيلَ: يا رَسُولَ اللهِ! وَمَا الْحَدَثُ؟ قالَ: اَلْاِغْتِيابُ**

*"İnsandan bir hadisə baş verməyincə, namazın intizarı ilə məsciddə əyləşmək ibadətdir." Həzrətdən "hansı hadisə!" – deyə soruşulduqda, buyurdu: "Qeybət!"*[2]

Başqa bir hədisdə belə buyurur:

**وَ مَنِ اغْتابَ مُسْلِماً بَطَلَ صَوْمُهُ وَ نَقَضَ وُضُوءُهُ**

1 . *"Məhəccətül-beyza", 5-ci cild, səh.273.*
2 . *"Məhəccətül-beyza", 5-ci cild, səh.255.*

*"Müsəlmanın qeybətini edən kəsin orucu batil və dəstəmazı əbəsdir."*[1]

Buradan məlum olur ki, ibadət insanı Allah-Taalaya yaxınlaşdırır, ona mənəvi saflıq bəxş edir. Amma dəstəmaz, yaxud oruc halında dilini qeybətə aludə edənin isə mənəvi saflığı azalır və Allahın dərgahındakı məqamdan enir. Bunları biz, qısa da olsa, yuxarıdakı hədislərdən başa düşürük.

**9. Qeybət insanı Allahın himayəsindən çıxarıb, şeytanın himayəsi altına salır:**

Müfəzzəl ibn Ömərin imam Sadiqdən (ə) nəql etdiyi hədisdə belə buyurulur:

**مَنْ رَوى عَلى مُؤْمِنٍ رِوايَةً يُرِيدُ بِها شَيْنَهُ وَهَدْمَ مُرُوَّتِهِ لِيَسْقُطَ مِنْ اَعْيُنِ النّاسِ اَخْرَجَهُ اللهُ مِنْ ولايَتِهِ اِلى ولايَةِ الشَّيْطانِ فَلا يَقْبَلُهُ الشَّيْطانُ**

*"Mömin qardaşını camaatın gözündən salmaq, abır-heysiyyətini aradan aparmaq məqsədilə onun eybini açanı Allah-Taala Öz vilayət və himayəsindən çıxarıb, şeytanın himayəsinə doğru qovar və şeytan da onu qəbul etməz."*[2]

Əlbəttə, bu hədis yalnız qeybətlə bağlı deyil. Hər halda qeybət edənlərin niyyəti qarşı tərəfin eybini faş edib şəxsiyyətini sındırmaqdır. Quran ayələrinə əsasən, möminlərin rəhbərliyini və himayəsini öhdəsinə götürən, onları zülmətdən (qaranlıqdan) nura (işıqlığa) çıxaran[3] mütəal Allah Öz himayəsini qeybət qıranların üstündən götürəcək. "Vəli" sözü hami, bələdçi, rəhbər və köməkçi mənalarını da daşıyır. Necə ki, "Şura" surəsində buyurulur:

*1 . Yenə orada, səh.254.*
*2 . "Biharul-ənvar", 75-ci cild, səh.168.*
*3 . "Bəqərə" surəsi, ayə 257.*

{وَمَا كَانَ لَهُم مِّنْ أَوْلِيَاء يَنصُرُونَهُم مِّن دُونِ اللَّهِ}

***"Onlara Allahdan başqa yardım edə bilən dostlar tapılmayacaqdır."***[1]

"Vəli" sözü zillət və bədbəxtlikdən qurtaran, nicat verən mənasında da işlənmişdir. "İsra" surəsində buyurulur:

{وَلَم يَكُن لَّهُ شَرِيكٌ فِي الْمُلْكِ وَلَمْ يَكُن لَّهُ وَلِيٌّ مِّنَ الذُّلَّ}

***"Onun mülkündə heç bir şəriki, zillət və bədbəxtlikdən qurtaran heç bir hamisi yoxdur!"***[2]

Deməк, qeybət edənlər Allahın vilayət və himayəsindən çıxıb, şeytanın himayəsi altına keçərək bütün bu nemətlərdən məhrum olurlar. "Fəla yəqbəluhuş-şəytan!" *(Şeytan da onları qəbul etməz!)* – ibarəsi də göstərir ki, şeytan özü də onlara rəhbərlik edə bilmədiyindən onları özbaşına buraxacaq!

**10. Qeybətin təsirləri bəzən tövbədən sonra da qalır:**

İslam rəhbərlərindən nəql olan bir hədisdə buyurulur:

اوْحَى اللهُ عَزَّ وَجَلَّ اِلى مُوسَى بْنِ عِمْرانَ اَنَّ الْمُغْتابَ اِذا تابَ فَهُوَ آخِرُ مَنْ يَدْخُلِ الْجَنَّةَ وَاِنْ لَمْ يَتُبْ فَهُوَ اَوَّلُ مَنْ يَدْخُلُ النّارَ

*"Allah-Taala Musa ibn İmrana (ə) belə vəhy etdi: "Əgər qeybət edən tövbə etsə, behiştə axırıncı, tövbə etməsə, cəhənnəmə daxil olan birinci şəxs olar."*[3]

Bu hədis göstərir ki, qeybət həm "həqqüllah", həm

*1 . "Şura" surəsi, ayə 46.*
*2 . "İsra" surəsi, ayə 111.*
*3 . "Biharul-ənvar", 75-ci cild, səh.222.*

də "həqqün-nas" yönünə malikdir və onun "həqqün-nas" yönü isə insanların digər hüquqlarından üstündür. Çünki qeybət onların ən böyük sərmayəsi sayılan abır-həyasını itirir və qeybət edənin qurtuluşunu hamıdan axıra salır. Hətta bəzi rəvayətlərdə müsəlmanın hörməti ən böyük "riba" sayılır. Necə ki, Ənəs ibn Malik Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu nəql edir:

اِنَّ اَرْبَى الرِّبا عِرْضُ الرَّجُلِ الْمُسْلِمِ

*"Şübhəsiz, ən böyük riba (mənfəət) müsəlmanın abır-həyasını aradan aparmaqdır."*[1]

## *Qeybətin fərdi və ictimai təsirləri*

**İctimai baxımdan qeybətin təsirləri:**

1. Qeybətin artdığı cəmiyyətdə səfa-səmimiyyət, birlik, qardaşlıq və dostluq kimi ən böyük mədəni dəyərlər itir, həmkarlığın ilkin şərti sayılan "hüsn-zənn" (nikbinlik) və qarşılıqlı etimad aradan gedir. Qeybətin yayılması ilə hamı bir-birinin nöqsanlarından agah olur, cəmiyyətdə "sui-zənn" (bədbinlik) artır, həmkarlıq ruhiyyəsi isə azalır, birgə amal və ideyalar unudulur və nəhayət, insanlar özlərini kütlədən təcrid edirlər. Öncə Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan *"Bir-birinizə qarşı paxıllıq etməyin, ədavət (kin-küdurət) saxlamayın, bir-birinizin qeybətini qırmayın. Ey Allahın bəndələri, bir-birinizlə qardaş olun!"* – hədisdən də müəyyən qədər başa düşülür.

2. Qeybət bir çox hallarda fitnə-fəsadı, ədavət və kin-küdurət alovunu şölələndirir. İnsanların gizli

1 . *Yenə orada.*

eyibləri açıldıqda, bəzən ətrafındakılara da aid ola bilir və yaxud hər hansı yolla qisas almaq, kimlərinsə abır-həyasını aparmaq istəyənlərə dəstək verir. Bu da ki, onların arasında ədavət toxumunu səpir.

3. Qeybətlə şəxsiyyət və hörmətini itirən insanın günahdan qorxusu azalır. Adətən, insanlar abır-heysiyyətlərini qoruyub-saxlamaq üçün nalayiq və çirkin işlərdən çəkinir, yaxud belə işlərə gizli əl atırlar. Lakin qeybətlə günah və gizli eyibləri aşkar olduqda, artıq şəxs abır-heysiyyətinin aradan getməsindən qorxmur. Bu özü cəmiyyətdə fitnə-fəsadın yayılması üçün bir amil olur.

4. Qeybət qazanc baxımından da cəmiyyətə zərərlidir. Çünki maddi və iqtisadi yönlərdə insanların etibarı, bir-birlərinə inam və etimadı maddi sərmayələrdən daha önəmlidir və onsuz ticari əlaqələrin durumu azalacaq, yaxud tamamilə dayanacaqdır...

**Fərdi baxımdan qeybətin təsirləri:**

Qeybət subyektivliyinə görə də zülm, haqsızlıq və başqalarının hüquqlarına aşkar təcavüz sayılır. Demək, burada zülm nəticəsində yaranan bütün əxlaqi qüsurlar qeybətlə əlaqədar olacaq. Bundan əlavə, qeybət bir sıra yaramaz hisslərdən qaynaqlandığı üçün onun təkrarı ilə bu pis sifət daha da kök salır.

Beləliklə, qeybət dəyərlər baxımından həm fərdi, həm də ictimai əsasları laxladır. Ötən rəvayətlərdə, eləcə də qeyd etdiyimiz ayədə buna dair nişanələr görünür.

## *Qeybətin həddi-hüdudu*

**1. Qeybətin şaxələri:** İlk baxışda qeybət dil vasitəsilə başqalarının eyiblərini faş etməyi bildirsə də, onun əsl mahiyyətini nəzərə almaqla əxlaq elmi nöqteyi-nəzərindən daha geniş məna kəsb etdiyi, hər vasitə ilə – danışıq, yazı, işarə və yaxud ədalarla başqasının eybinin faş edilməsini ifadə edir. Məsələn, nəql olunur ki, bir qadın Peyğəmbəri-Əkrəmin (s) hüzuruna gəlib-getdikdən sonra Ayişə əli ilə onun qısaboylu olduğuna işarə edərkən, ona belə buyurur:

قَد أغتَبتِها

*"Sən onun qeybətini etdin."*[1]

Başqa bir hədisdə deyilir ki, Ayişə bir qadının ədasını çıxartdıqda, Peyğəmbəri-Əkrəm (s) ona bu işi qadağan edir.[2] Məlum olur ki, hətta təlif və yazılarımızda, başqalarının fikir və nəzərlərinin tənqidində çox diqqətli olmalı, qeybət doğuran hisslərdən çəkinməliyik. Bəzən başqasının danışığına tutulan iradlarda aşkar qeybət, töhmət, məzəmmət, istehza, yaxud təhqirlə yanaşı ifadələrə rast gəlinir. Yaxşı olar, yazılarımızda başqalarının heysiyyətinə toxunan "gülünc", "ağılsız", "uşaqfikirli" kimi ifadələrdən də (qarşı tərəf məlum olmadığı, yaxud qeybət və təhqiri caiz olduğu hallar istisnadır) çəkinək. Bəzən də kinayəli sözlərlə dinləyənə məqsədimizi anladırıq. Bu da qeybət sayılır. Məsələn, belə deyirik: "Bu gün filankəslə görüşümdə nələr deyirdi..." Halbuki onu dinləyən, kimdən söhbət

1 . *"Ehyaül-ülum", 3-cü cild, səh.145; "Məhəccətül-beyza", 5-ci cild, səh.257.*

2 . *"Ehyaül-ülum", 3-cü cild, səh.145.*

getdiyindən xəbərdardır.

**2. Günaha qarışıq qeybətlər:** Qeybət bəzən digər günahlarla yanaşı olur, yaxud həqiqətini tamamilə əldən verir, yaxud xoşməramlı görünür. Məsələn, bəziləri qeybəti yazaraq "qorxuram ki, əlavə izahat versəm, qeybət olar", yaxud "təəssüf ki, şəriət dilimizi bağlayıb", yaxud da "şəriət icazə vermir, yoxsa deyərdim..." – kimi ifadələrə əl atır. Beləl追 qeybətdən qorunduqlarını güman edərək, həm qeybətə düşür, həm də məsələni aydınlaşdırmadan qarşı tərəfi hər hansı hadisə və sözügedən şəxsə qarşı bədbin edirlər. Mövzunu daha da şişirtdikdə isə, riyakarlığa düçar olaraq, eyni vaxtda iki çirkin əmələ batırlar. Bəzən ürəkyananlıqla belə deyənlər olur: "Yazıq filankəs, ayağı büdrədiyi üçün filan bəlaya düşdü. Allah günahından keçsin!" Burada "qeybət" "riya"ya qarışmışdır. Bəzən də "Allaha şükür olsun ki, filankəs kimi şərab içmirəm, narkomanlıq etmirəm! Doğrudan da, əgər Allah bizi qorumasa, işlər çox çətin olar. Adam gərək özü başa düşsün, Allah Özü adamın dadına çatsın!..." – kimi kinayələrlə həm qeybət və həm riya edir, həm də özünü öyərək əlavə günahlara düşürlər. Bəziləri hiddətlənərək "Mən bunu onun öz yanında da deyə bilərəm!" – kimi ifadələri ilə sözügedən möminin əməlini doğru yerə yozmağın yolunu da bağlayır və dediyi sözü ilə qeybətə bir qədər də artıq hökm verir.

**3. Qeybət "həqqün-nas"dır:** Bəhsimizin əvvəlində qeyd etdiyimiz kimi, qeybət "həqqün-nas"a (camaatın haqqı) aid hüquqların sırasındadır. Dedik ki, əvvəla, qeybət insanın ehtiramı, şəxsiyyəti və abır-həyasını aradan aparır və sözsüz, bu məsələ əqli və şəri

baxımdan maddi dəyərlərdən qat-qat üstündür. İkincisi, "Hücurat" surəsində qeybətin mömin qardaşın ətinin yeyilməsinə bənzədilməsindən belə məlum olur ki, bu əməl zülmün növlərindəndir və insanın boynuna haqq qoyur. Üçüncüsü isə, bunu müxtəlif rəvayətlərdən, o cümlədən, öncə qeybətin vasitəsilə yaxşı əməllərin məhvi və pis əməllərin qeybət edənin əməllərinə əlavə edilməsi ilə bağlı qeyd etdiyimiz, eləcə də aşağıdakı hədislərdən də başa düşə bilərik. Məsələn, bir rəvayətdə buyurulur:

اِنَّ صاحِبَ الْغِيْبَةِ لا يُغْفَرُ لَهُ حَتّى يَغْفِرَ لَهُ صاحِبُهُ

*"Qeybət olunan qeybət edəni bağışlamayınca, (qeybət edən) bağışlanılmaz."*[1]

Peyğəmbəri-Əkrəm (s) buyurur:

كَفّارَةُ مَنِ اغْتَبْتَهُ اَنْ تَسْتَغْفِرَ لَهُ

*"Qeybətin kəffarəsi (cəriməsi) Allahdan qeybət olunan kəsin bağışlanmasını diləməkdir."*[2]

Göründüyü kimi, qeybətdə zülm və haqsızlığın aşkar nişanələri vardır ki, haqqı tapdalananın razılığı olmadan qeybət edənin bağışlanması çətin məsələdir. Buradan belə nəticə də almamalıyıq ki, qeybətin kəffarəsini təkcə istiğfar və tövbə ilə bərpa etmək olar. Bəli, əgər halallıq üçün heç bir yol qalmayıbsa və yaxud qeybət olunanın abır-heysiyyətinə bir zərər toxunmayıbsa, istiğfar və tövbə ilə kifayətlənməyi mümkün saymaq olar.

1 . *"Məhəccətül-beyza", 5-ci cild, səh.251.*

2 . *"Biharul-ənvar", 75-ci cild, səh.242; "Məhəccətül-beyza", 5-ci cild, səh.273.*

## *Qeybətin müstəsna halları*

Fiqh və əxlaq alimləri arasında qeybətin bəzən caizliyi ilə bağlı yekdil nəzər olsa da, onun hansı hallara aidliyi barədə fikir ayrılığı vardır. Bəzən bu mübahisələr yalnız misallarda, bəzən də mövzunun öz ətrafında müşahidə olunur. Lakin bir çox dəlil və mənbələrə əsasən, iki yerdə qeybətin caiz olduğu başa düşülür:

**1.** Mühüm məsləhət zamanı qeybət doğuran danışıqlar günah sayılmır və ona dair misallar da müxtəlifdir:

a) Məşvərət zamanı; məsələn, bir kəs bir nəfərlə, yaxud bir şirkətlə al-ver, yaxud evlənmə işində başqası ilə məşvərət etdikdə, şübhəsiz, nəzərdə tutulan şəxsin zəif cəhətləri və s. eyibləri açıqlanmalı olacaq. O vaxt bu barədə məlumat verməyin heç bir eybi yoxdur və əslində, bununla həmin şəxsi – düz və ya səhv addımı barədə məlumatlandırmalıyıq (lazım olmayan hüdudları aşmamaq şərtilə).

b) "Nəhy əz münkər" (çirkinlikdən çəkindirmək) zamanı;

c) Pis yol seçənin əməlini aradan qaldırmaq zamanı;

ç) Bir müsəlmanın gözlənilən zərər və təhlükələrdən xəbərdarlığı zamanı (qarşı tərəflə məsləhətləşməmiş).

Bütün bu hallarda şəriət müəyyən hadisələri aradan qaldırmaq üçün nəzərdə tutulan fərdin eyiblərini faş etməyi məqsədəuyğun görür. Bu halların müstəsna olması da aydındır. Burada tez-tez qarşıya sürülən "mühüm" və "daha mühüm" qayda və əqli dəlilə istinad edilir. Ayə və rəvayətlərdən də bu məsələyə dair misalları (o cümlədən, pis adət, zülmü aradan

qaldırma və s.) əldə edə bilərik.

Burada (əxlaq elmi baxımından) bir məsələni də qeyd etməliyik ki, mümkündür, insan müstəsna halların həddi-hüdudunu aşıb, əyri yola əl atsın, yaxud səhv və qəflətə yol versin. Adətən, insan aşkar şəkildə qanunları pozmaq, günaha düşmək istəmir, bir çox məqsədlərində qeydlər və müstəsna hallardan öz mənafeyi üçün istifadə edir, hətta çox vaxt öz vicdanını belə aldadır, vicdan əzabından qurtulmaq, şəxsiyyətinə xələl yetirməmək üçün həmin qeyd və müstəsna hallara sığınır. Bu isə yatmış vicdanla oyaq vicdan arasındakı təzadların kəsişdiyi, birincinin ikincisinə qalib gəldiyi yerlərdir. Demək, olduqca son diqqətlə yuxarıdakı halların bütün yönləri və xüsusiyyətlərini nəzərə almalı, hər növ təəssübkeşlik, ədavət və digər qərəzlərdən uzaq olmaqla məsləhətdən kənar izahlardan tamamilə çəkinməli və nəfsi qıcıqlandıran qeybətin qorxulu və təhlükəli hiylələrindən yayınmamalıdır.

**2.** Heç bir məsləhət olmayan zaman: bu isə yalnız aşkarda günah edənlərə aiddir. (Bəziləri zalımın qeybətini də bu qismə aid bilsələr də, bu, şəriətdə mühüm məsləhətin daha mühüm məsləhətlə əvəzi zamanına, yəni zalımdan məzlumun haqqının tələbi və məzlumun haqqının müdafiəsinə aiddir.)

Bu qismin müstəsna hal kimi sayılmasının əqli dəlilindən əlavə, onu şiə və əhli-sünnədən nəql olunan müxtəlif hədislər də təsdiq edir. O cümlədən:

عَنْ جَعْفَرٍ عَنْ اَبِيهِ قالَ: ثَلاثَةٌ لَيْسَتْ لَهُمْ حُرْمَةٌ: صاحِبُ هَوىً مُبْتَدِعٌ، وَالْاِمامُ الْجائِرُ، وَ الْفاسِقُ الْمُعْلِنُ الْفِسْقَ

a) İmam Cəfər Sadiq (ə) atasından nəql edərək buyurur: *"Üç nəfərə hörmət düşmür: əməlləri bidət doğuran əhlikef insana, zülmkar hökmdar və başçıya, aşkarda günah edənə."*[1]

Başqa bir hədisdə belə buyurulur:

ثَلاثَةٌ لا غِيْبَةَ لَهُمْ: صاحِبُ الهَوى وَ الْفاسِقُ الْمُعْلِنُ بِفِسْقِهِ، وَالْاِمامُ الْجائِرُ

*"Üç nəfərin qeybəti caizdir: nəfsə qul olanın, aşkar günah edən fasiqin, zülmkar başçının."*[2]

b) Peyğəmbəri-Əkrəm (s) buyurur:

لَيْسَ لِفاسِقٍ غِيْبَةٌ

*"Fasiqin (aşkar günah edən) qeybəti caizdir."*[3]

c) Yenə o həzrətdən belə nəql olunur:

مَنْ اَلْقي جِلْبابَ الْحَياءِ عَنْ وَجْهِهِ فَلا غِيْبَةَ لَهُ

*"Həya pərdəsini götürən kəsin qeybəti caizdir."*[4]

ç) "Vəsailüş-şiə" kitabının "ədalət" bölümündə bu mövzuya dair hədislər nəql olunub ki, birini nümunə olaraq qeyd edirik. İmam Sadiq (ə) buyurur:

مَنْ عامَلَ النّاسَ فَلَمْ يَظْلِمْهُمْ وَحَدَّثَهُمْ فَلَمْ يَكْذِبْهُمْ وَواعَدَهُمْ فَلَمْ يُخْلِفْهُمْ كانَ مِمَّنْ حَرُمَتْ غِيْبَتُهُ وَ كَمُلَتْ مُرُوَّتُهُ وَ ظَهَرَ عَدْلُهُ وَوَجَبَتْ اُخُوَّتُهُ

---

*1 . "Biharul-ənvar", 75-ci cild, səh.253.*

*2 . "Biharul-ənvar", 75-ci cild, səh.253.*

*3 . Yenə orada, səh.236.*

*4 . Yenə orada, səh.232.*

*"Camaatla ədalətlə davrananın, yalan danışmayanın və vədəsinə əks çıxmayanın qeybəti haram, şəxsiyyəti kamil, özü adil və qardaşlığı vacibdir."*[1]

## Fasiq kimdir və nə üçün qeybəti caizdir?

Burada neçə məsələyə izah vermək zəruridir:

1. Görəsən, fasiq və aşkar günah edənin istisna olunması "mövzudan xaric" qəbilindəndir (yəni aşkarda günahdan çəkinməyənin pis işləri gizli olmadığından, ümumiyyətlə, qeybət mövzusundan kənardır), yoxsa onun ardınca danışmaq qeybət sayılsa da, deyilən dəlillərə əsasən, qeybəti halal edilib?!

2. Görəsən, fasiqin qeybəti hər bir halda caizdir, yoxsa aşkar günah etdikdə?

3. Əgər bir kəs müəyyən məntəqədə fasiq, başqa məntəqədə isə (günahlarını gizlədərək) fasiq kimi tanınmırsa, onun qeybəti digər məntəqədə də caizdirmi?

4. Fasiqin qeybətində "əmr be məruf" və "nəhy əz münkər"in şərtləri lazımdırmı?

Bu sualların cavabı qeybətin istisna hallarındakı dəlilə diqqət yetirdikdə, aydın olur. Hədislərdən belə başa düşülür ki, fasiq və aşkarda günah edənə ehtiram düşmür. (Qabaqda izah verildiyi kimi, qeybətə yol verməyən əsas məsələ də insanın ehtiramı idi və möhtərəm olmayan kəsin qeybəti isə halal olacaq.) Başqa sözlə, belələrinin "ictimai şəxsiyyəti" möhtərəm sayılmadığından qeybətinə icazə verilir və abır-heysiyyətlərini qorumaq lazım deyil. Əgər "la qeybətə

---

*1 . "Vəsailüş-şiə", 5-ci cild, səh.393.*

ləhu" *(onun qeybəti caizdir)* və "la hörmətə ləhu" *(ona hörmət düşmür)* kimi ifadələrə dəqiq fikir versək, bu suallar və izaha ehtiyac duyulmayacaq. Bununla belə, kifayət qədər əqli və nəqli dəlillərə də əsaslanılır ki, artıq şübhə qalmasın.

Demək lazımdır ki, zahirən "fasiq" həya pərdəsini götürən və günahlardan çəkinməyən hər kəsə aid olur və lakin müəyyən səbəblər üzündən bəzən aşkarda günaha əl atanları fasiq adlandırmaq olmaz. Buna əsasən, belələrinin qeybəti yalnız aşkar günah etdikləri təqdirdə caiz olur.

# SUİ-ZƏNN VƏ BƏDBİNLİK

## *Bədbinlikdən uzaq olan sağlam cəmiyyət*

Cəmiyyətdə əmin-amanlıq və təhlükəsizlik hökm sürməyincə sağlam mühitdən söz gedə bilməz. Bunun sayəsində azad quruluş və azadlığın sayəsində də hər hansı fikri, cismi, maddi və mənəvi dəyər və məhsul layiqincə qiymətləndirilə bilər. Demək, onları qorumaq üçün həmişə təhlükəsizlik və əmin-amanlıq tədbirləri əhəmiyyət daşıyır. Məlumdur ki, yalnız insanların canı və malının təhlükəsizliyi və əmin-amanlığı kifayət deyil və ən mühüm məsələ onların abır-həyasının, ictimai şəxsiyyətinin qorunub-saxlanılmasıdır. Amma hər üç əmin-amanlığı təmin edən və böyük əhəmiyyət daşıyan başqa bir əmin-amanlığa da ehtiyac var ki, o da təəssüflər olsun, maddi təfəkkür tərzinin çarə qıla bilmədiyi "fikri əmin-amanlıq"dır.

Fikri əmin-amanlıq iki qismə bölünür:

**1. Fərdi-mənəvi asayiş:** Batini asayiş belədir ki, insan daim ruhi-psixoloji gərginliklər keçirməsin, əyri fikirlərin təsiri altına düşməsin və ömrü iztirab, həyəcan və narahatlıq içində sovuşmasın.

**2. İctimai asayiş:** İnsanların bir-birlərinə qarşı pis fikirdə olmamaları, düşünməyən mühakimələrə yol verməmələri, qarşılıqlı ehtiram hisslərinin qorunması ictimai asayişin əsas şərtlərindəndir. Əlbəttə, onların hər biri izah tələb etdiyindən, burada biz yalnız ikinci qisim haqda danışacağıq.

Məlum olduğu üzrə, hal-hazırda dünyada qanun çərçivəsində (nöqsanlara göz yummaq şərtilə) cəmiyyətin canı, malı və müəyyən qədər də ictimai asayişinin təhlükəsizliyi mümkün məsələdir. Lakin hər iki halda fikri əmin-amanlığın təmini, xüsusilə, insanlarda əsassız mühakimələrin qarşısının alınması yalnız ilahi məktəblərə, səmavi dinlərə və əxlaqi üsullara xas olan həqiqətdir. Yalnız maddi ölçülərə əsaslanan mövcud qanunlar, onun icraçıları nə insan adlı sirli mövcudun dərinliklərinə yol tapa bilir, nə də onun həqiqi duyğularını qiymətləndirə bilir. Məhz dini əqidə və əxlaqi üsullar çərçivəsində insan əsl yerini alır, əmniyyət və təhlükəsizliyi təmin edilir. İslam bu məsələyə xüsusi əhəmiyyət verərək dəyərli göstərişləri ilə diqqəti özünə cəlb edir. Məsələn, möminlərin fikri üfüqlərini işıqlandıran bu ayənin obyektivliyinə diqqət yetirək:

{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيراً مِّنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ}

***"Ey iman gətirənlər, əksər zənlərdən (gümanlardan) çəkinin ki, zənnin bəzisi günahdır!"***[1]

Ayədə qeyd olunan "kəsirən minəz-zənni" ***(əksər gümanlar)*** – ifadəsinə əsasən, demək olar, insanların bir-birinə qarşı gümanlarının çoxunu, yaxud əsas

*1 . "Hücurat" surəsi, ayə 12.*

qismini "bədbinlik" və ya səhv təsəvvürlər təşkil edir. Bunu nəzərə alaraq Qurani-Kərim insanları bir-birinə düşüncə baxımından bədbin edən, fikri əmin-amanlıqlarını pozan və kütləni sarsıda bilən bu təhlükəni aktual bir məsələ kimi açıqlayır. "Bəžəz-zənni ismun" ***(zənnin bəzisi günahdır)*** –ibarəsi haqda da bunu demək olar ki, insanların gümanlarında həqiqət olsa da, şübhəsiz, bir qismi günah və həqiqətə ziddir. Burada düşünən beyinlər gümanın bütün növlərindən çəkinməyi məsləhət görür. Hədislərdə də möminləri sui-zəndən (bədgümandan) çəkindirən çoxlu tövsiyələr vardır. Peyğəmbəri-Əkrəm (s) buyurur:

**اِنَّ اللهَ حَرَّمَ مِنَ الْمُسْلِمِ دَمَهُ وَ مالَهُ وَعِرْضَهُ وَاَنْ يُظَنَّ بِهِ ظَنَّ السُّوءِ**

*"Allah-Taala müsəlmanın qanı, malı, abır-heysiyyətini və ona qarşı bədgümanlığı haram etmişdir."*[1]

Bu hədis də əmin-amanlığın dörd qisminin (mal, can, abır-heysiyyət və fikir) birgə gəlməsi və birgə də haram edilməsi diqqəti xüsusi cəlb edir.

### *Bədbinlik və bədgümanlığın səbəbləri*

Psixoloji baxımından bədgümanlıq bəzən yüngül, bəzən də sərtləşərək ruhi-psixoloji xəstəlik kimi özünü büruzə verir. Hər iki halın müxtəlif səbəbləri ola bilər. Məsələn:

**1.** Bəzən bədgümanlıq ədavət, kin-küdurət, paxıllıq və qisas hissindən qaynaqlanır. İnsan qarşı tərəfdən zor gücü və yaxud dili ilə qisas ala bilmədiyindən, düşüncələrində fitnələrə əl ataraq pis fikirlərə düşür, onu daim mühakimə və məzəmmət edərək nəfsinə

*1 . "Məhəccətül-beyza", 5-ci cild, səh.268.*

təsəlli verir. Yəni xarici aləmdə nail ola bilmədiyini təsəvvür və fikirlərində tapır və beləcə, öz əməlindən saxta ləzzət, rahatlıq alır. Bu isə bir növ "təxəyyülə uyma və sığınma", "həqiqətdən ruhi sapınma" adlanır və müasir psixologiyanı da maraqlandıran məsələlərdən biridir. Bir sıra izahlarda deyilir ki, istəklərinə xarici aləmdə nail ola bilməyən insanlar özlərinə qapılaraq daxildə hiss etdiyi boşluğu xam xəyallar və əbəs düşüncələrlə doldurmağa çalışırlar. Bəzən onları yuxuda, bəzən də öz təxəyyül və poetik hisslərində axtarırlar. Adətən, böyük şair adını qazananlar şairlik istedadından əlavə, həyatda itkilər, narahatlıqlar, ağrı-acılar, uğursuz eşq və məhəbbətlərlə də üzləşirlər. Onlar məşuq itkisini təxəyyülündə, poetik duyğularında, ədəbi incəliklərində arayıb-axtardığından təxəyyül qüvvələri, poetik hissləri hədsiz artır. Necə deyərlər, lirik şeirlər daha gözəl, daha cəlbedici olur. Bir sözlə, "təxəyyülə uyma" insanda bir çox psixoloji hadisələri, o cümlədən, bədbinlik və bədgümanlıq kimi hissləri cücərdə bilir.

**2.** Nikbinlik insanın saflığından qaynaqlandığı kimi, bədgümanlıq da mənəvi çirkinlik və aludəlikdən baş qaldırır. Yəni "müqayisə" zamanı insan başqalarını ya yaxşı, ya da pis görür. Bu xislət özünü savadsız və ya nadan təbəqə arasında daha artıq büruzə verir.

**3.** Bəzən insan vicdan məhkəməsində bədbinliyə düçar olur, günahlarına şərik axtarmağa çalışaraq başqalarına qarşı pis fikirlərə düşür, öz çirkin əməllərini yozaraq onları adiləşdirib, demək istəyir ki, belə işlərə əl atan təkcə o deyil.

**4.** Bəzən də bədgümanlıq təkəbbür və xudbinlikdən

baş qaldırır. Məsələn, özlərini başqalarından üstün bilənləri çox vaxt başqalarının nöqsanları maraqlandırır, cürbəcür ehtimallarla onların dəyərini endirir, özlərini isə yüksəldirlər.

**5.** Bəzən isə ata-ana və ya müəllimin təlqinləri bədbinliyin amillərindən birinə çevrilir.

**6.** Pis adamlarla yoldaşlıq da onun səbəblərindəndir. Bəzən insanın münasibətlərində meyar oturub-durduğu, yoldaşlıq etdiyi adamlar olur. Hətta onun bir kənd, şəhər, ölkə, yaxud millət barəsində təfəkkür tərzi yoldaşlıq əlaqələri ilə bilavasitə bağlı olur. Yoldaşları pis olanlar, təbiidir ki, hamıya qarşı bədbin olacaqlar. Bu məsələ hədislərdə belə açıqlanır:

مُجالَسَةُ الْاَشْرارِ تورِثُ سُوءَ الظَّنِّ بالْاَخْيارِ

*"Pis adamlarla oturub-durmaq yaxşı insanlara qarşı bədbinlik gətirir."*[1]

**7.** Bəzən də bədgümanlıq səbəbsiz olmur. Yəni bir zaman və ya mühitə hakim olan fitnə-fəsaddan yaranan "Oxşar hadisələrin yayılması və çoxluğu eyni faktorun reallığına əsas verir!" – fikri insanda bədbinliyə səbəb olur.

### *Bədbinliyin ictimai zərərləri*

Bədbinliyin ictimai zərərləri və mənfi təsirləri olduqca çoxdur:

1. Bədgümanlıq ictimai reallıqları dərk etməyə mane olur. Bu xislətə düçar olan və hamıya bədbinliklə baxanlar hadisələrin və ictimai səhnələrdəki fəaliyyətlərin səbəblərini ayırd edə bilməyib, çoxlu

1 . *"Biharul-ənvar", 74-cü cild, səh.197, hədis: 31.*

səhvlərə yol verir, öz aləmində hər şeyi həqiqətə zidd görürlər. Elə buna görə də həmişə geridə qalır, ələ düşən fürsət və dəyərli şəxslərdən faydalanmır və hər yerdə düzgün nəticə çıxara bilmirlər.

2. Bədbinlik və bədgümanlıq ictimai həmkarlığa, qəlblərin bir-birinə qovuşmasına böyük manedir. Həmin xislət insanı fərdi həyata, tək yaşamağa, guşənişinliyə, ondan baş qaldıran digər səhv fikirlərə doğru çəkir, başqasına etimadın, inamın qarşısını alır, həmkarlığın əsasını qırır.

3. Başqalarının eyiblərini arayıb-axtarmaq da bədgümanlıqdan baş qaldırır. Buna biz qeybət və onun təsirləri bəhsində də toxunmuşduq və Qurani-Kərimin "Hücurat" surəsinin 12-ci ayəsini də misal çəkmişdik.

4. Bəzən bədbinlik ədavət və kin-küdurətə, hətta qanlı döyüşlərə də səbəb olur. Nəticə etibarilə ailə ocaqları dağılır, böyük və layiqli şəxslər qətlə yetirilir. Qurani-Kərimin "Hücurat" surəsinin

{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِن جَاءكُمْ فَاسِقٌ بِنَبَأٍ فَتَبَيَّنُوا أَن تُصِيبُوا قَوْمًا بِجَهَالَةٍ فَتُصْبِحُوا عَلَى مَا فَعَلْتُمْ نَادِمِينَ}

***(Ey iman gətirənlər! Əgər fasiq şəxs sizə bir xəbər gətirsə, dərhal onun doğruluğunu araşdırın ki, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!)*** – ayəsinin nazil olması ilə bağlı deyilir: "Vəlid ibn Əqəbənin bədbinliyi nəticəsində az qalmışdı ki, bir tayfa dağılsın. Verilən ayə xəbərin doğruluğunun araşdırılmasını göstəriş verərək gözlənilən faciənin qarşısını alır." (Bəziləri Vəlidin bu

işi bilə-bilə etməsini də ehtimal vermişlər.)[1]

5. Bədgümanlıq insanlar arasında dostluq və məhəbbəti söndürür, yerinə nifaq və ikiüzlülük toxumlarını səpir. Bu xislətin sahibi zahirdə başqaları ilə normal ünsiyyət saxlasa da, batində bədbinliklə bərabər riyakarlıq ruhiyyəsi güclənməyə başlayır. Bir sözlə, sui-zənn və bədgümanlığın ictimai zərər və təsirləri bizim təsəvvür etdiklərimizdən daha çoxdur və yuxarıda qeyd olunanlar onun bir hissəsini təşkil edir.

## *Bədbinliyin fərdi zərərləri*

Bədbinlik ictimai bir problem kimi, fərdi baxımdan da zərərsiz deyil və biz də burada ona aid neçə misalı nümunə gətiririk:

**1.** Bədbinlik ruhi nasazlıq, cismi narahatlıq, iztirab və həyəcan gətirir. Bədbin kəslər çox vaxt rahatlıq hiss etmir, başqalarını və hadisələri normal qarşılaya bilmir, ruhi aramlığa səbəb olan vasitə və şəxslərdən qaçır, narahatlıqların və ağrı-acıların azalmasında faydalı olan "dərdləşmə" amilindən qorxurlar. Elə fikirləşirlər ki, sirləri açılacaq, yaxud başqa problemlərlə üzləşəcəklər. Bu səbəbdən də çox vaxt qəm-qüssəli olub, ruhdan düşür və nəhayət, faydasız bir üzvə çevrilirlər.

Bu hal insanda gücləndikdə, hər kəs və hər şeydən qorxu duyacaq, hadisələrin öz zərərinə olduğunu güman edəcək, insanların adi münasibətləri onu şübhələndirəcək, hamının onun əleyhinə çalışdığını təsəvvür edəcəkdir. Aydındır ki, bu vəziyyət ruhi-

*1 . Ayənin nazil olma səbəbi haqda əlavə məlumat əldə etmək istəyənlər "Təfsiri-nümunə"nin "Hücurat" surəsinin 6-cı ayəsinə müraciət etsinlər.*

psixoloji xəstəlik sayılır və əxlaq elmindən kənardır.

Adətən, bütün rəftarlar adi haldan çıxmadığı vaxta qədər əxlaq elminə aid olur və onları yalnız tərbiyəçilər və əxlaq ustadları müalicə etməlidirlər. Amma sıradan çıxdıqları zaman isə bir xəstəlik kimi əxlaq elminin predmeti sayılmırlar. İfrat dərəcədə paxıllıq, təkəbbür, qürur, ədavət, kin-küdurət və s. xəstəliklərin qisminə daxil olur. Məsələn, "Münafiqun" surəsində bədbinlik və bədgümanlıq münafiqlərə xas bir sifət kimi irəli sürülür:

{...يَحْسَبُونَ كُلَّ صَيْحَةٍ عَلَيْهِمْ}

***"Onlar (bədgümanlıqdan) hər bir qışqırığın, səs-küyün öz əleyhlərinə olduğunu güman edirlər."***[1]

Həqiqətdə, bu, onlar üçün dünyəvi əzab sayılır! Əlbəttə, belə pisxislətli şəxslərin bədbinliyi təbiidir. Çünki ("müqayisə" qanununa görə) özlərini başqaları ilə müqayisə edərək kimlərinsə onların vəziyyətindən xəbərdar olduqları və onlardan qisas ala biləcəyini ehtimal verdikləri üçün həmişə qorxu içində yaşayırlar. Atalar necə də gözəl demişlər: "Xain adam qorxaq olar!"

**2.** Məxluqata bədbin olma bəzən insanı Xaliqə bədbin edir, onun dini əqidəsinə təsir göstərir, bəzən o, Allahın ədalətində, bəzən də qüdrətində şəkk edir! Hətta peyğəmbərlərin dəvətinə də şəklə baxıb, bunu xalqa hökmranlıq, avam kütlənin diqqətini cəlb etmək kimi təsəvvür edə bilər. Bu hissin zahirən dinin əsaslarına etiqadlı insanlarda da baş qaldırması qeyri-mümkün deyildir. Fitnəkar ünsürlərin və ya

*1 . "Münafiqun" surəsi, ayə 4.*

münafiqlərin peyğəmbərlərin dəvətini rədd etmələri, çox güman ki, elə buradan qaynaqlanır.

3. Bədbin insanlar, adətən, ürəkdə başqalarının qeybətilə məşğul olduqlarından səfa-səmimiyyətdən uzaqdırlar. Buna bəzi əxlaq alimləri "qəlbi qeybət" adlandırırlar.

### *Bədbinliklə mübarizə yolları*

Əvvəlcə bu məsələ ilə bağlı bir iradı aradan qaldırmaq istəyirik. O da budur ki, "bədbinlik" hissi insanın ixtiyarından xaric olduğundan ondan çəkinmək mümkün deyildir. Məsələn, insan bir mənzərəni müşahidə etdikdə, yaxud bir söz eşitdikdə, yaxud bir məsələ və şəxs haqqında fikirləşdikdə, ixtiyarsız olaraq bədbinlik onun fikrinə yol tapır. Belə isə necə ola bilər ki, onu qadağan və haram bilək? Hətta buna aid bir hədisi də misal çəkirlər:

ثَلاثٌ لا يَسْلَمُ مِنْها اَحَدٌ: اَلطِّيَرَةُ وَالْحَسَدُ وَالظَّنُّ

*"Heç kim üç xislətdən canını qurtara bilməz: pis yozum, paxıllıq və bədbinlik."*[1]

Bu şübhəni aradan qaldırmaq üçün müxtəlif izah və cavablar verilib:

1. Bəziləri bədgümanlığın şüurda zatən qadağan olmadığını deyir və bunu sübut etmək üçün Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan məşhur bir hədisə istinad edirlər:

ثَلاثٌ فِي الْمُؤْمِنِ لا يُسْتَحْسَنَّ وَلَهُ مِنْهُنَّ مَخْرَجٌ، فَمَخْرَجُهُ مِنْ

1 . *"Biharul-ənvar", 58-ci cild, səh.320.*

سُوءِالظَّنِّ اَنْ لا يُحَقِّقَهُ...

*"Üç xislət möminə yaraşmır və onlardan qurtulmağın yolu vardır: bədgümanlıqdan qurtulmağın yolu odur ki, onu gerçəkləşdirməsin..."*[1]

2. Bəzilərinin nəzərinə əsasən, bədgümanlığın xarici və qəlbi təsiri qadağan edilib. Yəni insan birinə bədbin olduğu zaman nə ona qəlbində nifrət bəsləməli, nə də onunla zahirdə rəftar və davranışını dəyişməlidir. Demək, bədbinliyin gerçəkləşməməsi dedikdə, onun geniş (zehni və xarici) mənası nəzərdə tutulur.

Şübhəsiz, hər iki məna bədbinlikdən çəkindirən ayə və hədislərlə ziddir. Çünki ayə və hədislərdə bədbinlik zatən – istər xaricdə təsir göstərsin, istərsə də göstərməsin – qadağan edilir. Əlbəttə, (əqidə və imanın zehni məlumatdan fərqini nəzərə almaqla) qəlbi əqidələr insanda ixtiyari olduğu halda, nifrət və ikrah hissi isə belə deyildir.

3. Həqiqət odur ki, bədbinlik əvvəlcə qeyri-ixtiyari olsa da, onun davamı ixtiyari yön alır. Adətən, bu duyğu bir sıra gümanlardan baş qaldırır ki, nəhayət, tələsik şəxsi yürütmələrlə nəticələnir. Buna görə də insan hər hansı məsələyə qarşı obyektiv yanaşmalı, müxtəlif doğru ehtimallarla yaranan şübhəni tez bir zamanda aradan qaldırmalıdır. Rəvayətlərdə də bu məsələ xüsusi olaraq vurğulanır. İmam Əli (ə) buyurur:

وَ لا تَظُنَّنَّ بِكَلِمَةٍ خَرَجَتْ مِنْ اَخِيكَ سُوءاً وَاَنْتَ تَجِدُ لَها فِي الْخَيْرِ مَحْمِلاً

*"Qardaşından eşitdiyin (məs: hər hansı şübhəli) sözdən*

1 . Yenə orada, 75-ci cild, səh.201.

*düzgün bir nəticə çıxarana qədər pis fikrə düşmə."*[1]

Deməк, insanın ixtiyarından kənar məsələlər qəlbə nagahan daxil ola bilir və lakin sabit və davamlı bədbinlik isə ixtiyar üzündəndir. Bu məna ayə və rəvayətlərlə də zahirən tam uyğun gəlir. Amma onların zahirinə zidd çıxmağın heç bir dəlili yoxdur. İmam Sadiqin (ə) Məhəmməd ibn Fəzilə "Kəzzib səmʹəkə və bəsərəkə ən əxikə!" *(Müsəlman qardaşına qarşı gözünü və qulağını təkzib et!)* – buyruğu da bu məsələni, yəni doğru ehtimallara əsaslanmağı və zehnə gələn ilkin düşüncələri aradan qaldırmağı bir daha təsdiq edir.

## *Bədbinliyin müalicəsi*

Bədbinlik haram edilərkən onun dərman və müalicəsi yolları da müəyyənləşdirilib. Dəfələrlə bildirdiyimiz kimi, ruhi-psixoloji, cismi və əxlaqi xəstəliklərin müalicəsini onların yaranma səbəblərində axtarmaq lazımdır. Bədbinliyin amilləri ilə bağlı bəhsləri nəzərə alaraq belə nəticəyə gəlirik:

**1.** Bədbinliyi aradan qaldırmaq üçün əvvəl özümüzü islah etməliyik. Özünüislah zamanı insanda başqalarına qarşı pis fikirlər elə də rahat baş qaldıra bilmir. Bir də ki, heç vaxt başqalarını özümüz kimi fərz etməməliyik. Çox vaxt ola bilər ki, ətrafımızda olanlar bizdən üstün olsunlar. Bəşərdə olan zati müqayisə hissinin (özünübəyənmə) əsla elmi və məntiqdə rolu olmadığından belə hallarda onun əsasında hökm kəsə bilmərik.

**2.** Bədbinliyə səbəb olan mühiti və ətrafımızı təmizləməli, şər və pis adamlarla yoldaşlığı tərk

---

*1 . "Kafi", 2-ci cild, səh.362.*

etməliyik. Belə rabitələrin zərərlərindən əlavə, insanlara qarşı fikirləri qaranlıqlaşdırmaqda, onları tamamilə səhv tanımaqda rolu az deyildir. Bu səhv təsəvvürlər əxlaqi-mənəvi zərbələrilə bərabər bizi (bədbinlik üzündən) böyük şəxslərin fikir və əxlaqi dəyərlərindən də məhrum edir. Bu baxımdan uşaqlıqdan qalan əyri mühitin təsirlərini sağlam mühitlə əvəz etmək, kortəbii yaranan təlqinləri aradan qaldırmaq üçün əməlisaleh insanların tərcümeyi-halı ilə maraqlanmalı, yaxşı adamlarla oturub-durmaqla fikirlərimizdən təmizləməliyik. Burada xüsusilə böyük və misilsiz tarixi şəxsiyyətlərin tərcümeyi-halını mütaliə etməyimiz daha məqsədəuyğundur.

**3.** Bədbinliyin fərdi-ictimai zərərlərini, özümüzə və cəmiyyətə dəyən böyük zərbələrini daim nəzərə almalı, keçən bəhslərlə bağlı ətraflı düşünməliyik. Bilməliyik ki, bədbinliyin aldadıcı "intiqam", yaxud "xudbinlik" halları bizim hisslərimizi müvəqqəti aram və rahat edirsə, onun əvəzedilməz zərərləri ilə müqayisəedilməzdir.

**4.** Əgər bədbinliyimizin səbəbləri başqalarının kin-küdurəti, xudbinliyi, pis əməllərini yozmaq kimi əxlaqi pozuntularıdırsa, o zaman psixoloji təhlillərlə bu amilləri cilovlamalı, onları zehnin yatmış mərhələsindən agah və oyaq mərhələsinə yönəltməliyik. Bu proses əxlaqi pozuntuların müalicəsində yüksək əhəmiyyət daşıyır. İnsanın rəftar və fikirlərində ciddi təsir buraxa bilən zehnin yatmış mərhələsində baş verən təbii hisslər psixoloji təhlillərlə agah mərhələyə yönəldikdə, insanın əhval-ruhiyyəsində müsbət təsir qoya bilir. Elə ona görə bu məsələyə müasir psixologiyada yüksək əhəmiyyət

verilir.

### *Diqqət*

Nəhayət, deməliyik ki, bədbinlik yalnız bir halda – insanların çoxunun azğın və yaşadıqları mühitin pozğun olduğu təqdirdə məntiqli yönə malik ola bilər. Belə mühitdə şübhəli kəslərə ehtimallar üzrə xoşbin olmaq çətindir. Çünki məlum olmayan hər kəsin əyri yolda və günahkar olması ehtimalı çoxdur. Lakin diqqət etmək lazımdır ki, insan həmin mühitdə də tam ehtiyatlı olaraq həqiqi mənada bədbinlik yaradan baxışlardan qorunmalıdır. Yəni lazımınca ehtiyatı gözlədiyi halda, zahirən ilk baxışda bədbinlik və etimadsızlıq doğuran qarşı tərəfin rəftarlarına tez reaksiya verməməlidir. Bəs, nəzərdən qaçırmamalıyıq ki, həmin cəmiyyətdə əməlisaleh şəxslər də ola bilər. Deməк, bu ümumi qayda pozğun mühitin cəmiyyətin əksəriyyətini əhatə etdiyi təqdirdədir. Bundan digər hallarda isə kamil "hüsn-zənn"ə (xoşbinliyə) əməl olunmalıdır. İmam Əlidən (ə) nəql olunan bir hədisdə belə buyurulur:

**اِذا اسْتَوْلَى الْفَسادُ عَلَى الزَّمانِ فَاَحْسَنَ رَجُلٌ الظَّنَّ بِرَجُلٍ فَقَدْ غَرِرَ**

*"Fitnə-fəsad müəyyən bir əsrə hakim kəsildikdə, insanların bir-birlərinə "hüsn-zənn"i, şübhəsiz, aldanışdır."*[1]

1 . *"Biharul-ənvar", 75-ci cild, səh.197, hədis: 18.*

## ƏXLAQ SAYƏSİNDƏ SAĞLAM CƏMİYYƏT

***Əxlaqi normalarsız sağlam cəmiyyətdən söz gedə bilməz!***

Bildiyimiz kimi, insan ictimai həyat tərzi keçirir və şübhəsiz, "icma" onların tərəqqi və ya irticasında mühüm rol oynayır. Sosioloqlara görə, cəmiyyətdən kənar düşən insan hər şeyi – elmi, şəfqəti, ruhi təkamülü, hətta danışığını və s. – əldən verir. Buna müəyyən səbəblər üzündən "meşə" kimi vəhşi mühitə düşən və yırtıcı heyvanların ətrafında yaşayan insanı misal göstərirlər. Tarixdə belə həyat tərzi keçirənlər az olmayıb. Belələri dildən, insani düşüncə və bəşəri səciyyələrdən uzaq ikən rəftar və davranışları da eynilə vəhşi heyvan kimi olur. Səhralıqda və ya köçəri həyat sürən, kiçik qəbilə formalarında yaşayanların vəziyyəti məlum olduqdan sonra cəmiyyətdən ayrı düşən fərdin taleyi aydındır! Bu və bu kimi digər faktlar sosioloqların "Cəmiyyət fərddən irəlidir!" – ideyasını çox gözəl təsdiq edir. Əlbəttə, fərd "bir canlı" kimi cəmiyyətdən əvvəl təsəvvür olunsa da, lakin bir "insan" kimi ondan geridir. Bu baxımdan ictimai əlaqələr genişləndikcə,

sivilizasiya da – hər hansı yöndə – tərəqqi edir.

Çağdaş dünyamızda insanların bir-biri ilə geniş əlaqələrinə şərait yaradan vəsaitlər müasir sivilizasiyanı doğruldan əsas amillərdəndir. Bu bizə dünya ölkələri arasında sivil səviyyələri ayırd etməyə imkan verir.

## *İnsanın ictimai həyatındakı məziyyətləri*

Məlum olduğu kimi, ictimai həyat tərzi təkcə insana xas deyil. Bal arısı və qarışqa kimi kütləvi formada yaşayan həşəratlar və ya quşlar, yaxud bir sıra heyvanlar da ictimai həyat tərzi keçirirlər. Bəzən onların arasındakı bir çox qanunauyğunluqlar hətta insanların ictimai həyatını da ötüb-keçir. Məsələn, bal arılarının yuvasında hətta bir işsizin, yaxud birinin ac qalması mümkün deyil. Halbuki bunu dünyanın ən mütərəqqi və inkişaf etmiş ölkələrində görə bilərik. Onların arasındakı hər işin bölünmə və qazanc tərzinin qəribəlikləri insani mühitlərdə müşahidə olunmur. Bununla belə, onların ictimai yaşayışında iki əsas cəhət var ki, onları bəşərin ictimai həyatından ayırır:

1. Heyvanlarda kütləvi yaşayış nə qədər biçimli olsa da, belə yaşayış tərzi yalnız yuva, azuqə yığımı, törəmə və bu kimi ölçülərlə məhdudlaşır. Halbuki insanın ictimai həyatı daha əhatəli, bəlkə də naməhduddur.

2. Heyvanların ictimai həyatında heç bir dəyişiklik baş vermir. Başqa sözlə, onlarda tərəqqi, keçmiş nəsillə yeni nəsil arasında fərq olmur. Məsələn, bugünkü bal arılarının yuvası kəşflərdən məlum olan neçə milyon il əvvəlki bal arılarının yuvasından fərqlənmir. Bu onu göstərir ki, neçə milyon il keçsə də, onlarda yaşayış tərzi əsla dəyişilmir! Amma bəzən bir əsr və yaxud

ondan da az müddət ərzində insanın ictimai həyatında böyük dəyişikliklər baş verir. Demək, insanın ictimai həyatını başqa canlılardan ayıran bu iki fərq əsaslı yönə malikdir.

Bir sözlə, insanın fikri, əməli-əxlaqi, iqtisadi-texnoloji və s. yönlərdə təkamül və tərəqqisi qarşılıqlı ünsiyyətsiz mümkün deyil. İctimai həyatsız mədəniyyət, insanlıq, sivilizasiya və digər səciyyələr heç bir məna daşımır.

### *Cəmiyyəti formalaşdıran amil*

Sosioloqlar insanın ictimai həyatı seçməsi, onun birgə yaşayışının nisbətən ağır şərt və qanunları ilə razılaşması haqda müxtəlif fikirlər yürütmüşlər ki, burada onların bir neçəsini qeyd edirik:

**1.** Bəzilərinin nəzərinə görə, insanda fitri bağlılıq hissi onu instinkt olaraq ictimai həyata cəlb edir.

**2.** Bəziləri isə insanın ictimai həyata yönəlməsini təbii amillərdən (zəlzələ, sel, yırtıcı heyvanlardan) qorxu hissi ilə əlaqələndirirlər.

**3.** Bəziləri də insanın vücudundan qaynaqlanan "qarşılıqlı faydalanma" hissini əsas faktor hesab edirlər.

**4.** Bəziləri də ki, mövcud ictimai həyatı tədrici yaranan adət-ənənə və qayda-qanunların məcmusunun məhsulu kimi qiymətləndirirlər.

**5.** Bəziləri də insanların bir-birinə ehtiyacı və onun birgə təmini məsələsini ictimai həyatın amili bilir.

**6.** Bəziləri isə ictimai həyatın ailə ocaqlarının təşkili və tədricən nəsil artımı nəticəsində yarandığını deyirlər.

**7.** Nəhayət, bir qrup da belə fikir yürüdürlər ki, neçə tarixi dövrü keçirən bəşərin ictimai həyata rəğbətini kəşf etmək mümkün deyil. Çünki əsrlər keçdikcə, bir çox həqiqətlərin üzü örtülmüş və bu haqda mühakimə yürütmək üçün əldə dəqiq faktlar yoxdur.

Sonuncu fikrin digər nəzərlərlə müqayisədə həqiqətə daha yaxın və keçmişdə insanı ictimai həyata yönəldən əsas amil haqda hökm verməyin çətin olduğuna baxmayaraq, sözsüz, bu gün ictimai həyatın davamını çox güman ki, insanın "təkamülə rəğbəti", "ehtiyacların təmini" və "onların təklikdə qeyri-mümkünlüyü" kimi məsələlərlə əlaqələndirmək olar.

**İzah:** İnsanın məişət, geyim, ərzaq və dərmanı kimi cismi, təlim-tərbiyəsi, zövqü-estetik hissləri və tükənməyən arzu-istəkləri kimi ruhi duyğu və ehtiyaclarının təmini bir fərdin əlindən gələ bilməz. Bu çox çeşidli ehtiyacların hər birini, məxsusən, hər şeyi asanlıqla bəyənməyən insanın zövqünə uyğun hazırlamaq üçün ayrı-ayrı mütəxəssis fərd və qrup lazımdır. Həm də ki, heyvanlardan fərqli insana xas rifah və ideal həyata rəğbət hissi onu ictimai həyata sövq edir. Bu məqsədin gerçəkləşməsi ayrı-ayrı düşüncələrin, istedad və qüvvələrin həmkarlığı nəticəsində mümkündür. Bu iki faktor insanı ictimai həyata rəğbətləndirən ən mühüm amildir.

### *Birgə yaşayışda dəyər*

İctimai hüquq baxımından insanların qanun qarşısında bərabərliyi məsələsi onların eyni dəyərə malik olduqları ilə deyil, həqiqətdə nizam-intizamı qorumaq, ədalətə riayət, şəxsi mənafenin qarşısını

almaq, bəşəri istismarla mübarizə və s. üçündür. Yoxsa, insanların ictimai dəyər və bacarıqları arasında fərq olduqca çoxdur. Məsələn, zəhmətkeş, ləyaqətli və xeyirxah alimin dəyəri savadsız və fitnəkar bir kəslə eyni deyil. Lakin ictimai hüquq bərabərliyində insanlar arasında fərq qoyularsa, onun fəsad və zərərləri ictimai dəyərləri gözləməkdən artıq olar. İslamda insanların ictimai dəyərləri xalqın onlardan aldığı bəhrə ilə ölçülür. Peyğəmbəri-Əkrəm (s) buyurur:

خَيْرُ النّاسِ اَنْفَعُهُمْ لِلنّاسِ

*"Camaata ən çox fayda və xeyir verən insanların ən yaxşısıdır!"*[1]

## *İslam və ictimai məsələlər*

Şübhəsiz, heç bir din İslam qədər fərdi və ictimai ölçüləri möhtərəm saymayıb. Bu onu göstərir ki, insanın təkamülü, istedadlarının çiçəklənməsi onun ali məqsədidir. İslam nöqteyi-nəzərindən ictimai məsələlərin əhəmiyyətini dərk etmək üçün aşağıdakı göstərişlərə nəzər salmaq kifayətdir:

**1.** İslamın bünövrə göstərişləri içərisində elə fərdi göstəriş yoxdur ki, ictimai əhəmiyyət daşımasın. Onlar "ibadətlər", "alış-verişlər" və "siyasətlər"dən ibarət İslam fiqhi və hüquqlarını təşkil edir. Əksəriyyəti özünə həsr edən ikinci və üçüncü qisimlərin ictimailiyi bəllidir. Məxluqla Xaliq arasında əlaqə yaradan birinci qismə də ictimai əhval-ruhiyyə hakimdir.

İslamda ibadətlərin mühüm bir hissəsini təşkil edən gündəlik vacib əməllər ictimai reallıqlarla elə

*1 . "Nəhcül-fəsahə", səh.315.*

qarışmışdır ki, onları bir-birindən ayırmaq çətindir və fərdi şəkildə, sanki öz məfhumunu itirir. Məsələn, vacib namazlara giriş sayılan "azan və iqamə" müsəlmanları bir yerə toplaşmağa, onu kütləvi şəkildə yerinə yetirməyə dəvət edir. Bu əməl fərdi şəkildə həmin vacib sünnəni qoruyub-saxlamaq və ona bir növ ruhi hazırlıqdan başqa bir məfhum daşımır.

Namazın həqiqi dua və raz-niyaz sayılan "Həmd" surəsinin ("nəbudu" (ibadət edirik), "nəstəin" (kömək diləyirik), "ihdina" (bizi hidayət et kimi)) və namazın sonunda "cəm" formasında işlənən "salam"ın ibarələri fərdi icra olunduqda, demək olar, öz əsl məfhumlarını əldən verir. Bunlar bütünlükdə həmin vacib əməlin mahiyyətinin kütlə üzərində qurulduğunu göstərir. Bundan əlavə, onun camaatla qılınması haqda olduqca çoxlu tövsiyələr vardır. İslam ibadətləri içərisində "həcc"in ictimai əhəmiyyəti digər əməllərdən üstün, "keçirilmə forması" və təsirləri bütün ibadətlərdən güclüdür.

**2.** İslamda ictimai əlaqələr qiymətləndirilərək Allah-Taalanın ayələri və tövhidin nişanələrindən sayılır. Qurani-Kərimdə buyurulur:

{وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً}

***"Sizin ünsiyyət yaratmağınız üçün öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir!"***[1]

**3.** Qurani-Kərimdə aydın göstərilir ki, Peyğəmbəri-

*1 . "Rum" surəsi, ayə 21.*

Əkrəmin (s) qeyri-adi işlərindən biri insanlar arasında ülfət və mehribanlıq yaratmasıdır:

{وَإِن يُرِيدُواْ أَن يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللّهُ هُوَ الَّذِيَ أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ وَأَلَّفَ بَيْنَ قُلُوبِهِمْ}

***"O Allah səni Öz köməyi və möminlərlə müdafiə edib möhkəmlətdi, onların ürəklərini ülfət, dostluqla birləşdirdi."***[1]

Ayədə göstərilir ki, sərvət və dünya malı ürəklər arasında ülfət və dostluq yarada bilməz və hətta onun özü ixtilaf və təfriqə, ədavət və kin-küdurət amilinə çevrilir. İman və mənəviyyat isə belə deyildir. Diqqəti cəlb edən digər məsələ odur ki, bu ayədə möminlərin müdafiəsi bilafasilə Allahın köməyindən sonra qeyd edilir. Bu da həmin məsələyə bir daha əhəmiyyət verir.

**4.** Qurani-Kərimdə ixtilaf, nifaq və ayrılıq səmavi əzaba bais olan amil sayılır:

{قُلْ هُوَ الْقَادِرُ عَلَى أَن يَبْعَثَ عَلَيْكُمْ عَذَابًا مِّن فَوْقِكُمْ أَوْ مِن تَحْتِ أَرْجُلِكُمْ أَوْ يَلْبِسَكُمْ شِيَعاً وَيُذِيقَ بَعْضَكُم بَأْسَ بَعْضٍ}

***"De: Allah başınızın üstündən və ayaqlarınızın altından sizə əzab göndərməyə, yaxud sizi dəstələr halında qarışdırmağa və birinizə digərinin qorxusunu (müharibəni sizin hər birinizə) daddırmağa qadirdir!"***[2]

**5.** Qurani-Kərim möminlər arasında əlaqəni "qardaşlıq" kimi yad edir və beləliklə, onları sıx vəhdətə dəvət edir.

**6.** Camaat arasında ədavət, ixtilaf və təfriqə

*1 . "Ənfal" surəsi, ayə 62-63.*

*2 . "Ənam" surəsi, ayə 65.*

İslamda böyük günahlardan, onların arasında ülfət və mehribanlıq isə ən yaxşı əməllərdən sayılır. "Ehticac" kitabında imam Sadiqdən (ə) belə nəql olunur:

اِنَّ مِنْ اَكْبَرِ السِّحْرِ النَّمِيمَةُ يُفَرِّقُ بِها بَيْنَ الْمُتَحابِّينَ وَ يُجْلَبُ الْعَداوَةُ عَلَى الْمُتَصافِينَ وَيُسْفَكُ بِهَا الدِّماءُ وَيُهْدَمُ بِهَا الدُّورُ وَيُكْشَفُ بِهَا السُّتُورُ، وَالنَّمّامُ اَشَرُّ مَنْ وَطِىءَ الْاَرْضَ بِقَدَمٍ

*"Xəbərçilik həqiqətən, dostlar arasında təfriqə və ədavət yaradan ən böyük sehrdir. Onunla qanlar axıdılır, evlər dağılır, camaatın sirləri faş edilir. Xəbərçi yer üzündə addım atan ən pis adamdır!"*[1]

Yeri gəlmişkən, bəzi hədislərdə sehr küfrlə eyni sayılmışdır.

**7.** İslam müstəsna hallardan başqa müsəlmanların bir-birləri ilə küsülü qalmalarına, aralarında ülfət və sevginin azalmasına və dostluqda soyuqluğa icazə vermir. Bir çox hədislərdə bunlar şiddətlə qadağan edilmiş və çarəsiz qarşıya çıxan hallarda isə üç gündən artıq küsülü qalmağa icazə verilməmişdir. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

لا يَحِلُّ لِمُسْلِمٍ اَنْ يَهْجُرَ اَخاهُ فَوْقَ ثَلاثَةِ اَيّامٍ

*"Müsəlmanın din qardaşı ilə üç gündən artıq küsülü qalması caiz deyil!"*[2]

Başqa bir hədisdə isə belə buyurmuşdur:

نُهِيَ عَنِ الْهِجْرانِ، فَمَنْ كانَ لابُدَّ فاعِلاً فَلا يَهْجُر اَخاهُ اَكْثَرَ مِنْ ثَلاثَةِ

1 . *"Ehticac", Təbərsi, 2-ci cild, səh.82.*
2 . *"Biharul-ənvar", 75-ci cild, səh.189.*

اَيّامٍ، فَمَنْ كانَ هاجِراً لِاَخِيهِ اَكْثَرَ مِنْ ذالِكَ كانَتِ النّارُ اَوْلى بِهِ

*"(Başqasından) küsmək qadağan olunub. Çarəsizlikdən bu işi görənlər üç gündən artıq öz qardaşından küsülü qalmasın. Ondan çox küsülü qalana isə cəhənnəm odu layiqdir!"*[1]

Bu hədislərdə küsülülüyü davam etdirənin İslamdan çıxmasının və barışığa razılıq verənin isə behiştə daxil olması da qeydə alınıb.

**8.** İslamda məhəbbət, dostluq, ülfət, həmkarlıq və yardım hər müsəlmanın qəti vəzifəsi və hamının bu üsullara riayəti vacib sayılır. İmam Sadiq (ə) bir hədisdə buyurur:

يَحِقُّ عَلَى الْمُسْلِمِينَ الْاِجْتِهادُ فِي التَّواصُلِ، وَالتَّعاوُنُ عَلَى التَّعاطُفِ، وَالْمُواساةُ لِاَهْلِ الْحاجَةِ، وَتَعاطُفُ بَعْضِهِمْ عَلى بَعْضٍ، حَتّى تَكُونُوا كَما اَمَرَكُمُ اللهُ عَزَّ وَجَلَّ رُحَماءُ بَيْنَهُمْ

*"Müsəlmanların öz aralarında xoş münasibətlərin qurulması üçün çalışmaları, məhəbbətlə davranmaları, möhtaclarla mehriban dolanmaları, bir-birlərinə qarşı səmimi olmaları lazımdır ki, Allah-Taalanın (Quranda)* ***"Bir-birlərinə qarşı mehribandırlar!"*** *– buyruğunu qazana bilsinlər."*[2]

9. İslam dostluq, məhəbbət, ictimai həmkarlıq və bərabərliyi yalnız bir vəzifə hesab etmir və onların gerçəkliyi üçün də tədbirlər nəzərdə tutur. Bir tərəfdən qeybət, xəbərçilik, qürur, haqqı geri almaqda qarşı tərəfi sıxıntıya salmaq, bədbinlik, insanları pis ləqəblərlə

1 . *"Vəsailüş-şiə", Hürr Amuli, 8-ci cild, səh.586, hədis: 8.*
2 . *Yenə orada, səh.552, hədis: 2.*

səsləmək, zarafatda ifrata varmaq və s. kimi təfriqə, nifaq və ayrılıq salan amilləri qadağan edirsə, digər tərəfdən isə salam vermək, görüşmək, "sileyi-rəhm" (qohumlara yaxşılıq), yaxşı güman, dostluq münasibətlərini bildirmək, bir-birlərinin heysiyyətini müdafiə etmək, iki nəfərin arasında sülh yaratmaq, bir-birinin hacət və istəklərini yerinə yetirmək və bu kimi ülfət, məhəbbət və qarşılıqlı etimadı möhkəmləndirən amilləri tərifləyir, insanların ictimai rabitələrinin mehr-məhəbbət üzərində qurulmasını istəyir və bu məsələyə yüksək əhəmiyyət verərək onları həyatın zəruri dayaqları hesab edir. Peyğəmbəri-Əkrəm (s) buyurur:

اِنَّ الْمُؤْمِنَ لَيَسْكُنُ اِلَى الْمُؤْمِنِ كَما يَسْكُنُ الْقَلْبُ الظَّمآنُ اِلَى الْماءِ الْبارِدِ

*"Susuzlar sərin su ilə rahatlaşdıqları kimi, möminlər də əlaqə saxladıqda dincəlirlər!"*[1]

Bu ibarədən, yeri gəlmişkən, bəşərin ictimai həyata ehtiyacının təbii-fitriliyi, birgə həyatın zəruriliyi başa düşülür.

**10.** Diqqəti cəlb edən məsələ odur ki, İslamda ictimai əlaqələrə əsla hədd qoyulmur və onların daha da möhkəm və yaxınlığı irəli sürülür. Məsələn, buyurulur ki, möminlər arasında mənəvi bağlılıq hətta onların cisminə belə təsir göstərməlidir! Peyğəmbəri-Əkrəm (s) buyurur:

اَلا وَاِنَّ وُدَّ الْمُؤْمِنِ مِنْ اَعْظَمِ سَبَبِ الْاِيمانِ... اَلا وَاِنَّ الْمُؤْمِنَيْنِ اِذا

1 . *"Biharul-ənvar", 74-cü cild, səh.280.*

تَحابّا فِي اللهِ عَزَّ وَجَلَّ وَتَصافَيا فِي اللهِ كانا كَالْجَسَدِ الْواحِدِ اِذَا اشْتَكى اَحَدُهُما مِنْ جَسَدِهِ مَوْضِعاً وَجَدَ الْآخَرُ اَلَمَ ذالِكَ الْمَوْضِعِ

*"Agah olun ki, mömini sevmək imanın ən böyük səbəblərindən biridir!... Agah olun ki, Allaha xatir bir-birinə məhəbbət bəsləyən iki mömin bir bədənə çevrilir! Belə ki, əgər biri bədəninin bir hissəsində narahatlıq keçirsə, digəri də həmin ağrını hiss edər!"*[1]

Bu hədisdən başa düşülür ki, möminlər arasında dostluq möhkəm olmalı, bədənləri bir bədən kimi sayılmalı, biri öz əzalarında narahatlıq hiss etdikdə, o biri də bunu öz bədənində hiss etməlidir. Yəni onlar mənən bir-birinə elə bağlanmalıdırlar ki, bir ruh, bir bədənə çevrilsinlər. (Necə ki, Peyğəmbərin (s) bəzi səhabələri belə idi.)

Bu məsələni iki izahla belə aydınlaşdırmaq olar:

**Birincisi:** Ruhun bədənlə əlaqəsi hədsiz dərəcədə yaxın olduğundan ruhi narahatlıqlar cismə dərin təsir göstərir. Müasir psixoloqların nəzərinə görə, cismi xəstəliklərin çoxu, məsələn, hər hansı üzvün öz fəaliyyətini itirməsi, yaxud bədənə bir mikrobun keçməsi kimi amillərin səbəbi sırf ruhi-psixoloji sarsıntılardan doğur.

**İkincisi:** Müasir elm isbat edir ki, iki nəfər arasında fikri mübadilə uzaq fasilədən də mümkün işdir. Belə ki, onlar xüsusi ruhi saziş və yaxud ardıcıl məşqlər nəticəsində heç bir vasitə olmadan bir-biri ilə fikri əlaqə yarada və öz fikirlərini digərinə ötürə bilirlər. Bu məsələ "telepatiya" adlanır. Demək, fikri əlaqələr vasitəsilə bir şəxsin narahatlığı digərinə də keçə bilir və o biri şəxsin

*1 . "Biharul-ənvar", 74-cü cild, səh.281.*

də həmin narahatlığı öz bədənində hiss etməsi mümkün məsələdir.

11. İslam göstəriş verir ki, insanlar cəmiyyətdən ayrılmasınlar. Əmirəlmöminin Əli (ə) ixtilaf və təfriqə salan "xəvaric" qrupunun fikirlərini məhkum edərək belə buyurur:

**وَالْزَمُوا السَّوادَ الْاَعْظَمَ فَاِنَّ يَدَاللهِ مَعَ الْجَماعَةِ وَاِيّاكُمْ وَالْفُرْقَةَ فَاِنَّ الشّاذَّ مِنَ النّاسِ لِلشّيْطانِ كَما اَنَّ الشّاذَّ مِنَ الْغَنَمِ لِلذِّئبِ... وَاِنَّما حُكِّمَ الْحَكَمانِ لِيُحْيِيا ما اَحْيَا الْقُرآنُ وَ يُمِيتا ما أماتَ الْقُرآنُ، وَاِحْياؤُهُ الْاِجْتِماعُ عَلَيْهِ وَاِماتَتُهُ الْاِفْتِراقُ عَنْهُ**

*"Həmişə (haqqın tərəfini saxlamaq üçün) cəmiyyətə bağlanın ki, Allahın əli cəmiyyətlədir. İxtilaf və ayrılıqdan çəkinin ki, tək qalan qoyun qurda yem olduğu kimi, camaatdan ayrılan kəs də şeytana qismət olar... Və o iki nəfərə də ona görə hökm kəsmə ixtiyarı verilmişdi ki, onlar Quranın diriltdiyini diriltməli, öldürdüyünü (məhkum etdiyini) də dəfn etməliydilər. Diriltmək dedikdə, birlik, öldürmək dedikdə isə ayrılıq nəzərdə tutulur."*[1]

Tarixə əsasən, həmişə kiçik tayfa və qəbilələr mədəni baxımdan geri qalmış, böyük sivilizasiyalar isə böyük cəmiyyətlərdə görünmüşdür. İmam Əli (ə) da burada cəmiyyətin əhəmiyyətini nəzərə alaraq Allahın əlinin onun üzərində olduğuna toxunur. Bunun əksinə olaraq isə cəmiyyətdən uzaq düşənlər də şeytanın ovuna tuş gəlir və ilahi himayədən məhrum qalırlar. Sözün davamında buyurulan bənzətmələr göstərir ki, cəmiyyətin problemlərinin

1 . *"Nəhcül-bəlağə", xütbə: 127.*

həlli və qurdların caynaqlarından xilas olmaq yalnız kütləvi formada mümkündür. Demək, cəmiyyətin birliyi və fərdlərin sıx əlaqələri onları hər hansı hadisə və çətinliklər müqabilində davamlı və qalib edəcək. Daha sonra buyurulur ki, Quranı diriltmək vəhdət və birlik yaratmaq, cəmiyyətin ətrafına toplaşmaq, onu öldürmək isə cəmiyyətdən ayrılmaq, təfriqə və ixtilaflardır.

İslamın cəmiyyətə böyük əhəmiyyət verməsini aşağıdakı iki məsələ ilə də başa düşmək olar:

1. İslam baxımından camaat namazının əhəmiyyəti və savabı namazda iştirak edənlərin sayı ilə əlaqədardır. Məsələn, məscidlərin savabına gəldikdə, bazar əhli üçün tikilən və ya müəyyən bir tayfa və məntəqənin məscidlərindən tutmuş, şəhərin böyük məscidlərinə qədər və nəhayət, bütün müsəlmanlara məxsus ən böyük ibadət mərkəzi sayılan "Məscidül-Həram"ın (Kəbə evi) ictimai mövqeyinə görə özünəməxsusdur.

2. İslam nəsil və cəmiyyətin artımını bəyənir. Məsələn, Peyğəmbəri-Əkrəm (s) bir hədisdə buyurur:

أُطْلُبُوا الْوَلَدَ فَإِنِّي مُكاثِرٌ بِكُمُ الْأُمَمَ غَداً

*"Övlad istəyin ki, mən qiyamət günü sizin çoxluğunuzla öyünəcəyəm!"*[1]

Burada diqqət yetirmək lazımdır ki, bir sıra hallarda cəmiyyətin çoxluğu azuqə və məişət problemlərini doğura bilər. Lakin müvəqqəti çətinliklər cəmiyyətə mənsub olan fayda və dəyərləri itirə bilməz. Əlbəttə, belə hallarla yeraltı və yerüstü sərvətlərə malik olmayan xalqlar üzləşir.

*1 . "Vəsailüş-şiə", 14-cü cild, səh.3, hədis: 6.*

## *Fərdi həyat*

Fərd və cəmiyyətin geri qalmasında asketliyin rolu: Sosioloqların nəzərinə görə, hər bir halda cəmiyyətdən uzaq düşməyin həm fərdə, həm də cəmiyyətə vurduğu mənfi təsirləri inkarolunmazdır. Bu məsələ həm cəmiyyətdən uzaq düşüb tək-tənha yaşayanlar, həm də bir sıra ictimai-siyasi, yaxud coğrafi səbəblər üzündən ayrı yaşayan qəbilə və xalqlar üzərində sınaqdan keçib.

Ros "Sosiologiyanın üsulları" kitabında kameralarda və təcridxanalarda yatan məhbusların üzərində cəmiyyətdən uzaq düşməyin təsirlərini araşdırarkən yazır: "Belələrinin 10%-i bir ildən sonra ya ölür, ya intihar edir, ya da dəli olur. Qalanları da bir növ ruhi-psixoloji nasazlıqlarla üzləşirlər..."

Belələrinin ölümlə ictimai həyat arasındakı mübarizəsi doğrudan da qəribədir. Mümkündür, ona yalnız bir gül, yaxud bir hədiyyə verməklə onun birgə həyata olan susuzluğunu yatırmaq və ölümdən xilas etmək olar...

Tərki-dünyalığı seçənlərdə ruhi düşkünlük, qəm-qüssə, süstlük, ümidsizlik və xəyallara qapılma halları daha çox müşahidə olunur."[1]

Bədəvi həyat sürən qəbilələrin də ictimai həyatın müsbət təsirlərindən məhrum qaldıqları təbii bir məsələdir. Onların əksər yönlərdə irtica və geriliyi belə həyat tərzinin nəticəsidir. Hətta bir sıra siyasi münasibətləri və iqtisadi əlaqələrini qıran ölkələr belə, bəzən bir çox sahələrdə müasir inkişafdan geri qalır. Hər halda bütün bunların özünəməxsus səbəbləri vardır ki, onları həmin xalqın mentaliteti və dövlətçiliyində

*1 . "Sosiologiya", Samuel Kinq, səh.428.*

axtarmaq lazımdır.

Amma ictimai xarakterli belə problemlər təkamül və tərəqqinin qarşısını alan ən böyük bəlalardan biridir.

## *İslam və rahiblik*

İslam asketliyi, başqa sözlə, rahibliyi məhkum edir. Artıq bir şüara çevrilən məşhur "La rohbaniyyətə fil-İslam!" (İslamda rahiblik yoxdur!) – hədisi bir çox kitablarda nəql olunub. "Rühb" sözündən götürülən bu ifadə vəhşət və qorxu mənasını daşıyır. Bir termin kimi isə Allahdan qorxub ibadət üçün camaatdan ayrılıb, tək-tənha yaşayan kəsə deyilir.

## *Tarixi fakt*

Əldə olan məlumatlara əsasən, rahiblik həyat tərzi qədim zamanlardan Hindistan yarımadasında peyda olur və sonralar isə xristianlar arasında da yayılmağa başlayır. Bəziləri bunu (xristianlar və yaxud yəhudilər arasında yayılmasını) dövrün diktator və zülmkar rejimi ilə əlaqələndirirlər. Deyirlər ki, hakim durumun ağır işgəncə, qətl və təqibləri yeni ayinin tərəfdarlarını səhralıqlara çəkilməyə vadar edir və beləliklə, çoxları fərdi həyatı seçərək onlara vəd olunan yeni peyğəmbərin zühurunun intizarı ilə yaşamağa məcbur olurlar.[1]

## *Psixoloji fakt*

Məlum olduğu kimi, millətlər arasında məğlubiyyət, uğursuzluq və s. problemlər cürbəcür qarşılanır. Məsələn, bəziləri cəmiyyətdən ayrılıb fərdi həyata üz tutsalar da, bəziləri isə axıradək mübarizə yolunu

*1 . "Vil Dürantın "Tarix" kitabına müraciət edə bilərsiniz.*

seçirlər. Rahiblik həqiqətdə məğlubiyyətdən sonra çıxış yolu tapa bilməyənlərin reaksiyasıdır.

Rahibliyin tarixi-psixoloji səbəblərinə diqqət yetirdikdən sonra İslamın bu məsələ ilə bağlı nəzərini açıqlayırıq. Belə nəql edirlər ki, Osman ibn Məzun adlı bir şəxs (övladını əldən verdikdən sonra) özünə təsəlli vermək məqsədilə cəmiyyətdən ayrılıb ibadətə qapılır. Peyğəmbəri-Əkrəmi (s) bundan xəbərdar edirlər. Həzrət onu bu işdən çəkindirərək buyurur:

اِنَّ اللهَ تَبارَكَ وَتَعالى لَمْ يَكْتُبْ عَلَيْنا الرُّهبانِيَّةَ اِنَّما رُهبانِيَّة اُمَّتِي الْجِهادُ فِي سَبِيلِ اللهِ

*"Allah-Taala bizə rahibliyi rəva bilmir. Həqiqətən, ümmətimin rahibliyi Allah yolunda cihaddır."*[1]

İslam insanın rahiblik kimi maddi ləzzətlərdən üz döndərməsi hissini cihad kimi İslamın əsasını qoruyan, fərdi və ictimai problemləri həll edə bilən sərt qüvvə ilə dəyişdirilməsini təklif edir. Yaxud başqa bir hədisdə bir nəfər imam Kazimdən (ə) belə soruşur:

عَنِ الرَّجُلِ الْمُسْلِمِ هَلْ يَصْلُحُ اَنْ يَسِيحَ فِي الْاَرْضِ اَوْ يَتَرَهَّبَ فِي بَيْتٍ لا يَخْرجُ مِنْهُ؟ قالَ(ع): لا

*"Müsəlman şəxsin biyabanlara və yaxud evin bir guşəsinə çəkilməsi məsləhətdirmi?" Həzrət buyurdu: "Xeyr!"*[2]

İslam hətta insanın evindən və əhli-əyalından ayrılıb, məlum olmayan səfər və səyahətlərə çıxması ilə də razılaşmır. Necə ki, mərhum Türeyhi "Məcməül-bəhreyn" kitabında "La səyahətə fil-İslam!" *(İslamda*

1 . *"Biharul-ənvar", 8-ci cild, səh.170, hədis: 112.*
2 . *"Biharul-ənvar", 70-ci cild, səh.119, hədis: 10.*

*səyahət yoxdur!)* – hədisini belə izah edir: "Burada müsəlmanın yaşadığı məntəqədən ayrılıb səhralıqlara üz tutması, kütləvi mərasimləri tərk etməsi nəzərdə tutulur."

Hər halda, verilən hədisdən belə başa düşülür ki, rahiblik və ya cəmiyyətdən uzaqlaşmaq – istər evin bir guşəsinə çəkilməklə, istərsə də əhli-əyal və ictimai həyatdan qaçaraq səyahətə çıxmaqla – İslamda məhkum və qadağandır. Məsələn, Qurani-Kərimdə xristianlar arasında yayılan rahiblik pis bir bidət sayılır və bu barədə buyurulur:

**وَرَهْبَانِيَّةً ابْتَدَعُوهَا مَا كَتَبْنَاهَا عَلَيْهِمْ إِلَّا ابْتِغَاء رِضْوَانِ اللَّهِ فَمَا رَعَوْهَا حَقَّ رِعَايَتِهَا**

*"Onlar özləri rahibliyi icad etdilər. Halbuki Biz yalnız Allahın razılığını qazanmağı tapşırmışdıq. Lakin onlar buna layiqincə riayət etmədilər."*[1]

Bunlar İslamın rahibliyə qarşı mövqeyini tamamilə aydınlaşdırır.

## *Xristianlıqda rahiblik*

Xristianların mövcud tarixi göstərir ki, rahiblik həyat tərzi xristianlığın ilkin əsrlərində deyil, onun miladi tarixi ilə üçüncü əsrdən sonra Roma imperatoru Disyusun həzrət İsanın (ə) tərəfdarları ilə qanlı mübarizələri dövründə yarandığı ehtimalı çoxdur. Onlar imperatora məğlub olduqdan sonra mövcud hakimiyyətin təzyiqlərindən dağlara və səhralara sığınırlar.[2]

1 . *"Hədid" surəsi, ayə 27.*

2 . *Bax: "İyirminci əsrin ensiklopediyası", "rəhb" kökü.*

Bu məsələ Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan rəvayətlərə nəzər saldıqdan sonra diqqəti bir az da cəlb edir. Məsələn, bir gün o həzrət İbn Məsuda buyurur: "Bilirsənmi, rahiblik nə vaxtdan yaranıb?" İbn Məsud cavab verir: "Düzünü Allah və Peyğəmbəri bilir!" Həzrət buyurur: *"İsanın (ə) dövründən bir müddət sonra zülmkar hökmdarlarla iman əhli arasında üç dəfə döyüş baş verir. Amma onlar məğlub olduqdan sonra dağlara və səhralara sığınaraq İsanın (ə) vəd etdiyi peyğəmbərin (Həzrət özünü nəzərdə tutur) zühurunun intizarı ümidilə ibadətə qapılırlar."*[1]

Məşhur xristian tarixçisi Vil Dürant "Tarix" kitabının 31-ci cildində rahibliklə bağlı geniş məlumat verərək yazır ki, rahibə qadınların rahib kişilərə qoşulması miladi tarixi ilə 4-cü əsrə təsadüf edir və sonralar bu fikrə qoşulanların sayı artaraq, nəhayət, 10-cu əsrdə artıq geniş miqyas alır.

Tarixçi hətta onların yaşadığı komalar, qayda-qanunlar, evlənməmələri, eləcə də rahibə qadınların əl işləri, əkin sahələrini abad etmələri, əkinçilikləri və digər əyləncələri ilə bağlı qısa izah da verir.

Rahibliyin ən mühüm şərtlərindən biri evlənməyi tamamilə tərk etməkdir. Fərid Vəcdi "Dairətül-məarif" kitabında yazır: "Bəzi rahiblər qadına baxmağı şeytan əməli bildiklərindən, hətta dişi heyvanı belə evlərinə buraxmazdılar və bunu şeytanın ruhunun onların mənəviyyatına zərər yetirə biləcəyi ilə əlaqələndirirdilər!"

Bununla belə, onların komalarında baş verən bir

---

*1 . Bax: "Məcməül-bəyan", "Hədid" surəsi, 27-ci ayənin təfsiri; "Biharul-ənvar", 70-ci cild, "ən-nəhy ənir-rəhbaniyyət" bölümü.*

çox faciələr tarixdə qeydə alınıb və hətta üçüncü papa İnsanın ibadətgahların birini "fahişəxana" adlandırması belə qələmdən yayınmayıb.[1]

*1 . "İnkişaf tarixi", Vil Dürant, 13-cü cild, səh.443.*

# İCTİMAİ VAHİD VƏ QURUMLAR

## *Böyük və qüdrətli cəmiyyətin təşkili*

İnsan yarandığı ilk zamanlardan onunla birgə icma quruluşu da formalaşmışdır. Onun icmalara və ayrı-ayrı qruplara bölünməsinə səbəb aşağıdakılardır:

**1. Tayfa:** Məlum olduğu kimi, ailə və nəsil artımı ibtidai icma quruluşlarının ilkin amillərindən sayılır və ilk ictimai qruplar özünü qəbilə şəklində büruzə verməyə başlayır. Elə müasir dövrdə də köçərilərdə şəhər və kənd mühitindən kənar ucqar bölgələrdə bu proses müşahidə olunur. Bəzən onlara hakim olan adət-ənənələrin sərtliyindən, hətta iki tayfa arasında qohumluq əlaqələrini belə bərqərar etmək olmur.

**2. Coğrafi məntəqələr:** Zaman keçdikcə qəbilələr irqi ixtilaflarını kənara qoyaraq, yavaş-yavaş bir-birinə qoşulmağa başlayır və daha böyük icmalar təşkil edərək coğrafi məntəqələrlə bir-birindən ayrılırlar. İlkin coğrafi sərhədlər təbii obyektlərlə, məsələn, dərə, çay və yaxud uca bir dağla müəyyən edilirdi. Amma sonralar bunu müqavilələrlə əvəz etməyə başladılar. Hərçənd, hələ də təbii hədlər dünyanın bir çox məntəqələrində coğrafi sərhədliyini ifa edir. Məsələn,

İngiltərəni Fransadan, Çini Yaponiyadan və s. ölkələri bir-birindən ayıran təbii hədlər hələ də əhəmiyyətini itirməyib. Amma, şübhəsiz, hər bir ölkənin sərhəd və ərazilərini təbii hədlər müəyyənləşdirmir.

**3. İdeoloji səbəblər:** İnsanı icmalar ətrafında toplayan baxış, nəhayət, onun üzünə daha geniş üfüqlər açaraq əqidə, təfəkkür tərzi və ideoloji əsasların çevrəsində birləşməyə gətirib çıxartdı. Qərinələr sovuşduqca o, başa düşdü ki, irq, tayfa və s. onların arasında ixtilaf və ayrılıq salmamalıdır. Qanı, kökü və dini bir olanlar bir-birlərinə daha tez uyğunlaşsalar da, bu, heç vaxt onların digər xalqların kənarında yaşamasına mane olmamalı, coğrafi məntəqələr sərhədlər yaratmamalı və əlaqələrin genişlənməsi ilə coğrafi hüdudlar da tam şərti xarakter daşımalıdır.

Bu minvalla irqi-milli vahidlər həddi aşaraq yavaş-yavaş ideoloji vahidlərdə birləşməyə başlayır və iyirminci əsrdə, demək olar, dünyanı iki yerə ayıran kommunist və kapitalist dünyagörüşləri bunun ən real nümunələrindəndir. İlk baxışda bu bölgü və ixtilafın qətiliyi və daimiliyi təsəvvür olunsa da, get-gedə məlum oldu ki, onların da saxta qarşıdurmaları az deyildir. Çünki millətlərin bəzən yaranan fikri-ideoloji ixtilafları onların çoxsaylı müştərək cəhətlərini qıra bilməz və onları həmişə birgə mənafenin ətrafında birləşməyə çağırır. Beləliklə, "birgə yaşama" hissi millətlər arasında ideologiyalarından asılı olmayaraq formalaşmağa başladı və hal-hazırda hamı bunun canlı şahididir. Bununla belə, bəzən bir dövlətin şəxsi mənafeyi və ya onun inkişaf və tərəqqidən geri qalması hələ də bir çox üfüqlərdə onları bir-birindən

ayırır. Lakin bir çox təfriqə və ayrılıq salan amillər tam həqiqi şüura arxalanmır və gələcək nəsillərin dərketmə qabiliyyəti bunları da işıqlandıracaqdır. Məlum fərziyyələr də göstərir ki, bəşəriyyətin vahid icmada birləşməsi ağıldan uzaq deyildir.

## *Ən güclü ictimai ittifaq*

Dünya səviyyəsində böyük beynəlxalq vahid icmanın təşkili bir sıra məsələləri tələb edir:

**1. Əlaqələrin asanlaşdırılması:** Artıq müasir dövrdə bu məsələ öz əksini tapmaq üzrədir. Şübhəsiz, elmi-texnoloji tərəqqi gələcəkdə lazımı üsulları daha da genişləndirəcəkdir.

**2. İdeoloji vəhdət və birlik:** Hər hansı bir ideyaya yekdil etiqadlı olmadan əsl mənada vəhdətdən söz gedə bilməz. "Müştərək cəhətlər" və "birgə mənfəət hissi" müəyyən ortaq fikirlər yaratsa da, şübhəsiz, tərəddüd və şəkk-şübhələri tamamilə aradan qaldırmayacaq və hər hansı həmkarlıq əlaqələri məhdud şəraitdə olacaqdır. Bu da ki, vahid və ideal ittifaq üçün zəmin yaratmır. Amma zehinləri bir yerə toplaya bilən kamil dünyagörüşünə rəğbət yaratmaqla ümumdünyəvi ittifaqa ümid gözü ilə baxmaq olar.

**3. Fikri-əxlaqi tərəqqi:** Əldə olan nəticələr göstərir ki, kütlələr arasında kifayət qədər fikri tərəqqi yaranmadan daha böyük miqyasda, yəni ümumi bəşəri mənafedən söz açmaq çətindir. Hələ hamının razılaşdığı müştərək hədəf və orta məxrəcdən sonra qarşıya çıxan sinfi, milli, coğrafi və s. fərqləri nəzərə almalı, onlara uyğun təfavüt və tələblərə boyun əyməyimiz üçün əxlaqi tərəqqiyə hazır olmalıyıq.

Birinciyə, yəni hamının xeyrinə olan həmkarlığa qoşulmaq asan olduğu təqdirdə, lakin ikinciyə, yəni hər kəsə uyğun fərqli tələblərə dözmək isə çətindir.

**İzah:** Bəşəriyyətin birgə icması mümkün olduğu təqdirdə, əksər problemləri tezliklə həlli yolunu tapacaq və burada anlaşılmaz bir şey yoxdur. Amma əvvəlki vəziyyət davam etdiyi surətdə isə daim onların canlı, maddi və iqtisadi imkanlarının mühüm hissəsi hədər olacaqdır. Belə məqsədlər uğrunda dövlətlərin sərf etdiyi qüvvə və büdcələr bəzən onların illik gəlirinin yarısından çoxunu təşkil edir. Müasir dövrdə qərblə şərq arasında gedən rəqabətin önündə nə kimi qüvvələrin qərar tutduğunu bilmək üçün aşağıdakılara nəzər salmalıyıq:

Geniş miqyasda hərbi qüvvələr, xarici kəşfiyyat və informasiya büroları və onlara tabe olan orqanlar, gömrük dairələri, dövlət sərhədləri qoşunları və qaçaqmalla mübarizə təşkilatları, hərbi sənayenin inkişafı və s. Məlumdur ki, onlara zərurət yaranmadan təşkilinə də heç bir ehtiyac olmayacaq.

Hazırda dünyanın əksər ölkələri dövlət büdcəsinin yarısını hərbi sənayenin inkişafı, xarici kəşfiyyat və dövlətin təhlükəsizliyinə xərc edir. Hələ bu ölçülər dünyada müharibə baş vermədiyi surətdədir. Amma kiçik və ya böyük miqyaslarda (daxili və dünya müharibələri nəticəsində) dövlətlərə dəyən zərərlərin bərpasına xərclənən büdcələr insanı doğrudan da heyrətləndirir.

Bütün bunlara görə, nə böyük məbləğlərdə canlı və maddi enerjinin sərf olunduğu bəşəriyyəti bir-birindən ayırmaqdan başqa bir səmərəsi olmur! Bu,

eynilə iki ticarət mərkəzinin öz sərmayəsinin 50%-ni bir-birinin əleyhinə təbliğata xərcləməsinə bənzəyir. Amma bəşəriyyətin deyilən istiqamətdə vəhdətindən sonra onların asudə yaşayış və rifahı artacaq və bu ideal həyatı təsəvvür etdikdən sonra vəhdət və birliyin əhəmiyyəti öz yerini tapacaqdır.

Bununla belə, şübhəsiz, xalq və millətlər xüsusiyyətləri və adət-ənənələrinə görə fərqlənirlər. Məsələn, zövq və səliqədə, təfəkkür tərzində, istiqanlılıq və ya sərtlikdə, mötədillik və ya tez hissə qapılmada, batini hisslərini izhar edib-etməməkdə, mod və təmtərağa fikir verib-verməməkdə, hətta peşələrə meyillərinə qədər təfavütlər görünür.

Müəyyən təlqin və təlim-tərbiyə insanların inam, düşüncə, duyğu və istəklərində nisbi normallıq yaratmaq mümkün olsa da, yuxarıda qeyd edilən fərqləri nə inkar etmək, nə də tamamilə aradan qaldırmaq olar. Dünyada fizioloji baxımdan bir şəxsin bütün ölçülərdə eyni oxşarı mövcud olmadığı kimi, onun ruhi, fikri və s. xüsusiyyətlərində də bənzərini tapmaq olmaz. Sözsüz, əhval-ruhiyyələr, qərizələr və duyğular arasındakı fərqlər bədən quruluşuna nisbətən çoxdur. Çünki insanın batini və ruhu hələ də anlaşılmazdır. Ümumdünya icmasında sülh və yekdil həmkarlıqla yaşamaq istəyənlər dünyagörüşündə o qədər yüksəlməlidirlər ki, fikri-ruhi və mənəvi-əxlaqi fərqləri dərk etdikdən sonra onları nəzərə ala bilsin, müştərək hədəflərdən kənar məsələlərdə fikir ayrılığı zamanı hər kəsə xas mənafeni düzgün qiymətləndirsin və heç vaxt birinin digərinə tabe olmasına və yaxud şəxsi fikirlərini ona qəbul etdirməyə çalışmasınlar.

Güzəşt, fədakarlıq, alicənablıq, yüksək baxış, səbir və mülayimlik elə ölçülərdir ki, hamının belə fərqli cəhətləri qavrayıb, nəzərə almağa qabiliyyəti çatmalıdır. Bu həqiqəti dərk edib, onunla tam razılaşmadan iki nəfərin uzunmüddətli həmkarlığı qeyri-mümkündür. Məlum fərqləri nəzərə alıb, razılaşmaq üçün hər kəsdə yüksək dünyagörüşü və mənəvi hazırlıq tələb olunur ki, bu da tərbiyə və nəfsin saflaşdırılması ilə mümkündür.

## *İslam və vahid dünya icması*

İslam ilkin zamandan vahid dünya icmasının qurulması üçün təkliflər verib:

**1.** İslam tayfa və qəbilə quruluşunun tam iqtidarla hökm sürdüyü (hətta o zamanın şəhərlərinin belə qəbilə-tayfa prinsiplərinə tabe olduğu) bir dövrdə vücuda gəldiyi surətdə, həmin hakim rejimi tamamilə ictimai durumdan kənarlaşdıraraq dəyər və qiymətdən salır. Məsələn, tayfa və irqçiliyi aradan qaldırmaq üçün onlara başa salınır ki, əgər dərindən fikirləşsəniz, hamı bir kişi və qadından yaranıb. Bu məsələyə Qurani-Kərimdə belə toxunulur:

{يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَىٰ}

***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq!"***[1]

Beləliklə, "insani qardaşlığı" "tayfaçılıq qardaşlığı" ilə, "bəşəri qanı" isə "tayfaçılıq qanı" ilə əvəz etmək lazımdır.

Yaxud onları başqa bir məntiqlə başa salaraq deyir

*1 . "Hücurat" surəsi, ayə 13.*

ki, əsil-nəsəbi qorumaq, tayfa və qəbiləyə, keçmiş ata-babalara mənsubiyyəti qorumaq yaxşı bir iş olsa da, onlarla fəxr etmək yox, bir-birlərini tanımaq məqsədi güdülməlidir.

Şübhəsiz, kütlələr arasında fərdi hüquqların qorunması üçün onların bir-birindən ayırd edilib tanınmasını tələb edir ki, hər kəsin mənsub olduğu ata-babası, qəbilə və tayfası ilə müəyyənləşdirmək olar və bundan doğru yol yoxdur. Demək, əsil-nəsəbin qorunması fəxr yox, yalnız bir-birlərini tanımaq üçün lazımdır. Qurani-Kərimdə bu haqda buyurulur:

{وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا}

***"Biz sizi bir-birinizi ayırd edib tanımaq üçün müxtəlif qəbilə və tayfalara ayırdıq!"***[1]

Bir çox ayələrdə vurğulanır ki, insanı Allah-Taalanın dərgahında ucaldan və dəyərləndirən ruhi-mənəvi səciyyələri – təqva və pəhrizkarlıqlarıdır. Bu isə heç vaxt irsən keçmir. Başqa sözlə, hətta müsbət irsi xüsusiyyətlər belə qeyri-ixtiyari olduğundan insana ucalıq və şəxsiyyət qazandırmır. Qurani-Kərimdə Allah-Taalanın dərgahında uca və əziz olanlar belə tanıtdırılır:

{إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ}

***"Həqiqətən, sizlərdən Allahın yanında ən əziz olanınız təqvalılarınızdır!"***[2]

Demək, İslamda tayfapərəstliyə və ondan doğan ixtilaf və təfriqələrə yer yoxdur.

---

*1 . "Hücurat" surəsi, ayə 13.*

*2 . Yenə orada.*

**2.** İslam hər hansı coğrafi sərhədin əleyhinədir. O, bütün insanları həmkarlığa dəvət edərək daim təfriqə və ayrılığın zərərləri haqda misallar çəkir. Məsələn, biz bunu Qurani-Kərimin bir çox ibarələrində görə bilərik:

a) Qurani-Kərimin əksər xitabları (möminlərə xas xitabları müstəsna etməklə) geniş və ümumi olub, bütün dünya xalqlarına aiddir. Buna bir çox ayələrdə qeyd olunan "ya əyyuhən-nas" ***(ey insanlar)***, "ya ibadi" ***(ey mənim bəndələrim)***, "ya bəni-Adəm" *(ey Adəm övladları)*, "ya əyyuhəl-insan" ***(ey insan)*** kimi təbirləri misal göstərmək olar.[1] Bu ümumi xitablarda bütün dünya ölkələri və xalqları nəzərdə tutulur və onları kiməsə aid etmək olmaz.

b) Qurani-Kərimdə bütün yer üzü Allahın geniş yurdu kimi göstərilərək belə buyurulur:

{يَا عِبَادِيَ الَّذِينَ آمَنُوا إِنَّ أَرْضِي وَاسِعَةٌ فَإِيَّايَ فَاعْبُدُونِ}

***"Ey mənim iman gətirən bəndələrim! Həqiqətən, mənim torpağım genişdir. Belə isə yalnız Mənə ibadət edin (və düşmənlərə təslim olmayın)."***[2]

Başqa bir ayədə göstəriş verilir ki, məhv olan keçmiş xalqların əsər-əlamətlərini görmək, onların zülm və günahlarına görə başlarına gəldiyi bəlalardan

1 . *Məsələn: "Ya Əyyuhən-nasu, inni Rəsulullahi iləykum cəmiən!"* ***(Ey insanlar! Mən Allah tərəfindən sizin hamınıza göndərilmişəm!)*** *("Əraf" surəsi, ayə 158.)*
*"Ya ibadi fəttəqun!"* ***(Ey mənim bəndələrim! Təqvalı olun (əmrimə qarşı çıxmaqdan çəkinin!)*** *("Zümər" surəsi, ayə 16.)*
*"Ya əyyuhəl-insanu, innəkə kadihun ila Rəbbikə kədhən!"* ***(Ey insan, sən səy və zəhmətinlə Rəbbinə doğru gedirsən!)*** *("İnşiqaq" surəsi, ayə 6.)*

2 . *"Ənkəbut" surəsi, ayə 56.*

ibrət dərsi almaq üçün yer üzünü gəzib dolansınlar. Məsələn, aşağıdakı ayədə belə buyurulur:

{فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ}

***"Belə isə yer üzünü seyr edin (gəzib dolanın) və görün ki, yalançıların aqibəti necə oldu!"***[1]

Həmçinin bir ayədə onlar yer üzündə islahat aparıb, fitnə-fəsaddan çəkinməyə dəvət olunaraq buyurulur:

{وَلاَ تُفْسِدُواْ فِي الأَرْضِ بَعْدَ إِصْلاَحِهَا}

***"Yer üzündə onu islah etdikdən sonra fitnə-fəsad törətməyin."***[2]

Başqa bir ayədə isə layiqli, əməlisaleh şəxslər yer üzünün varisləri və nəhayət, onun hakimləri tanıtdırılaraq buyurulur:

{أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ}

***"Mənim layiqli və əməlisaleh bəndələrim yer üzünün varisləri olacaq!"***[3]

c) Müsəlmanlar müəyyən məntəqədə dini vəzifələrini yerinə yetirməyə çətinlik çəkdikləri zaman yer üzünün başqa bir məntəqəsinə hicrət və köç edə bilərlər. Bu işdən boyun qaçıranlar isə məzəmmət olunaraq onlara belə buyurulur:

{قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا}

***"(Mələklər) dedilər: "Allahın torpağı geniş deyilmidi***

---

*1 . "Nəhl" surəsi, ayə 36.*
*2 . "Əraf" surəsi, ayə 56.*
*3 . "Ənbiya" surəsi, ayə 105.*

***ki, siz də hicrət edəydiniz?"***[1]

ç) Qurani-Kərimdə əhkama, maarifə və əxlaqa dair ayələrin heç biri bölgə və məntəqələrə ayrılan ictimai vahidlərə görə ölçüb-biçilmir. Bu isə İslamın o zamandan vahid dünya ictiması, başqa sözlə, beynəlmiləlçiliyin müdafiəsi uğrunda atdığı addımlardır və əsl mənada insan hüquqları üzərində möhkəmlənən məsləkdən başqa bir təvəqqe də yoxdur.

**Diqqət:** İslamda cihada dair məsələlərdə "mürabitə" (sərhədlərin müdafiəsi və düşmənlərin hücumlarına qarşı hazırlıq)[2] adlı taktika gözə dəyir ki, bəziləri bunu İslamın "coğrafi sərhədlər"ə əhəmiyyət verdiyi kimi qələmə alırlar. Amma, məlum olduğu kimi, bu məsələ İslam və müsəlmanların yadlar tərəfindən hücumlarının qarşısını almaq üçün nəzərdə tutulub və İslam dini bütün dünyanı fəth etdikdən sonra bu da öz-özünə ləğv olacaq. Ümumiyyətlə, İslam sərhədlərini coğrafi hüdudlar üzərində deyil, fikri-ideoloji ölçülər əsasında qurub. Bir sözlə, İslam daxilində coğrafi bölgü yoxdur və onu başqalarından ayıran dünyagörüşüdür.

**3.** İslamın şəriət və maarifində bütün insanların ideoloji vəhdət və birliyi üçün geniş imkanlar görünür. İslamın təqdim etdiyi fikri-ideoloji birlik bugünkü dünya siyasətinə və son əsrlərdə baş qaldıran insan hüquqları normalarına xas müəyyən bir təbəqə və cəmiyyət, millət və irqin mənafeyinə xidmət etmir. Bu, İslam üçün böyük imtiyaz sayılır və onda məntəqə və sinfi təbəqə deyilən şey yoxdur.

Hazırda dünyanın əksər siyasi blokları və onlara

---

*1 . "Nisa" surəsi, ayə 97.*

*2 . "Cəvahirül-kəlam", "cihad" bölümü.*

bağlı fəlsəfi məktəblər zahirdə beynəlxalq hüquqlar çərçivəsində birləşsələr də, onların əsl simaları məram və ideyalarında xarakterizə olunur və bu da həqiqi mənada vəhdəti ifadə etməyə qadir deyildir. Hətta o zaman "faşizm", yaxud indi təhlükəli "beynəlxalq sionizm" təşkilatı zahirdə özünü insan hüquqlarının müdafiəçisi göstərsə də, həqiqətdə şəxsi mənafedən başqa məqsəd güdmür. İstər "nasizm"in, istərsə də "sionizm"in əsasını nasionalizm təşkil edir. Hətta sovetlər ittifaqı dünyamiqyaslı beynəlmiləlçilikdən dəm vursa da, hal-hazırda hansı bir məntəqə və ölkənin mənafeyini qoruduqlarını gizlətmir. Bütün bunlar sovetyönlü ölkələrin hər birində aydın müşahidə olunur. Təbiidir ki, onların da ümumbəşəri ideyalarında müəyyən qrup nəzərdə tutulur. Onlar iddia edirlər ki, bütün təbəqə və sərhədlər götürülməli və yekdil dünya icması yaranmalıdır. Lakin bu tədbir gerçəkləşməyincə (indiyə qədər mümkün olmayıb və mövcud vəziyyət göstərir ki, gələcəyə də ümid yoxdur), həqiqətdə "müəyyən xalq"ın mənafeyini qoruyacaq.

Bizim hal-hazırda hər hansı məktəb və beynəlxalq təşkilatın əsasları ilə işimiz yoxdur. Məqsəd budur ki, onların hamısındakı müəyyən ciddi qüsurlara görə, hələ də millətlər və irqlər arasında ümumbəşəri fikri-ideoloji yekdillik yaranmayıb. Lakin İslam irəli sürdüyü fikri-ideoloji birliyin çevrəsində ardıcılları ilə bərabər bütün millət və kütlələri toplamağa qadirdir. Bununla belə, İslam daxilində azlıq təşkil edən ilahi məzhəb ardıcıllarının hüquq və mənafelərini müdafiə edən hüdudlar vardır ki, dini mənbələrimizdə bu haqda geniş məlumat verilib.

## *Vəhdət yaradan baxış*

Biz bu böyük hədəf üçün İslam maarifi və təlimlərində aşılanan yollara nəzər salmaq istəyirik:

İslamın əsasını təşkil edən "tövhid" prinsipi fikir və ideyaları bir-birinə qarşı qoyan, daim kütlələr arasında təfriqə salan "ərbabun mütəfərriqun" (çoxsaylı tanrılar) nəzərini tamamilə məhkum edir və öz ardıcıllarına hətta Allahın zat və sifətlərində belə sayın mümkün olmadığını öyrədir. Onun zatı bəsit, sifətləri də bir-birinin eynidir.

Bildiyimiz kimi, tanrılara etiqad məsələsi qədim zamanlardan belə qövmlər arasında ixtilaf və təfriqə yaradan amillərdən biri olmuşdur. Hər qövm, millət və tayfanın, bəzən də hər bir şəhərin öz "tanrı"sı, yaxud "tanrılar"ı var imiş ki, bir tayfanın başqa bir tayfaya qalib gəlməsi ilə onların tanrıları da ucalır, rəsmiləşir, məğlub olduqda isə unudulurmuş! Alber Male "xaldeyalı"ların dini-məzhəbi əqidələri ilə bağlı bir fəsildə yazır: "Əvvəllər "xald" xalqı arasında da Misir kimi hər şəhərin özünəməxsus tanrısı var idi. Böyük dövlətlər qurulduqdan sonra şəhərlərdə tanrılara pərəstiş ümumiləşərək, paytaxtın tanrısı "rəbbül-ərbab" (tanrılar tanrısı) adlanır. Məsələn, Homorabinin[1] dövründə Babil Xaldeyanın paytaxtı olduğundan "marduk" oranın "tanrılar tanrı"sı kimi tanınır. Yaxud Aşur dövlətinin paytaxtı əvvəllər Aşur şəhəri olduğu üçün oranın tanrısı "Aşur" da əhali üçün "tanrılar tanrısı"na çevrilir."[2]

---

*1 . Homorabi – böyük fəthlər və ondan yadigar qalan qəribə qanunlara görə məşhur bir padşahdır.*

*2 . "Şərq millətlərinin tarixi", 1-ci cild, səh.81.*

Misirlilərin etiqadları haqda belə yazılır: "...Bütün Misirdə əhali yalnız neçə tanrıya pərəstiş etmirdi. Əksinə, hər şəhərin ayrıca tanrıları var idi. Bununla belə, bir vaxt gəlib çatdı ki, bəzi tanrılara pərəstiş Misirin hər yerində (əlbəttə, yalnız Misirdə) yayılır. Hətta şəhərlərin böyüməsi və əhəmiyyəti ilə əlaqədar tanrılarının məqam və şəni də artır, ucalırmış."[1]

İslamın işıq saçdığı məntəqə – Hicaz vilayəti, xüsusilə Məkkə şəhəri tanrıların sayına görə seçilirmiş və bu da bütün ictimai-ideoloji ixtilaf və təfriqələrin qaynağı idi. İslam isə parlaq təlimləri və dolğun maarifi ilə buna son qoyaraq bütün müsəlmanların dilinə "tövhid" və "la ilahə illəllah" şüarını saldı və onların diqqətini tək Allaha yönəltdi. Qurani-Kərimə görə, Allah-Taala nəinki yer kürəsində, həm də bütün yaradılış və varlıq aləminin yeganə məbududur. Aşağıdakı ayədə belə buyurulur:

{وَهُوَ الَّذِي فِي السَّمَاء إِلَهٌ وَفِي الْأَرْضِ إِلَهٌ}

***"Göydə də Allah, yerdə də Allah Odur!"***[2]

Başqa bir ayədə belə buyurulur:

{إِن كُلُّ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ إِلَّا آتِي الرَّحْمَنِ عَبْدًا}

***"Göylərdə və yerdə olanların hər biri hökmən Allahın hüzuruna bir bəndə gələcək."***[3]

İslam öz təlimlərində "tövhid"in bütün yaradılış aləminə hakim kəsildiyi göstərilərək, kainatın yeganə varlıqdan qaynaqlandığı fikri irəli sürülür. Qurani-

*1 . Yenə orada, səh.41.*
*2 . "Zuxruf" surəsi, ayə 84.*
*3 . "Məryəm" surəsi, ayə 93.*

Kərimdə bu haqda belə buyurulur:

{الَّذِي خَلَقَ سَبْعَ سَمَاوَاتٍ طِبَاقًا مَّا تَرَى فِي خَلْقِ الرَّحْمَنِ مِن تَفَاوُتٍ فَارْجِعِ الْبَصَرَ هَلْ تَرَى مِن فُطُورٍ}

***"Sən Rəhmanın yaratdığında heç bir eyib və təzad görməzsən (bütünlüklə vahid nizam və sabit qayda-qanunlardan ibarətdir). Yenidən gözünü qaldırıb bax (bütün mövcudat və məxluqatı diqqətlə ara), heç orada bir yarıq, çatdaq görə bilərsənmi?"*** [1]

Həmçinin bütün canlı varlıqların bir qaynaqdan baş qaldırdığı haqda belə buyurulur:

{مِنَ الْمَاء كُلَّ شَيْءٍ حَيٍّ}

***"Hər bir diri şeyi (canlını) sudan yaratdıq."*** [2]

İslam burada şirkin və müxtəlif tanrılara etiqadın köklərindən başqa birisini də qırır. Çünki bu etiqada görə, varlıqlar arasında növlər bir-birindən tam ayrı və onları yaradan qüvvələr müstəqil xaliq və "müdəbbir"lərə bölünürdü. İslama əsasən, dünyanın yaradanı və rəbbi də ondan ayrı deyil; yəni xilqətdən ayrı olmadığı halda, onlarla eyniyyət təşkil etmir. Qurani-Kərimdə bu haqda belə buyurulur:

{وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنكُمْ وَلَكِن لَّا تُبْصِرُونَ}

***"Biz sizə ondan daha yaxınıq, lakin siz bunu görmürsünüz!"*** [3]

Başqa bir ayədə buyurulur:

---

*1 . "Mülk" surəsi, ayə 3.*
*2 . "Ənbiya" surəsi, ayə 30.*
*3 . "Vaqiə" surəsi, ayə 85.*

{وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ}

***"Biz ona ürəyinin damarından daha yaxınıq."***[1]

İmam Əli (ə) "Nəhcül-bəlağə"də belə buyurur:

مَعَ كُلِّ شَيْءٍ لا بِمُقارَنَةٍ وَغَيْرُ كُلِّ شَيْءٍ لا بِمُزايَلَةٍ

*"O, hər şeylə birgədir, lakin yaxınlıq və məsafə ilə yox, hər şeydən fərqlidir, lakin ayrı deyildir." (Yaxud: "Hər şeyə məsafəsiz yaxındır, hər şeydən ayrılmadan ayrıdır!")*[2]

## *İslamda birliyin rəmzi*

İslam təlimlərində vəhdət və birlik ideyası onun əsasını təşkil edən yalnız "tövhid" prinsipindən qaynaqlanmır. Bunu biz bütün peyğəmbərlərin və səmavi kitabların çağırışında müşahidə edə bilərik. Məsələn, İslamın qanun və hökmlərindəki obyektivlik və onun müraciətlərindəki qeyd-şərtsiz insan obrazı tamamilə bəhsimizə aydınlıq gətirir. Hətta ibadətlərdəki formulu araşdıranda görürük ki, onlar yalnız insanı oyadır, təfəkkürə çağırır. Onun inzibat və tərbiyəsində, sadəliyə sövqü və nəfsi istəklərini cilovlamasında mühüm rol oynayır. Demək, İslamın ibadətlər bölümü də vahid məqsədə qulluq edir və onların bir dildə (ərəbcə) yerinə yetirilməsi də vəhdət və birliyin nişanəsidir. Burada ərəb dili elə də əhəmiyyət daşımır və birbaşa deməliyik ki, bu dil "vəhy" dilidir. (Ərəb dilinin vəhy üçün seçilməsinin onun inkişafı, potensiallığı və s. səbəbləri ola bilər.)

İslamda birliyi nümayiş etdirən nümunələr çoxdur. Bunu biz camaatla birgə yerinə yetirilən ibadətlərdə,

1 . *"Qaf" surəsi, ayə 16.*

2 . *"Nəhcül-bəlağə", xütbə: 1.*

o cümlədən, onun ən ali formasını "həcc" mövsümü zamanı müşahidə edə bilərik. Cismən və ruhən bir-birlərindən minlərlə fərsəx fasiləsi olan müxtəlif millətlərin nümayəndələri bir məkana yığışıb, düşüncə və şüarlarında vəhdət təşkil edirlər. Yaradılış aləminə hakim kəsilən yeganə nizamın simasında cilvələnən bu izdihamın xüsusi şövkət və əzəməti vardır. Həqiqətdə, İslam ruhən varlıq və yaradılış aləmi ilə həmahəngdir. Əgər fərzi olaraq bir anlıq səmadan camaat namazlarının sıralarına nəzər salınsa, onların bir-birini əhatə edən dairələrini bir mərkəzə yönəlmiş surətdə, kamil vəhdətin nişanəsi kimi müşahidə edəcəyik. Hətta İslam bir sıra ölçüləri belə mümkün qədər – hər hansı tayfa və irqə mənsub olmayan təbii parametrlərdən almış, "addım", "qarış", "ovucun içi" kimi hamının qavradığı terminlərlə üstünlük verilmişdir. İslamda aylar və illər ay və günəşin dövranı (daha düzgün desək, yerin günəş oxu ətrafında fırlanması) əsasında müəyyənləşir və bunu hamı bərabər dərk edir. Hətta məntəqələr üzrə yaranan fərqlər də üfüqlərlə əlaqədar olub, əsl hesaba xələl gətirmir. Amma bəzən özlərini "məzhəb" adlandıranlar həm ayın günlərini on doqquz gün, həm ayların sayını on doqquz hesablayaraq elə təqvim qondarmışlar ki, nə təbii miqyaslarla uyğun gəlir, nə də dəqiq hesablamalarsız istifadəsi mümkündür.

### *1. Əxlaqi təkamül*

Adətən, tez unudulan məsələlərdən biri də əxlaq normalarına riayətdir və onsuz heç bir cəmiyyət rahatlıq üzü görməyəcəkdir. Qeyd etdiyimiz kimi, bütün dünyanı əhatə edən böyükmiqyaslı icmanın təşkili

üçün fikri-ideoloji inkişafdan əlavə, əxlaqi inkişafa da ehtiyac var. Əxlaqi inkişafsız heç kəs digərinin bütün fikir və rəftarları ilə həmişə razılaşa və çox vaxt qarşıya çıxan müxtəlif fikir ayrılıqlarını layiqincə həll edə bilməz. Bu qismin əhəmiyyəti peyğəmbərlərin təlimlərinə ehtiyacı bir daha artırır. Çünki yerində dediyimiz kimi, imandan qaynaqlanan əxlaqi zəmanət və ilahi etiqadsız digər klassik normalarda möhkəm dayaq yeri tapmaq çətindir və bir sıra qeyri-zəruri, çox da lazım olmayan tövsiyələri qabartmaqdan başqa bir şey gözə dəymir.

İslam insanda ictimai əxlaqın formalaşması, kütləvi həyata hazırlığı üçün əsaslı təlim və proqramlar nəzərdə tutur ki, aşağıda onların bir hissəsini qeyd edəcəyik. Məsələn,

“لَو عَلِمَ الناسُ كَيْفَ خَلَقَ اللهُ هذا الخَلْقَ لَمْ يَلُمْ اَحَدٌ اَحَداً”

*(Əgər insanlar Allahın bu məxluqu necə yaratdığını bilsəydilər, heç kim digərini pisləməzdi!)*[1] və

“اَلناسُ مَعادِنٌ كَمَعادِنِ الذّهَبِ وَالْفِضَّةِ”

*(İnsanlar qızıl-gümüş mədənləri kimidir!)*[2] məşhur hədisləri xilqətdə olan fərqlərə, onların cismi və ruhi müxtəlifliklərinə toxunur.

İnsanların ruhi-psixoloji, milli-irqi və dünyagörüşlərindəki hədsiz fərqləri düzgün qavradıqdan sonra onların rəftarlarındakı bir çox zahiri problemlər, ictimai təzadlar aradan qalxacaqdır. Məsələn, çox vaxt valideynlər uşağın (bir qabı sındırması, yaxud

1 . *“Biharul-ənvar”, 70-ci cild, səh.143, hədis: 7.*
2 . *“Kafi” 8-ci cild, səh.177.*

geyimlərini çirkləndirməsi kimi) təbii işinə görə bərk narahat olur, bəzən onu ağır cəzalarla tənbeh edərək, hətta döyürlər. Halbuki belə işlərə görə, nə əsəbiləşmək, nə də uşağı danlayıb-döymək lazımdır.

Adətən, uşaqların qabların əhəmiyyəti, onların yerə düşdükdə sınıb-sınmama ehtimalı haqda kifayət qədər məlumatı olmur, yaxud bütün bunları bildiyi təqdirdə, onlarda tam psixoloji hazırlıq hələ yaranmayıb, yaxud da acizlikləri ucbatından baş verir.

Əgər biz özümüz də hal-hazırda onları qoruyub-saxlayırıqsa, uşaqlıq çağlarımızdakı sınaq və təcrübələrimiz sayəsindədir. Çünki uşaqlıq çağları başdan-başa sınaq və insanın ətraf mühitlə tanışlığı üçün ən gözəl dövrdür. Belə ki, əgər özümüzü uşağın yerinə qoysaq, onun bizim nəzərimizə böyük günah və xəta görünən işləri nə günahdır, nə də xəta! Bu təcrübəni böyüklər üzərində də apara bilərik. Məsələn, çox vaxt dostlar bir sıra bəyənilməz adətlərinə görə dostluqlarını qırmağa məcbur olurlar. Lakin onların hər biri digərinin əhval-ruhiyyəsindən, yaşadığı və tərbiyə gördüyü mühitdən xəbərdar olsaydı, ondakı nöqsanları təbii qarşılayardı. Yaxud qonşunun ucadan danışığı bizi narahat edir və onun səviyyəsi, hansı mühitdə böyüyüb yaşa dolması və tərbiyəsini nəzərə aldıqda, elə də müqəssir görünməyəcək. Yəni xəta və səhvlərini həddən artıq böyütməyəcəyik. Amma burada səhvə yol verilməsin. Biz bununla ("cəbrilər" kimi) hər kəsin əməllərində xətasız olduğunu demək və hər şeyi qeyri-ixtiyari və xarici amillərin üstünə atmaq və ya tərbiyənin zəruriliyini inkar etmək istəmirik. Bu o demək deyil ki, insanlar özbaşına olub, istədikləri kimi rəftar edə bilərlər.

Əksinə, insan belə halları nəzərə almaqla yaranan ixtilaf və etirazların həlli üçün hazırlıq tapır, ətrafında baş verənləri asanlıqla qarşılayır. Təəssüf ki, insanlar kiçik fikirayrılığı nəticəsində bəzən bir-birindən küsür, çox sadə anlaşılmazlıqları həll edə bilmirlər.

### *2. Əfv və güzəşt*

Gündəlik qarşılaşdığımız hadisələr içrə səhv və xətadan insanların haqlarının pozulması halları daha çox təsadüf olunur. Əgər hər kəs "intiqam" almaq fikrinə düşsəydi, ictimai durumu saxlamaq qeyri-mümkün olardı. Çünki insanın istənilən vaxt intiqam hissini idarə edib, normal saxlaması çətin məsələdir və adətən, getdikcə şiddətli forma alır. Hətta onun idarə olunub normal vəziyyətdə saxlandığı təqdirdə belə, yenə cani ilə cinayətə məruz qalanın ilk əvvəl baş verən cinayət hadisəsinə baxışı eyni cür olmur. Məsələn, qarşı tərəf hətta insafla intiqam almağa çalışsa belə, yenə onun baxışında ədalət bərpa olunmamış görünür və buna görə də onu yeni bir qisasa sövq etdikcə, ixtilaf və çəkişmələr də uzanır. Keçmişdə və indinin özündə davam edən əksər qəbilə-tayfa ixtilaflarının səbəbi məhz həmin məsələdir. Yəni hər kəs başqasının cinayətini ağır cinayətlə cavablandırdıqca, dava-dalaşlar da sona çatmır. Burada fitnə odunu söndürə bilən yeganə amil güzəşt, əfv və hər hansı qarşıdurmadan çəkinməkdir.

Qeyd edək ki, əfv və güzəşt ixtilaf və ədavətə son qoymaqla bərabər şəxsin özünə insani-əxlaqi bir keyfiyyət kimi faydalı olub, gələcəkdə onu məruz qala biləcəyi bir çox zərər və zədələrdən uzaqlaşdırır, rahat edir. Əgər düzgün araşdırsaq, görəcəyik ki, qisas

və intiqamın insana müvəqqəti təskinlik və xəyali qürurdan başqa heç bir müsbət təsiri yoxdur. İnsan həmişə qarşı tərəfin qisasının intizarını çəkdiyi halda, "güzəşt"in bəxş etdiyi rahatlıq qat-qat çox, ruhi və ictimai təsiri olduqca əhəmiyyətlidir.

İslam mənbələrində bu məsələ çox zərif ibarələrlə ən mühüm dini vəzifə kimi tanıtdırılır. Aşağıdakı nümunələr bu müddəaya şahiddir:

{وَلْيَعْفُوا وَلْيَصْفَحُوا أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ اللَّهُ لَكُمْ}

1. ***"Onları əfv edib, göz yumsunlar. Məgər siz Allahdan bağışlamağınızı istəmirsinizmi?"***[1]

Bu ayədən məlum olur ki, heç kəs təqsirsiz deyil. Əgər Allahdan günahlarınızın bağışlamasını istəyirsinizsə, din qardaşlarınızla yaranan ixtilaf və çəkişmələrdə haqqınızdan keçib, güzəştə gedin. Diqqəti cəlb edən budur ki, ayədə qeyd olunan "əfv" və "səfh" (göz yummaq) sözləri lüğəvi baxımdan fərqlənir. "Səfh", "əfv"dən daha dərin məna kəsb edir, yəni məzəmmət və qınaqsız güzəştə deyilir.[2] Amma qisası sinəsində boğub, lakin dili, yaxud küsülü qalması ilə qarşı tərəfin təqsirini daim xatırladan kəs həqiqətdə onu bağışlamamışdır. Əslində, həqiqi əfv və güzəşt hadisəni tamamilə unutmaq, öz dilimizlə desək, ona göz yummaqdır.

{وَيَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلِ الْعَفْوَ}

2. ***"(Ya Peyğəmbər!) Səndən infaq barəsində***

*1 . "Nur" surəsi, ayə 22.*
*2 ."Müfrədat", Rağib İsfahani.*

***soruşanlara de: "Əfv (etsinlər)!"***[1]

Təfsir alimləri arasında məşhur nəzərə görə, qeyd olunan "əfv" sözündə məqsəd ailənin ehtiyacından əlavə, illik gəlirdən artıq qalan malın zahirən Allah yolunda xərclənməsi olsa da (lüğəvi kökünə əsasən), heç də demək olmaz ki, onun digər işlək mənası (güzəşt) nəzərə alınmamışdır. Maddi infaq barədə verilən sualın cavabının əxlaqi infaqa – əfv və güzəştə yönəldilməsi diqqəti cəlb edən zərif məsələdir. Odur ki, infaq yalnız mal-dövlət və əmlakla bitmir və bəlkə də bu qədər sorğu-suala ehtiyac yoxdur. Əksinə, insanın başqası ilə əlaqədar öz hüquqlarından keçməsi və güzəşti daha mühüm məsələdir. Doğrusu, bu güzəşt çoxlarının qisas ruhiyyəsilə zidd olduğundan, onunla razılaşmaq daha çətin olur. Amma ictimai nizam-intizamın, ədalətin bərqərarı baxımından isə onun təsiri olduqca çoxdur.

Yeri gəlmişkən, Qurani-Kərimdə bir sualın cavabının başqa bir mətləblə verilməsi az müşahidə olunmur. Bu özü də Quranın bir çox məsələlərə diqqət yetirməsindən irəli gəlir. Belə ki, bəzən, verilən sualların cavablarından kənar çıxaraq qarşı tərəfin mövqeyini nəzərə alır, onun zəruri ehtiyaclarını xatırladaraq əsaslı cavablarla yola salır. Məsələn, bir zaman günlər keçdikcə ayın şəklinin dəyişilməsinin səbəbi ilə əlaqədar verilən sualın cavabını onun fayda və nəticələrilə ifadə edir:

{يَسْأَلُونَكَ عَنِ الأهِلَّةِ قُلْ هِيَ مَوَاقِيتُ لِلنَّاسِ وَالْحَجِّ}

***(Ya Peyğəmbər!) Səndən yeni doğan aylar (hilal) barəsində sual edənlərə de ki, bunlar insanların***

1 . "Bəqərə" surəsi, ayə 219.

*həyatında vaxtların və həccin təyini üçün ölçülərdir."*[1]

3. İslam Peyğəmbəri (s) buyurur:

ثَلاثٌ وَالّذي نَفْسِي بِيَدِهِ لَوْ كُنْتُ حَلاّفاً لَحَلَفْتُ عَلَيْهِنَّ: ما نَقَصَ مالٌ مِنْ صَدَقَةٍ فَتَصَدَّقُوا؛ وَ لا عَفا رَجُلٌ مَظْلَمَةً يَبْتَغِي بِها وَجْهَ اللهِ اِلّا زادَهُ اللهُ بِها عِزّاً يَوْمَ الْقِيامَةِ؛ وَ لا فَتَحَ رَجُلٌ عَلى نَفْسِهِ بابَ مَسْأَلَةٍ اِلّا فَتَحَ اللهُ عَلَيْهِ بابَ فَقْرٍ

*"Canım əlində olan Allaha and olsun! Üç şey vardır ki, əgər and içməli olsaydım, onlara and içərdim: 1. Sədəqə verməklə heç vaxt mal-dövlət azalmaz, belə isə sədəqə verin; 2. Allahın razılığını qazanmaq üçün hər hansı zülm və cəfanı bağışlayanın Allah-Taala qiyamət günü izzətini artırar; 3. Hər kəsə əl açanın da üzünə Allah yoxsulluq qapısını açar!"*[2]

4. İslam Peyğəmbəri (s) buyurur:

عَلَيْكُمْ بِالْعَفْوِ فَاِنَّ الْعَفْوَ لا يَزِيدُ الْعَبْدَ اِلّا عِزّاً فَتَعافَوْا يُعِزُّكُمُ اللهُ

*"Əfv və bağışlamağı unutmayın ki, əfv insanı ucaldar. Belə isə bir-dirinizi bağışlayın ki, Allah da sizə izzət və ucalıq bəxş etsin."*[3]

5. İmam Baqir (ə) buyurur:

اَلنَّدامَةُ عَلَى الْعَفْوِ اَفْضَلُ وَ اَيْسَرُ مِنَ النَّدامَةِ عَلَى الْعُقُوبَةِ

*"Əfv və güzəştə (onu yerinə yetirməməzliyə) görə peşmançılıq qisas almamazlığa görə peşmançılıqdan daha*

---

1 . *"Bəqərə" surəsi, ayə 189.*

2 . *"Ehyaül-ülum", Qəzali, 3-cü cild, səh.182. Bu hədisi sünnilərin altı "Səhih" kitablarının müəlliflərindən bəzisi də nəql etmişlər.*

3 . *"Kafi", 2-ci cild, səh.108.*

*üstün, daha asandır."*[1]

6. İmam Rza (ə) buyurur:

مَا الْتَقَتْ فِئَتانِ قَطُّ اِلّا نُصِرَ اَعْظَمُهُما عَفْواً

*"Bir-birinə qarşı duran hər hansı iki dəstədən ən çox güzəştə gedənə hökmən (Allah tərəfindən) yardım olunar."*[2]

Göründüyü kimi, bu hədislərdə "qələbə" əfv və güzəştin qəti təsirlərindən biri kimi tanıtdırılır. Bu ona görədir ki, adətən, qisas və sair əvəzçıxma halları instinktiv hisslərdən qaynaqlanır. Məhz onun qatı surəti heyvanlarda daha çox görünür. Lakin əfv və güzəşt isə şəxsiyyət nişanəsi, bir növ nəfsə hakimlik və ruhi ucalıqdır və bu xassə qəzəb və qisas kimi hisslərin yandırıcı şöləsini öz şüaları altına ala bilir. Deməк, əfv və güzəşt artdıqca, insanların da dəyər-qiyməti yüksəlir, başı ucalır. Birdə ki, hər zaman əvəz çıxmaqla camaat arasında hörmət qazanmaq, ürəklərdə yer salmaq mümkün deyildir. Halbuki əfv və güzəştin xalqın rəğbətini, hiss və duyğularını cəlb etməkdə dərin təsiri vardır. Bunların isə qələbə amili kimi göstərilməsi təsadüfi deyil.

### *3. Pisliyi yaxşılıqla ödəmək*

İslam mənbələrində – Qurani-Kərimdə və hədislərdə əfv və güzəştin ən yüksək həddi olan "pisliyi yaxşılıqla cavablandırmaq" məsələsi diqqəti cəlb edir. Şübhəsiz, bu, insanlığın ən uca zirvəsi olub, əxlaqi inkişafsız mümkün deyildir. Eləcə də, ədavət və kin-küdurətlə dolu qəlbləri yumşaltmaqda təsiri

---

*1 . Yenə orada.*

*2 . Yenə orada.*

misilsizdir və həddi aşanlara, günahkarlara verilə bilən ən yaxşı “dərs”, bəzən də ən tutarlı cəza, həm də onları cilovlayan amildir. Bütün bu – ədavət, düşmənçilik və kin-küdurətlərə son qoymaq kimi təsirli xassələrinə görə, İslam onu əlverişli metod sanır. Məsələn, Qurani-Kərimdə buyurulur:

**{ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ فَإِذَا الَّذِي بَيْنَكَ وَبَيْنَهُ عَدَاوَةٌ كَأَنَّهُ وَلِيٌّ حَمِيمٌ وَمَا يُلَقَّاهَا إِلَّا الَّذِينَ صَبَرُوا وَمَا يُلَقَّاهَا إِلَّا ذُو حَظٍّ عَظِيمٍ}**

***“Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda, aranızda düşmənçilik olan şəxsi, sanki, səmimi dost görərsən. Buna (bu məqama) yalnız səbir edənlər yiyələnər və yalnız böyük bəhrə (iman və təqva) sahibləri nail olarlar!”***[1]

Birinci ayədə pisliyi yaxşılıqla ödəməyin qəribə təsirindən, onun sayəsində düşmənin səmimi və yaxın dosta çevrilməsindən, sonrakı ayədə isə bu dərəcəyə yalnız iman, təqva, əxlaq və fəzilət sahibləri, nəfsani istəklər müqabilində səbir edib, dözənlərin nail ola bilməsindən söz açılır ki, bunların hər ikisi inkaredilməz bir həqiqətdir. Pisliyi yaxşılıqla ödəməyin qəribə təsiri haqda bunu demək olar ki, adətən, həddi aşanlar qarşı tərəfin nahiyəsindən qisas intizarını çəkir və çox güman ki, vicdanında bunu özünə layiq bilirlər. Lakin onların (qarşı tərəfdən gözlənilən) cəza intizarına əks olaraq pisliyi yaxşılıqla verildikdə, yatmış vicdanları oyanır, daxillərində dərin iz buraxır. Belə hallarda onlar qarşı tərəfi günahsız, özlərini isə günahkar hesab edərək, tutduqları işdən bərk peşman olurlar. Bəzən

*1 . “Fussilət” surəsi, ayə 34-35.*

bu təzyiq o qədər şiddətli olur ki, kimsə ona davam gətirib, ədavət hissindən dönməyə bilmir. Buna görə də, bəzən insanın düşməni belə tutduğu yolu dəyişir, təsirlənir.

Peyğəmbəri-Əkrəm (s) və haqq imamlarından nəql olunan dərin ifadələrdə bu səciyyə ən yüksək insani sifət kimi göstərilir.

1. Peyğəmbəri-Əkrəm (s) buyurur:

**اَلا اُخْبِرُكُمْ بِخَيْرِ خَلائِقِ الدُّنْيا وَ الْآخِرَةِ؟ اَلْعَفْوُ عَمَّنْ ظَلَمَكَ، وَ تَصِلُ مَنْ قَطَعَكَ، وَالْاِحْسانُ اِلى مَنْ اَساءَ اِلَيْكَ، وَاِعْطاءُ مَنْ حَرَمَكَ**

*"Sizə dünya və axirətin xeyrindən xəbər verimmi? – Sənə zülm edəni bağışla, səninlə əlaqəni qıranla əlaqəni kəsmə, sənə pislik edənə yaxşılıq et və səni məhrum edənə də bəxşiş et!"*[1]

Peyğəmbəri-Əkrəmin (s) müsəlmanlara buyurduğu bu hədisə əsasən, dünya və axirəti təmin edən ən yaxşı əxlaq güzəşt və pisliyə qarşı yaxşılıqdır. Hədisdə qeyd olunan dörd buyruqdan üçü pisliyi yaxşılıqla ödəməyə, biri isə əfv və güzəştə aiddir.

2. İmam Baqirdən (ə) belə nəql olunur:

**ثَلاثٌ لا يَزِيدُ اللهُ بِهِنَّ الْمَرْءَ الْمُسْلِمَ اِلّا عِزّاً: الصَّفْحُ عَمَّنْ ظَلَمَهُ، وَاِعْطاءُ مَنْ حَرَمَهُ، وَالصِّلَةُ لِمَنْ قَطَعَهُ**

*"Üç şey müsəlmana yalnız izzət və başıucalıq gətirər: Ona zülm edəni bağışlamaq, onu məhrum edəndən bəxşişi əsirgəməmək və onunla əlaqəsini qıranla əlaqəni pozmamaqdır."*[2]

1 . *"Biharul-ənvar", 71-ci cild, səh.399.*

2 . *"Biharul-ənvar", 71-ci cild, səh.403.*

Bu hədisdə də üç şey bəndənin izzətini artıranların sırasında göstərilir və onun ikisi pisliyə yaxşılıqla cavab verməyə, biri isə əfv və güzəştə aiddir. Əlbəttə, zülmkar düşmənin müqabilində əfv və güzəştin mənası yoxdur. Burada təslim olmaq gücsüzlük, şəxsiyyətsizlik, zillət və bədbəxtlik, güzəşt isə başıucalıq və şəxsiyyət nişanəsidir. Əfv və güzəşt ictimai-hüquqi məsələlərə deyil, fərdin şəxsi mülkiyyət və hüdudlarına aiddir. Amma şəxsi məsələ və fərdi hüquqlarda güzəşt qarşı tərəfin cürətini artırarsa, belə hallarda güzəştə yer yoxdur.

## *4. Sərtliyi tərk etmək*

İctimai aləmdə, xüsusilə, beynəlxalq problemlərin həllində sərtliyə əl atmağın ağır zərərləri, belə çəkişmələrin təhlükəli və acı nəticələri hamıya məlum məsələdir. Bunlar ürəklərdə ədavət və kin-küdurət hissini oyadır, intiqam atəşini şöləndirir. Sərtlik nəinki böhran və çətinlikləri azaltmır, əksinə, çox vaxt onları şiddətləndirir, artırır və bir çox gərginliklər elə oradan qaynaqlanır. Onun xeyrindən çox zərəri vardır və belələri ona görə həmişə ağır cərimələr ödəməli olurlar. Lakin bu əməlin bütün nöqsan, təhlükələri və acınacaqlı aqibətini anladığımız halda çoxlarımız hər hansı çətinliyi aradan qaldırmaq üçün onu ilkin yol görürük. Deməliyik ki, sülhməramlı yollardan istifadə və sərtlikdən uzaqlaşma şüurun, sərtlik isə hiss və həyəcanın əlamətlərindəndir. Bunu da bilirik ki, şüurun inkişafı insani təkamülün son mərhələsi, hiss və həyəcanın dövranı isə ondan çox geridir. Həqiqətdə insanların əksəriyyəti hiss və duyğular içində yaşayır və həmişə onun təsirinə məruz

qalırlar. Uşaqlıq çağları duyğuların inkişaf dövrü olsa da, mövcud insanın üzərində aparılan sosioloji araşdırmalar göstərir ki, (yuxarıda qeyd olunduğu kimi) onların çoxu psixoloji baxımdan uşaqlıq dövrünü ötüb keçə bilmir və çox vaxt böyüklərin sərtlik, zor və həddiaşma halları həmin çatışmazlığın əlamətləridir. İlk baxışda çoxları belə halları təbii, məqsədəuyğun saysa da, problemlərin həlli baxımından onların dəyər və yeri tam arxa plana düşür və insanın üzünə hər bir ağıllı məsləhət və üsulun bağlandığı təqdirdə, həmin reaksiyalara icazə verilir. Bildirməliyik ki, yenilməz şəxs, yaxud xalq isə ictimai problemlərini aradan qaldırmaq üçün hər yerdə sərtliyə zərurət görmür. Onların çoxunu sülh yolu, məsləhət və götür-qoyla həll etmək mümkündür.

İslam bu məsələyə yüksək əhəmiyyət verərək bəşərin həyatında sülh, dostluq və mehribanlığın rolu barədə faydalı təkliflər irəli sürür, ardıcıllarını da həmin ideya uğrunda yaşamağa çağırır. Hədislərdə sülh və dostluğa dair tövsiyələr ayrıca bir fəsli təşkil edir və bu məsələ ilə bağlı İslamın nəzərini bilmək üçün bir neçə hədisi qeyd edirik:

1. Peyğəmbəri-Əkrəm (s) buyurur:

اِنَّ فِي الرِّفْقِ الزِّيادَةَ وَالْبَرَكَةَ وَمَنْ يُحْرَمُ الرِّفْقَ يُحْرَمُ الْخَيْرَ

*"Dostluq və mehribanlıqda vüsət və bərəkət vardır. Ondan məhrum olan isə xeyirdən məhrumdur."*[1]

Bu hədisdə açıq-aydın deyilir ki, xeyir-bərəkət dostluq və mehribanlıqdadır və onsuz xeyir-bərəkət də çəkilir.

2. Peyğəmbəri-Əkrəm (s) buyurur:

1 . *"Biharul-ənvar", 75-ci cild, səh.60.*

لَوْ كانَ الرِّفَقُ خَلْفاً يُرى ما كانَ مِمّا خَلَقَ اللهُ عَزَّوَجَلَّ شَيْءٍ اَحْسَنَ مِنْهُ

*"Əgər dostluq və mehribanlıq yaradılsaydı, Allah-Taalanın yaratdıqları içərisində ondan gözəli olmazdı."*[1]

Göründüyü kimi, burada mehribanlıq xilqətin ən yüksək zirvəsi ilə müqayisə edilir. Bu o deməkdir ki, sərtlik insanın ruhunu alçaldan nə qədər təhlükəli bir sifətdir.

3. Peyğəmbəri-Əkrəm (s) buyurur:

ما اَصْطَحَبَ اثْنانِ اِلّا كانَ اَعْظَمُهُما اَجْراً وَاَحَبُّهُما اِلَى اللهِ اَرْفَقَهُما بِصاحِبِهِ

*"İki dostdan hansı biri digərinə qarşı daha çox mehriban olsa, savabı daha çox və Allah yanında daha sevimlidir."*[2]

Bu hədisə görə də həyatda dostluq və mehribanlığı artıq olanlar Allah yanında böyük savab və məhəbbətlə müjdələnirlər.

4. İmam Baqir (ə) buyurur:

مَنْ قُسِمَ لَهُ الرِّفْقُ قُسِمَ لَهُ الْاِيمانُ

*"Hər kəsə dostluq nəsib olsa, iman da nəsib olar!"*[3]

Mərhum Feyz Kaşani "Vafi" kitabında dostluq və mehribanlığın imanla əlaqəsini belə izah edir: "Adətən, sərtlik insandan ixtiyarı alır və əsəb sistemini pozur. O zaman şəxs hər bir xəta və küfrə də yol verə bilər." Bu əlaqəni başqa cür də izah edə bilərik. O da budur ki, adətən, sərtlik insanı Allahın məxluquna, sonra da Xaliqə qarşı bədbin edir və bunların heç biri kamil

1 . Yenə orada, səh.63.
2 . Yenə orada, 76-cı cild, səh.268.
3 . "Kafi", 2-ci cild, səh.118.

imanla uyğun gəlmir. Başqa sözlə, həmişə sərt və qəzəbli adamların dostu az olur və bununla da onlar yavaş-yavaş cəmiyyətdən uzaq düşürlər. Cəmiyyətdən ayrılmağın özü məxluq və Xaliqə qarşı bədbinlik nişanəsidir və bu da yeni imanla ziddir.

5. İmam Baqir (ə) Peyğəmbəri-Əkrəmdən (s) belə nəql edir:

اِنَّ الرِّفْقَ لَمْ يُضَعْ عَلى شَيْءٍ اِلّا زانَهُ و لا نُزِعَ مِنْ شَيْءٍ اِلّا شانَهُ

*"Dostluq və mehribanlıq hər nəyə qoşulsa, onu zinətləndirər və hər nədən ayrılsa, o şey gözdən düşər."*[1]

Bu hikmətli hədisə əsasən, sülh və dostluq hər şeyə gözəllik bəxş edir, sərtlik isə hər şeyi, hər işi və hər kəsi pis və çirkin göstərir.

6. İmam Baqir (ə) buyurur:

اِنَ اللهَ عَزَّوَجَلَّ رَفِيقٌ يُحِبُّ الرِّفْقَ يُعْطِي عَلَى الرِّفْقِ ما لا يُعْطِي عَلَى الْعُنْفِ

*"Allah-Taala möminlərin dostudur və mehribanlığı da sevir. Dostluq və mehribanlığa görə bağışladığını qəzəb və sərtliyə görə bağışlamaz."*[2]

Bu hədisdə sülh, dostluq və mehribanlıq hətta Allahın Özünə nisbət verilir. Burada mühüm məsələ odur ki, çox vaxt İslam düşmənləri ona sərt don geyindirməyə, onda baş verən müharibələri bəhanə edərək, hər yerdə onu gözdən salmağa çalışırlar. Halbuki Peyğəmbərin (s) təkcə həmin müharibələrdəki onun qanına susayan, dəvəti müqabilində təhlükə

*1 . "Kafi", 2-ci cild, səh.119, hədis: 6.*
*2 . Yenə orada, hədis: 5.*

yaradan düşmənləri, eləcə də əsirlər, məğlubiyyətə uğrayan qövmlər və müharibə meydanlarında yaralılarla rəftar və davranışı ilə tanış olduqda, İslamın sülh və dostluq münasibətlərindəki parlaq səhifələrinin şahidi olacaq, onun zor və sərtliyə qarşı qəti mövqeyi aydınlaşacaqdır. Bundan da mühüm məsələ odur ki, bəzən ruhaniləri orta əsrin qəddar xristian keşişlərinə bənzətməklə, yaxud ictimai dünyagörüşü aşağı olan bir sıra din xadimlərinin yönsüz fikir və rəftarlarını əldə dəstək etməklə həmin şübhələri daha da qabartmaq istəyənlər az deyildir. Demək, biz müsəlmanlar da sərtliyin tərkinə dair İslamın yetərli göstərişlərinə itaət etməli, cəmiyyət arasında davranışlarımıza diqqət yetirərək, İslamın sülh və dostluğa dair həqiqi simasını nümayiş etdirməli və müxalif qüvvələrin zəhərli təbliğatlarını öz əməllərimizlə beyinlərdən silməliyik. İslam müharibələrinə gəldikdə isə, onların müdafiə və yaxud azadlıq uğrundakı səbəblərini aydınlaşdırmaqla şübhələri aradan qaldırmaq çətin deyildir.

Amma sülh, dostluq, mehribanlıq və ya sərt davranışa əl atmamaq dedikdə, zülmkarların, zor tətbiq edənlərin, inadkar düşmənlərin və istismarçıların müqabilində təslim olmaq nəzərdə tutulmur. Bu məsələ Qurani-Kərimin "Fəth" surəsinin 29-cu ayəsində belə açıqlanır:

{أَشِدَّاء عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ}

***"Onunla birlikdə onlar kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mehribandırlar."***

Beləliklə, müsəlmanlar inadkar və rəhmsiz düşmənləri müqabilində mütləq sərt mövqe

seçməli, dostlarına qarşı isə mərhəmətli olmalı və qələbə çaldıqları düşmənlərilə də onlar tərəfindən yeni hücum ehtimalı verilməyənə qədər mehriban davranmalıdırlar.

# MƏNƏVİ TƏSİR AMİLLƏRİ

## *Nə zaman öyüd-nəsihətlər başqalarına müsbət təsir bağışlayır?*

İctimai əxlaqda özünə yer alan məsələlərdən biri də insanlarda öyüd-nəsihətin təsiri, onların inam və etimadının cəlbidir. Bu sahəyə dair diqqəti cəlb edən bir çox parametrlər vardır ki, adətən, əxlaq alimləri deyilən xüsusi dəyəri nəzərə almadan, mövzunu sırf fəzilət baxımından araşdırırmışlar. Halbuki ruhi-psixoloji incəliklərlə dolu olan ictimai əxlaqın bu kateqoriyası ideoloqlar, təbliğatçılar üçün son dərəcədə əhəmiyyət kəsb edir və onsuz hər hansı bilik sahibi və ziyalı şəxsin səylərinin, tərbiyəvi və məqsədyönlü addımlarının uğursuzluqla üzləşməsi mümkün məsələdir. Hələ də bir çox elm və fəzilət sahiblərinin ictimai əxlaqın bu sahəsindəki təcrübəsizliklərindən cəmiyyətdən uzaq düşmələri az deyildir. Nə cəmiyyət onların elm və düşüncələrindən bəhrələnir, nə də özləri xalq arasında layiqli yer qazana bilirlər. Lakin çox vaxt onlardan səviyyədə aşağı olanlar bu üsullarla tanış olduqlarından cəmiyyətdə özlərinə hər cür mövqe qazanır, hələ layiq olmadıqları məqamlara da

yiyələnirlər.

Bu həqiqətlərə diqqət yetirməyən belə şəxslər ictimai aləmdəki uğursuzluqlarının günahını bəxt və təsadüf kimi fərzi amillərin üstünə atır. Əgər biz bəxti "bu üsullarla tanışlıq" kimi adlandırsaq, həqiqətə daha yaxındır. Hər şeydən öncə burada neçə məsələni qeyd etməliyik:

1. İnsan ictimai həyatın bir nümayəndəsi kimi başqalarına təsir göstərən üsullardan xəbərdar olmalı, onları ictimai həyatın tələbi sayılan həmkarlığa cəlb etməlidir. Burada heç kimi müstəsna deyil. Vəzifəsindən asılı olmayaraq hər hansı qrup və ya kütləyə rəhbərlik edən şəxsin, xüsusilə, ruhi-mənəvi dəyərləri aşılayan ruhanilər və din təbliğatçılarının bu sahə üzrə təcrübəsinə ehtiyac hamıdan artıq hiss olunur. Bununla belə, ictimai əxlaqın bu şöbəsi müəyyən dəstəyə xas deyil, ümumi yönə malikdir.

**2.** Digər əhəmiyyətli məsələ odur ki, əgər başqalarına təsiri biz insanın hər şey haqda geniş məlumatı, inkaredilməz dəlillərlə hazırcavablığı, yaxud nəzərdə tutulan hər hansı mövzunun predmetlərinə dair dəqiq izahedəbilmə bacarığı ilə bitmiş hesab edəriksə, doğrudan da yanılarıq. Çünki dəlil və sübut nə qədər güclü və məntiqli olsa belə, yalnız şüurun "agah" səthinə təsir edə bilir. Amma "nagah" və "yarımgah" səth və dərinlikləri də vardır ki, dəlil və sübut ora nüfuz edə bilmir.[1] Adətən, məntiqli söhbət və danışıqlardakı təsir

*1 . Psixoloqlar şüurun fəaliyyət dairəsini üç səthə bölmüşlər:*

**1. "Agahlıq" mərhələsi:** *Bura zehnin təbii, riyazi, həndəsi, məntiqi ölçü və hadisələr, müqayisə və müşahidələrin nəticəsini qavrayan sahəsidir. Onda gedən proseslər insana tam aydındır. Başqa sözlə, "agahlıq" şüurun əhatəsindədir.*

qüvvəsi həmin üsullara riayətin nəticəsidir. Məsələn, bir ideoloqun özünə tərəfdar toplaması üçün fərdlərin yalnız şüur və düşüncələrini qane etməsi kifayət deyil və onların duyğularını da istənilən məqsədə yönəltmək üçün deyilən üsullar zərurət kəsb edir.

**3.** Bu sadə təcrübədə məqsəd, yalnız başqalarını ram etmək, onların qəlblərinə nüfuz edərək qüvvə və istedadlarını mənimsəməkdirsə, şübhəsiz, xəyanət və istismarın real nümunəsi olacaq, amma məqsəd onların ictimai formalaşması, hər hansı islah və tərbiyəsidirsə, bu özü idarə və rəhbərliyin ilkin şərtlərindəndir.

Buradan məlum olur ki, əməl və rəftarda əxlaqi üsullar, təqribən, istənilən nəticəni verdiyi halda, məqsədlər tamamilə fərqli ola bilər.

**4.** Başqalarına düzgün təsir göstərmək üçün hər şeydən öncə psixoloji üsullardan xəbərdar olmalı, nəzərdə tutulan hər hansı fərdin ruhi yönlərinə əhəmiyyət vermək lazımdır. Bəziləri zatən belə istedada malik olduqları halda, bəziləri də bunu tərcübə ilə qazanır, çoxları isə bu üsullarla tanış deyildir.

**5.** Burada başqalarına təsir yolları ilə tanışlıq kifayət deyildir. Çoxları kifayət qədər məlumat topladıqları halda, onların istifadə yönünü bilmirlər. Halbuki

---

**2. "Nisbi agahlıq" mərhələsi:** *Bura qərizəvi, şəfqəti və s. hisslərdən doğan və tam aydın olmayan məlumatlar daxildir. Başqa sözlə, bura insanın hiss və duyğularının mərkəzidir ki, əsasən onun xasiyyəti məchul və qeyri-müəyyəndir.*

**3. "Şüuraltı" mərhələ:** *Bura zehnin qaranlıq və fəaliyyət dairəsindən kənar sahəsidir ki, adi halda onun möhtəvası məlum deyil. İnsanın xarici və batinində gündəlik baş verən bütün meyil, istək, hadisə və "agahlıq" mərhələsindən silinən hər hansı məsələ bura toplanır və onların yada düşüb-düşməsi insandan asılı deyil.*

bunlar təcrübi hazırlıq tələb edir və qaneedici nəticə almaq üçün mütləq "əxlaqi xassə" və adət formasına düşməlidir.

**6.** Burada bizə peyğəmbərlərin, xüsusilə İslam Peyğəmbəri (s) və Əhli-beytin tərcümeyi-halı, həyat tərzi və tərbiyəvi məqsədləri örnək ola bilər. Onların rəftar və davranışları yüksək təlim-təsir üsullarını əhatə edir. Bəziləri bütün bu işləri möcüzə ilə əlaqələndirmək istəsələr də, halbuki belə deyildir. Qurani-Kərimdə İslam Peyğəmbəri (s) haqda belə buyurulur:

{وَيَقُولُونَ هُوَ أُذُنٌ قُلْ أُذُنُ خَيْرٍ لَّكُمْ}

***"Deyirlər ki, O, tez inanandır. De: "Onun tez inanan olması sizin xeyrinizədir!"***[1]

Başqa bir ayədə belə buyurulur:

{فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ}

***"Allahın rəhməti sayəsində sən onlara qarşı mülayimsən! Əgər qəzəbli və daşürəkli olsaydın, əlbəttə, onlar ətrafından dağılardılar."***[2]

Həmçinin buyurulur:

{لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم و بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ}

***"Şübhəsiz, sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, sizin hidayətiniz üçün heç nəyini əsirgəmir və möminlərə***

---

*1 . "Tövbə" surəsi, ayə 61.*
*2 . "Ali-İmran" surəsi, ayə 159.*

***qarşı şəfqətli və mehribandır."***[1]

Çəkilən misalların içərisində birinci ayədə Peyğəmbər (s) hər kəsin sözünü doğru qəbul edən şəxs kimi göstərilir. Bunun mənası başqalarının sözlərinə ehtiram qoymaq, səbəbsiz yerə etimadsızlığa qapılmamaq, yumşaqlıq, mülayimlik, mehribanlıq, ürəkyandırmaq və çətinliklərini duymaq kimi hər kəsin düşüncəsində dərin təsir qoyan səciyyənin təzahürləri deməkdir?! Peyğəmbəri-Əkrəmin (s) davranışlarındakı əlamətdar ülgülərdən bir neçəsini qeyd edirik. "Görüşərkən hamıdan əvvəl salam verərmiş, kimsə onu yubatsaydı, heç vaxt səbirsizlik etməzmiş, biri ilə əl verib görüşdükdə, qarşı tərəf ayrılmayınca, əlini buraxmazmış, hətta uşaqları belə "künyə" (ərəblərdə ehtiramla müraciət) ilə çağırarmış və heç vaxt səhabələrinin yanında özünü üstün göstərən bir yerdə oturmazmış..."[2]

## *Həqiqəti aramalı, yoxsa münaqişə salmalı?*

Demək olar, hamı mübahisə zamanı aşağıdakı halları dəfələrlə müşahidə edib:

1. Neçə saat çəkən müzakirə və mübahisədən sonra heç bir müvəffəqiyyət görünmədiyi və məsələ tamamilə aydın olduğu halda, yenə də qarşı tərəfi razı salmaq mümkün olmur.

2. Əksər mübahisədən sonra qarşı tərəf əqidəsinə daha da möhkəm bağlanaraq, təəssübkeşliyindən əl çəkmir.

3. Uzun-uzadı mübahisələrdən sonra qəlbimizdə

*1 . "Tövbə" surəsi, ayə 128.*

*2 . "Ehyaül-ülum", 2-ci cild, səh.365-367.*

səmimiyyətin aradan getdiyini, qarşı tərəfə yersiz və dəlilsiz nifrət və kin-küdurətin oyandığını hiss edirik.

4. Siyasi məktəb çəkişmələrin və dini-məzhəbi mübahisələrin tarixi göstərir ki, bir əqidə və ya məktəbin isbatı uğrunda sərf olunan küllü miqdarda qüvvə, xərc və zəhmətlərə rəğmən, bəhrə və nəticəsi əsla bərabər deyildir.

5. Elmi müzakirə və fikri mübadilələrin çəkişmələr, bəzən də dava-dalaşla nəticələnməsi təəssüfləndirici haldır. Halbuki dava-dalaşla elmi müzakirə arasında heç bir əlaqə yoxdur və heç vaxt birini digəri ilə isbat etmək olmaz.

6. Çox vaxt qarşı tərəf güclü məntiqin müqabilində cavabsız qalıb sussa da, təslim olmayaraq inadkarlığından əl çəkmir.

Bütün bunlar elmi, ictimai, siyasi və s. mübahisələrdə qarşılaşdığımız hallardır. Axı nə üçün belə olmalıdır? Çünki çox vaxt bu bəhslərdə həqiqətin aydınlaşması deyil, qarşı tərəfə qələbə çalmaq əhəmiyyət daşıyır. Halbuki həqiqəti araşdırmaqda məqsəd hər kəsi əvəzsiz yararlandırmaqdır. Məsələn, fərdin şəxsiyyəti təhqir edilmədən ona müəyyən bir məsələ öyrədilsin. Amma əgər mücadilə və çəkişmələrdə elə də mühüm olmayan məsələyə görə qarşı tərəflərin şəxsiyyəti, hörməti və s. hissləri asanlıqla tapdanır. Belə hallarda hər hansı tərəfin müqavimət göstərib, nifrət hissini bildirməsi təəccüblü deyildir. Çünki psixoloqlar deyirlər:

1. Hərçənd, mücadilə və çəkişmə ilə qarşı tərəfi məhkum etmək mümkün olsa da, onun səmimi razılığı əldə edilməyəcəkdir.

2. Heç vaxt nadan şəxsə mücadilə və çəkişmə ilə

məntiq və həqiqəti anlatmaq olmaz.

3. Mübahisələrdə qələbə üçün ən yaxşı üsul ondan boyun qaçırmaqdır. Adətən, çəkişmə, yaxud dava-dalaş hökm sürən bəhslərdə qarşı tərəfi razı salmaq çox çətin olur. Belə hallarda onun müqaviməti göstərir ki, özü və ya hər hansı məqamı təhlükə qarşısındadır. Halbuki insanın bilmədiyi bir şeyi öyrəndiyi halda müqavimət göstərməsi mənasızdır.

Mübahisələrdə insanın təhrik və müqavimətinə bais olan səbəblərin bir neçəsini aşağıda qeyd edirik:

1. Qarşı tərəfin özünün, yaxud fikirlərinin təhqir olunduğu bəhslər. Buna "sənin nəzərin heç də məntiq və ağılla uyğun gəlmir, heç kim bu fikirdə deyil, heç sizə belə danışmaq yaraşmaz və yaxud adam təəccüblənməyə bilmir!..." – kimi nümunələri misal çəkmək olar.

2. Qarşı tərəfin çəkindiyi bir kəsin kənarında baş verən bəhs və danışıqlar.

3. Qarşı tərəfə bir növ təlimvermə məqsədli bəhslər.

4. Fikir mübadiləsi zamanı bir tərəfin üstünlüyü və digər tərəfin gözdəndüşmə ehtimalı verilən bəhslər.

5. Qarşı tərəfin özünün, yaxud sevdiyi şəxslərin, ya da dost və yaxınlarının bir sıra keçmiş və yaxud indiki əməllərini şübhə altına ala biləcək bəhslər.

6. Mühitin, yaxud ailənin və ya ilkin təlim-tərbiyənin təsiri nəticəsində insanın fikir və düşüncəsinin təməlini təşkil edən bəhslər.

Demək, sağlam mübahisə üçün bütün bunlar nəzərə alınmalı, müqabil tərəfi təhrik etməmək, dava-dalaş və çəkişmədən uzaq olmaq üçün adi metodlardan əsla istifadə edilməməlidir.

### *Müsbət təsirli amillər*

**a) Mübahisə zamanı mülayim rəftar:** İslamın əxlaqi təlimlərində nitq və danışığın ədəb-ərkanına dair kifayət qədər tövsiyə və göstərişlər vardır ki, mövzumuzla əlaqədar olaraq mücadilə və çəkişməyə bais olan bəhslərə icazə verməyən və ya bəzən onları tamamilə qadağan edən bir neçə nümunəni qeyd etmək istəyirik. Məsələn, Qurani-Kərimdə buyurulur:

{وَلَا تُجَادِلُوا أَهْلَ الْكِتَابِ إِلَّا بِالَّتِي هِيَ أَحْسَنُ}

***"Kitab əhli ilə yalnız ən gözəl tərzdə mücadilə edin!"***[1]

Başqa bir ayədə belə buyurulur:

{وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ}

***"Onlarla ən gözəl tərzdə mücadilə et!"***[2]

Bu ayələr mübahisə zamanı "ən gözəl tərz və üslub"u seçməyi tövsiyə edir. Qeyd olunan "əlləti hiyə əhsən" ***(ən gözəl tərz)*** – ifadəsinə əsasən, mübahisələrimizdə hökmən səmimiyyəti, ədəb qaydalarını nəzərə almamalıyıq. Hətta bəzən mütəal Allah Peyğəmbəri-Əkrəmə (s) rəsmən göstəriş verir ki, inadkar müxaliflərin müqabilində tamamilə sükut etsin, mücadilə ilə nəticələnən bəhslərdən çəkinsin:

{وَإِن جَادَلُوكَ فَقُلِ اللَّهُ أَعْلَمُ بِمَا تَعْمَلُونَ}

***"(Ya Rəsulum!) Əgər onlar səninlə əsassız mübahisə***

---

*1 . "Ənkəbut" surəsi, ayə 46.*
*2 . "Nəhl" surəsi, ayə 125.*

***etsələr, de ki, Allah sizin hər bir əməlinizi yaxşı bilir."***[1]

Buna dair misallar hədislərimizdə az deyildir. Məsələn:

**قالَ النَّبِيُّ(ص): ذَرُوا الْمِراءَ فَاِنَّهُ لا تُفْهَمُ حِكْمَتُهُ وَ لا تُؤْمَنُ فِتْنَتُهُ**

**1.** Peyğəmbər (s) buyurmuşdur: *"Mücadilədən çəkinin ki, nə onun faydası var, nə də fitnəsindən amanda qalmaq olar."*[2]

**وَ قالَ(ص): لا يَسْتَكْمِلُ عَبْدٌ حَقِيقَةَ الْاِيمانِ حَتّى يَدَعَ الْمِراءَ وَ اِنْ كانَ مُحِقّاً**

**2.** Peyğəmbər (s) buyurmuşdur: *"Haqq onunla olsa belə, mücadiləni tərk etməyən bəndənin imanı kamilləşməz."*[3]

**قالَ سُلَيْمانُ بْنُ داوُدَ لِاِبْنِهِ: يا بُنَيَّ اِيّاكَ وَ الْمِراءَ فَاِنَّهُ لَيْسَتْ فِيهِ مَنْفَعَةٌ وَهُوَ يُهَيِّجُ بَيْنَ الْاِخْوانِ الْعَداوَةَ**

**3.** Süleyman ibn Davud oğluna belə buyurmuşdur: *"Ey oğul! Mücadilədən çəkinin ki, onda heç bir fayda yoxdur və din qardaşları arasında da ədavət və düşmənçilik odunu şölələndirir!"*[4]

**عَنِ النَّبِيِّ(ص): ما ضَلَّ قَوْمٌ بَعْدَ هُدىً كانُوا عَلَيْهِ اِلّا أُوتُوا الْجَدَلَ**

**4.** Peyğəmbər (s) buyurmuşdur: *"Mücadilə etməyincə, insan haqq yoldan azmaz."*[5]

---

*1 . "Həcc" surəsi, ayə 68.*
*2 . "Biharul-ənvar", 2-ci cild, səh.138.*
*3 . Yenə orada, hədis: 53.*
*4 . Yenə orada, 14-cü cild, səh.134.*
*5 . "Sünəni-İbn Macə", 1-ci cild, səh.47.*

عَنْ اَمِيرِ الْمُؤْمِنِينَ(ع): يا كُمَيْلُ! اِيّاكَ وَالْمِراءَ فَاِنَّكَ تُغْرِي بِنَفْسِكَ السُّفَهاءَ اِذا فَعَلْتَ وَ تُفْسِدُ الْاِخاءَ

**5.** İmam Əli (ə) Kumeylə buyurmuşdur: *"Ey Kumeyl! Mücadilə və faydasız deyişmədən uzaq ol ki, öz əlinlə nadanları əleyhinə qaldırar və qardaşlığı pozarsan."*[6]

Bu hədislərə əsasən, mücadilə və çəkişmələrə bais olan mübahisələr, adətən, əks təsirlərə malikdir ki, onların bir neçəsini aşağıda qeyd edirik:

1. Bəhs zamanı mücadilə heç bir tərəfə faydalı deyil və çox vaxt qarşı tərəflərin müqavimətinə səbəb olur.
2. Mücadilə imanın təkamülünə mane olur.
3. Mücadilə hissləri təhrik edir, ədavət və düşmənçiliyə səbəb olur.
4. Mücadilə azğınlığa yol açır. Çünki o, inadkarlıq, xudbinlik və təəssübkeşlik hisslərini oyadaraq haqqın üstünü örtür.
5. Nadanlarla mücadilə insanı şəxsiyyət və hörmətdən salır.

İslam insanın şəxsiyyəti və imanın qiymətini nəzərə alaraq hər hansı çəkişmə, mücadilə və qalmaqaldan uzaq olmağı təklif edir və hətta haqqın isbatı naminə olsa belə, ona qətiyyən icazə vermir.

**b) Xudbinlikdən uzaqlaşmaq:** Cəmiyyətlə gözəl münasibət yaratmaq, onlarda xoş təsir qoymaq istəyənlər hər hansı mövzudan danışarkən onu özünə mənsub edərək özünü bu ideyanın sahibi kimi göstərməməli, obyektivliyə riayət edərək haqq sözü qarşı tərəflə bölüşməli, bəzən onun fikirləri tərkibində mövzunu aydınlaşdırmalıdır. Çünki hər bir insana

6 . *"Biharul-ənvar", 77-ci cild, səh.270, hədis: 1.*

fikirləri doğma övladı kimi əziz olur, onları varlığının bir hissəsi sayır, məhəbbət bəsləyir və onlarla yaşayır. Eynilə ona əks olaraq, başqalarının fikir və düşüncələri insana yad övladlar kimi ögeydir. Bəzən insan qarşı tərəfin məhəbbətini özünə cəlb edə bilmədikdə, onu özünə rəqib edir. Amma insanın hər hansı həqiqəti öz düşüncəsi və başa düşdüyü formada anlaması çox asandır. Çünki o zaman şüur və hisslər üst-üstə düşür. Buna əks olaraq, hər hansı yad fikir onun varlığına daxil olduqda, şüur və hissləri arasında ziddiyyət baş verir ki, adətən, çoxlarında hisslər şüura qalib gəlir. Halbuki əql doğru fikri qəbul etmək istəsə də, rəqib duyğular onu yad hesab edərək imtina edirlər. Bəs, əgər mübahisədə məqsədimiz, doğrudan da, qələbə deyil, həqiqəti araşdırmaqdırsa, onda yaxşı olar ki, qarşı tərəfdə mövzu və ideyanın əsasının, yaxud nəticəsinin onun özününkü olduğu haqda təsəvvür yaradaq! Əgər məqsəd həqiqəti yetirməkdirsə, nə üçün onun məhz "bizim fikrimiz" olduğunu israr etməliyik?! Aparılan bir çox təcrübi sınaqlar göstərir ki, belə üsul və metodlar, adətən, daha uğurlu təsirə malikdir. Demək, istənilən ideyanın reallığı üçün aşağıdakı üsul və metodları nəzərə almaq zəruridir:

1. Mübahisə zamanı mövzu açıqlandıqca, onun bütövlükdə qavranılması üçün qarşı tərəfə şərait yaratmaq lazımdır. Yəni həqiqətdə danışan fikirlərini birbaşa onun beyninə yeritməməli, dərki üçün zəmin hazırlayaraq daxili istedadını dirçəltməlidir.

2. Yaxşı olar, mübahisə sual-cavab formasında aparılsın və son nəticə qarşı tərəfin özünə həvalə edilsin.

3. Özünə istinadı bildirən "məndən qabaq heç kim bunu deməyib!" – kimi ifadələrdən çəkinməliyik.

4. Qarşı tərəfin söhbətlərində mövzuya uyğun bir fikir və ya ideya vardırsa, hökmən xatırlanılsın. Hətta onun öz sözü də olmasa, atası, ustadı, tayfasının ağsaqqalı, səmimi dostu və ya hər hansı ehtiram və məhəbbət bəslədiyi şəxsin ifadələrinə bir fakt kimi əsaslanmaq lazımdır.

Qeyri-adi ecazkarlığı ilə hamını valeh edən Qurani-Kərim çox vaxt həmin üsullarla öz müxaliflərini və ona şübhə ilə yanaşanları sorğu-suala çəkir. Buna aşağıdakı ayələri misal göstərmək olar:

{أَإِلَهٌ مَّعَ اللَّهِ}

*"Məgər Allahla yanaşı bir tanrımı var?"*[1]

{مَنْ إِلَهٌ غَيْرُ اللَّهِ}

***"Allahdan başqa tanrı varmı?"***[2]

{هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ}

***"Allahdan başqa xaliq varmı?"***[3]

{أَفَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَتَكُونَ لَهُمْ قُلُوبٌ يَعْقِلُونَ بِهَا}

***"Niyə onlar yer üzündə gəzib dolanmırlar ki, düşünən qəlbləri olsun?"***[4]

Bəli, Qurani-Kərim hər hansı həqiqəti açıqlayarkən son hökmü və düzgün nəticə çıxarmağı müqabil tərəfin

1 . *"Nəml" surəsi, ayə 61.*
2 . *"Qəsəs" surəsi, ayə 72.*
3 . *"Fatir" surəsi, ayə 3.*
4 . *"Həcc" surəsi, ayə 46.*

vicdanına tapşırır.

**c) Etik qaydalara riayət:** Ötən bəhslərdə deyildi ki, gərək danışıq və ifadələrimizdə şüur və duyğuların bir-birinə zidd olmasına zəmin yaratmayaq. Əksinə, mövzunun təsirini daha da artırmaq üçün hiss və duyğulara xüsusi əhəmiyyət verilməlidir. Burada da bir sıra üsullara diqqət yetirmək lazımdır:

**1.** Hər kəsin adı özünə sevimli olduğundan, müraciət formalarında onu xüsusi ehtiramla qeyd etməli, onu cəlb edə bilən adı, soyadı və təxəllüsündən birini seçməliyik. Hədislərdə də buyurulur ki, insanı "künyə"si ilə çağırmaq daha layiqdir.[1] ("Künyə" ərəblər üçün ən hörmətli addır.) Peyğəmbəri-Əkrəm (s) hər kəsi ən yaxşı adı ilə çağırar və hətta künyəsi olmayanlara münasib künyə seçərmiş.

2. Əvvəl sözü qarşı tərəfə verməklə onu diqqətlə dinləmək lazımdır. Bu özü insan üçün doğrudan da həqiqətin əhəmiyyət daşıdığını və müqabil tərəfin fikirlərinə hörmətlə yanaşıldığını göstərir. Belə nəzakətli rəftar istər-istəməz onun hisslərində öz müsbət təsirini qoyacaqdır.

Adətən, mübahisələrdə hər kəs bütün qüvvəsini öz əqidə, təfəkkür, dəlil və fikirlərinin açıqlanmasına sərf edir və belə vaxtda başqasının sözlərini tam mənası ilə eşitməyə hazır olmur. O zaman irəli sürülən hər hansı doğru dəlil biyabana düşən toxuma bənzəyir. Birdə ki, dil açıb danışdıqda, içləri boşalır və bundan sonra onlarda haqqı eşitmək qabiliyyəti yaranır. Rəvayətlərdə nəql olunur ki, Peyğəmbəri-Əkrəm (s) və Əhli-beyt (ə) də qarşılaşdığı adamları hövsələ və

*1 . "Vəsailüş-şiə", 8-ci cild, "əhkamul-əşərə", 5-ci bölüm.*

diqqətlə dinləyirmişlər.

**3.** Qarşı tərəfin fikirləri ilə tanış olmağa rəğbət göstərmək və onlardan söz açmağın özü (ona) xoş təsir qoymaqda böyük rola malikdir. Peyğəmbəri-Əkrəmin (s) xüsusiyyətlərindən biri də bu idi ki, səhabələri ilə tək olduqda, onların ailə vəziyyəti, həyat yoldaşı, övladları, ümumiyyətlə, onların istədikləri ilə maraqlanarmış.

**4.** Yeri gəldikcə, qarşı tərəfin müsbət fikirlərini qeyd etmək lazımdır ki, nöqsan və səhvlərini qəbul etmək üçün ruhi hazırlığı olsun.

**5.** Həqiqi mənada ürəkyandırma. Başqalarının diqqəti və rəğbətini cəlb etməkdə ən təsirli amillərdən biri həqiqətən ürəkyananlıq göstərməkdir. Adətən, insan bir kəsin doğrudan da ürək yandırdığını müşahidə etsə, hətta onun çox da tutarlı olmayan dəlil və sübutlarını qəbul edib, öz fikirlərindən danışacaq. Məsələn, o zaman müsəlmanların Peyğəmbəri-Əkrəmin (s) hər sözünə şübhəsiz inanmasının səbəbi o həzrətin bütün vücudu ilə ürəkyandırması idi. Hətta bəzilərinin haqdan üz döndərməsi onu (s) həddsiz qəm-qüssəyə salardı. Qurani-Kərimdə bu haqda buyurulur:

{فَلَعَلَّكَ بَاخِعٌ نَّفْسَكَ عَلَى آثَارِهِمْ إِن لَّمْ يُؤْمِنُوا بِهَذَا الْحَدِيثِ أَسَفًا}

***"(Ya Rəsulum!) Yoxsa bu kəlama iman gətirməsələr, onlardan ötrü özünü qəm-qüssədən həlakmı edəcəksən?"***[1]

Həzrət Peyğəmbəri-Əkrəmə (s) xas rəftarlardan biri də budur:

وَلا يَأتِيهِ اَحَدٌ حُرٌّ اَوْ عَبْدٌ اَوْ اَمَةٌ اِلّا قامَ مَعَهُ فِي حاجَتِهِ

1 . *"Kəhf" surəsi, ayə 6.*

*"Hər kəs – istər azad, istər qul və kəniz – onun yanına gəlsəydi, işinə bir əlac edərdi."*[1]

6. Müqabil tərəfin səhvlərini elə qeyd etmək lazımdır ki, danışıqda şəxsi mənafe hiss olunmasın, yaxud fərd təhqir edilməsin. Məsələn, böyük səhv və xətaları dolayı yolla demək daha yaxşıdır. Tarixdə nəql olunur ki, imam Həsənlə (ə) imam Hüseyn (ə) qoca bir kişiyə özləri dəstəmaz alaraq onun düzgün qaydasını öyrətdilər və bu həmin üslubun aydın nümunələrindən biridir. Bunlar "Sizin fikrinizcə belə olsa, necədir?" və yaxud "Belə desək, yaxşı olmazmı?", yaxud da "Mənə elə gəlir ki, bu daha düzgündür!" kimi qarşı tərəfə səhv və xətalarını bildirən üstüörtülü ifadələrdir ki, daha gözəl nəticə verə bilər.

**7.** Heç vaxt qarşı tərəfdə yersiz inadkarlıq hissini təhrik etməməliyik. Məsələn, biri mövzudan kənar məsələyə toxunarsa, yaxud ona irad tutursa, müxalifət etmədən doğru sözlərinə haqq qazandırmaq lazımdır ki, içi boşalsın və hər hansı fikri dinləməyə imkan yaransın. Bəzən birinə İslamdan danışarkən, onun müsəlmanlar haqda mənfi fikirdə olduğu məlum olur və bunu bir sıra dəlillərlə gözəl əsaslandıra bilir. O zaman biz də yerli-yersiz özümüzü müdafiə etməməli, əksinə, doğru fikir və iradlarını qəbul edərək şübhələri aradan qaldırmalıyıq ki, deyilənlərin nəticəsi olsun.

**ç) Deyilənlərə inam:** "Ürəkdən çıxan söz ürəyə yatar!" məsəli bizə sözün təsirinin sirlərindən xəbər verir və bunu özümüzə örnək seçməliyik. Bildiyimiz kimi, insanın əqidə və fikirləri dilinin arxasında yerləşib və bunu da bilirik ki, yürüdülən fikirlərin qiyməti

---

*1 . "Biharul-ənvar", 16-cı cild, səh.226.*

danışanın özünün onlara bəslədiyi etiqadla ölçülür. Belə ki, bir mütəfəkkirin müəyyən məsələyə güclü etiqadı həmin məsələnin əsaslı və köklü olduğunu, dəlil və sübutlara söykəndiyini göstərir. Beləliklə, istər-istəməz danışanın dediyinə inamı ilə dinləyənin ona inamı arasında yaxın əlaqə yaranacaqdır. Məsələn, etiqadsız və ya inamsız söylənilən çox gözəl bir fikir heç vaxt dinləyicini lazımınca qane etməyəcək, yaxud da onda şübhə doğuracaqdır. Lakin buna əks olaraq, zahirən elə də dərin olmayan bir məsələ zəkalı bir insanın dilindən qətiyyətlə çıxdıqda, hamının diqqətini özünə cəlb edir və çoxlarında müsbət fikir oyadır. Bu da məlumdur ki, insan özü inanmadığı bir məsələni saxta sözlərlə tamamilə ört-basdır edə bilməz. Məxsusən, nitq və danışıq elə bir şeydir ki, şəxsin daxili aləmi bir zaman istər-istəməz onun arasından özünü büruzə verir. Əgər bir şəxsin sözündəki təsiri öz dediklərinə əməl etdiyi təqdirdə görürüksə, bunun səbəbi əməlin daxili xasiyyəti üzündəndir. Çünki çox vaxt söz insanın əsl əqidəsini açıqlamasa da, əməl, adətən, onun əqidə və düşüncəsini bildirən nişanədir.

**d) Danışanın təqvası:** *"Danışanın özünə yox, sözünə fikir ver!"* məsəlinə tam əməl etmək mümkün deyil. Çünki hər söz, danışanın varlığından doğur: maddi forması (səs) iradə qüvvəsinin vasitəsilə səs tellərindən xaric olaraq, özü ilə bərabər tərbiyə və düşüncəsinin məhsulu olan mənəvi formasını da ötürür. Beləliklə, hər söz onun sahibinin bir sıra müsbət və ya mənfi sifət və xüsusiyyətlərini də özü ilə birgə daşıyır. Buna görə də, pak, sağlam və təqvalı şəxslərin sözləri insanın ruhuna çökür. Buna əks olaraq, yaramaz və günahkarların

sözləri isə dinləyicini ixtiyarsız reaksiyaya vadar edir və mənən ondan üz döndərir.

## ƏXLAQLA TƏRBİYƏNİN RABİTƏSİ

Hər bir insanın önündə duran mühüm məsələlərdən biri də tərbiyədir. Dini təfəkkür baxımından tərbiyə geniş mənada bütün yaradılışı əhatə edir. Peyğəmbərlərin, dinin böyük alim və şəxsiyyətlərinin bütün zəhməti həmin məqsədə nail olmaq üçündür. İnsanlıq, əmin-amanlıq, xoşbəxtlik və səadət tərbiyəsiz mümkün deyil və həyatın tələbi olan belə bir qurum üçün bütün qüvvə və imkanlardan istifadə etmək lazımdır. Əxlaq elminin qarşıya qoyduğu son məqsəd də bütün yaxşı və pis xislətlər, onların əmələgəlmə səbəbləri və inkişafı haqda geniş məlumat verdikdən sonra "hüsni-əxlaq"a yiyələnmə və rəzil sifətlərlə mübarizədir ki, məhz "tərbiyə" ilə mümkündür.

### *Tərbiyə nədir?*

Bəzi psixoloqlar doğru yolu tutmağa və gələcək həyatı naminə məsuliyyət daşımağa hazırlığı tərbiyə adlandırırlar. Bəziləri isə onu müəyyən məqsəd üçün daxili istedad və qüvvələrin inkişaf etdirilməsi kimi izah edirlər.

Məşhur psixoloq Can Deyvi və onunla həmfikir

olanlara görə, tərbiyə ötən sınaq və təcrübələrdə dönüş yaratmaq və onların bərpasından ibarətdir. Belə ki, bu proses məna kəsb edərək fərdi gələcək təcrübələrin idarəsi üçün hazırlayır.[1]

Bizim fikrimizə görə, bu üç tərif bir mövzunu açıqlayır; üçüncü tərif tərbiyənin mahiyyətini, birinci tərif məqsədini, ikinci tərif isə nəticəsini göstərir.

## *Quran və tərbiyə*

"Tərbiyə" sözü lüğəvi kökünə əsasən, qaldırmaq və inkişaf etdirmək mənasını daşıyır. Belə nəzərə çarpır ki, bu sözün bir termin kimi istifadəsi elə də qədim tarixə malik deyil. Ona görə də, Qurani-Kərimdə həmin mənada "tərbiyə" sözünə rast gəlinir və onun yerinə "təzkiyə" və "zülmətdən nura çıxarma" kimi başqa ifadələr görünür. Məsələn, aşağıdakı iki ayədən birində "təkvini tərbiyə"yə[2], digərində isə "təşrii tərbiyə"yə[3] toxunulur. Birinci ayədə belə buyurulur:

{هُوَ الَّذِي يُصَلِّي عَلَيْكُمْ وَمَلَائِكَتُهُ لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ}

***1. "Sizi zülmətdən (nadanlıq, şirk və günah) nura (iman, elm və təqva) çıxarmaq üçün mələkləri ilə birlikdə sizə salam və mərhəmət göndərən Odur!"***[4]

Allahın və mələklərin salam və salavatı bəndələrə nazil olan rəhmət, mərhəmət və bərəkətdir ki, onları azğınlığın zülmətindən çıxararaq qəlblərini hidayət nuru ilə işıqlandırır.

İkinci ayədə isə belə buyurulur:

*1 . "Təlim və tərbiyənin üsulları", Əli Şəriətmədari, ixtisarla.*
*2 . Xilqət aləmindəki qanunauyğunluqların tələbi.*
*3 . Müəllim və ya hər hansı şəxsin proqram əsasında verdiyi tərbiyə.*
*4 . "Əhzab" surəsi, ayə 43.*

{هُوَ الَّذِي يُنَزِّلُ عَلَى عَبْدِهِ آيَاتٍ بَيِّنَاتٍ لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ}

**2.** ***"Sizi zülmətlərdən nura çıxarmaq üçün Öz bəndəsinə (Mühəmməd (s)) açıq-aşkar ayələr nazil edən Odur!"***[1]

Verilən ayələrə əsasən, belə başa düşülür ki, insan dini təlim-tərbiyəsiz, eynilə qaranlıq və zülmətə düşən kəsə bənzəyir. Ona verilən hər hansı qüvvə və istedad həqiqi məqsədə xidmət etmir və yolunu itirmiş sərgərdan kimi, daim məqsəddən uzaqlaşır. Tərbiyə isə onu zülmətdən nura çıxarır, mənəvi inkişafı doğru yola düşərək onu məqsədə tərəf aparır.

## *Şəxsiyyət və mənlik*

"Şəxsiyyət" sözü yalnız elm, psixologiya və əxlaqa xas bir termin deyil və ümumxalqın gündəlik söhbətləri əsnasında işlənir və təqribən, hər kəs onun mənasını (qısa şəkildə) bilir. Bununla belə, "şəxsiyyət"in dəqiq və aydın tərifini demək çətin məsələdir. Ona görə də, psixoloqlar onu müxtəlif cür tərif edirlər. Maraqlıdır ki, onlardan birinin dediyinə əsasən, ona yüzlərlə tərif verilsə də, hər biri bir yönünü açıqlayır. Bu tərifdən bir neçəsi diqqəti özünə cəlb edir:

**1.** Şəxsiyyət – fərdin cəmiyyətdə qoyduğu təsirlərin məcmusudur. Başqa sözlə, hər kəsin şəxsiyyəti onun ictimai nüfuz və təsirindən ibarətdir.[2]

Bu kimi natamam təriflərdəki irad odur ki, həm ictimaiyyətdən uzaq düşənlərə şamil olmur, həm də

*1 . "Hədid" surəsi, ayə 9.*

*2 . "Rəvanşenasiye-rüşd", səh.453.*

ruhi səciyyələrə göz yumaraq şəxsiyyəti əməli çevrədə məhdudlaşdırır. Halbuki şəxsiyyət ruhi-mənəvi keyfiyyətlərlə təmsil olunur.

**2.** Şəxsiyyət – fərdin adət, fikir, nitq, meyil və istək, hərəkət tərzi və dünya görünüşündə büruzə verən rəftarının ümumi forması deməkdir. Məşhur psixoloq Markuistə mənsub bu tərifdə də, müəyyən qədər məhdudiyyətlər gözə çarpır.

**3.** Şəxsiyyət – insanın rəftar və davranış tərzini müəyyənləşdirən hiss və təəssüratlarındakı, idrak və yaddaşlarındakı daxili nəzmə deyilir.

Bu tərifdə şəxsiyyət daxili sifət kimi göstərildiyindən ötən iradlardan uzaqdır. Amma şəxsiyyəti, insani dəyərləri ehtiva edən sifət, halət və səciyyələrin məcmusundan ibarət fərdi və ictimai təsirlərin mənşəyi hesab etsək, onun əsl məfhumuna daha yaxın olacaq.

**Mənlik:** Bir çox psixoloqlar "mənlik" və "şəxsiyyət"in hər ikisinin bir məna daşıdığını deyirlərsə, bəziləri isə onların fərqli olduğuna etiqadlıdır. Onlar mənliyi əxlaqi yönə – yaxşı və pis sifətlərə aid, şəxsiyyəti isə bütün ruhi, əxlaqi, hissi, hətta rəftarla bağlı keyfiyyətlərə belə şamil edirlər. Hərçənd, hər fənnin terminologiyasına kənardan müdaxilə olunmasa da, lakin müasir dilimizdə bu iki söz bir mənanı çatdırır. Əgər şəxsiyyət insanı başqalarından fərqləndirən fərdi sifət və keyfiyyətlərin məcmusundan ibarət xassədirsə, mən sözündən götürülən "mənlik" də adi danışıq və lüğət kitablarına görə, "zat", "xasiyyət" mənasını bildirir.

## *Tərbiyə ilə şəxsiyyətin əlaqəsi*

Şəxsiyyəti hər necə mənalandırsaq da, onun tərbiyə ilə əlaqəsini qırmaq mümkün deyil. Həqiqətdə tərbiyə ya insanlarda şəxsiyyəti göstərən (buna əsasən, hamının ona malik olduğunu deməliyik), ya da onu icad edən bir vasitədir (belə ki, ya bütövlükdə, ya da bir qismində şərikdir). Hər iki surətdə onun tərbiyə ilə sıx əlaqəsi vardır. Müəyyən hadisələr üzündən cəmiyyətdən uzaq düşən və ya uşaqlıqdan vəhşi heyvanlar arasında boya-başa çatanların üzərində aparılan tədqiqatlara əsasən, onlarda qeyri-adi rəftarlar, idrak səviyyələrinin son dərəcədə zəifliyi, insani keyfiyyətlərdən məhrum olmaq kimi ciddi problemlər müşahidə olunur ki, bu da şəxsiyyətlə tərbiyə arasındakı əlaqəni göstərən aşkar dəlildir.

Həmçinin, təqribən, eyni səth və şəraitdə yaşayan xalqlar arasında birinin ləyaqətli rəhbərə görə sürətlə başqalarından irəli keçməsi, böyük addımlarla tərəqqisi geniş mənada tərbiyənin fərd və cəmiyyətdə rolunu ifa edən bir nişanədir. Ayrı-ayrı mühitdə boya-başa çatan oxşar vəziyyətli fərdlər arasındakı aşkar fərqlər, yaxud iki müxtəlif mühitə düşən kəsdə müşahidə olunan hallar şəxsiyyətlə tərbiyənin arasındakı sıx əlaqəni göstərir və burada bizə bir alimin sözünü yada salır: "Uşaqları mənə tapşırın və onları istədiyiniz hər hansı əhval-ruhiyyədə – şücaətli, qorxaq, səxavətli, paxıl... tərbiyə edim."

## *Şəxsiyyəti təşkil edən amillər*

İnsanda şəxsiyyəti formalaşdıran amillər çoxdur və bəlkə də onları bir-bir saymaq çətin olsun. Bununla

belə, onların ən mühümləri aşağıdakılardan ibarətdir:

**1.** Xilqət (cismi və ruhi parametrlər);
**2.** İrsiyyət;
**3.** Üzvi orqanlar ;
**4.** Qida;
**5.** Ailə mühiti;
**6.** İctimai mühit;
**7.** Təhsil;
**8.** Dost və yoldaşlıq;
**9.** (Özü və başqaları tərəfindən) təlqinlər;
**10.** Dünyagörüşü;
**11.** Gözlənilməz hadisələr;
**12.** Şəxsi iradə və çalışqanlıq.

Şəxsiyyətlə tərbiyə arasındakı sıx əlaqəni nəzərə alaraq qeyd edilən amilləri başqa bir baxışla tərbiyəvi amillər də adlandırmaq olar. Onların hər biri ayrıca elmi bir sahəni təşkil etdiyindən onu "insan və tərbiyəvi məsələlər" adı altında araşdırmaq olar. Bu müvəffəqiyyətli işin ümidi ilə!

## *MÜNDƏRİCAT*


ÖN SÖZ .......................................... 5

*Biz bu sətirlərdə nəyi arayırıq?* ...................... *5*

ƏXLAQ VƏ TƏRBİYƏ ............................ 7

*Pis əxlaq bir növ xəstəlikdir*.......................... *8*

*Nəfslə mübarizə, yaxud böyük cihad*................... *10*

*Səadət və xoşbəxtlik* ................................ *12*

*Səadət yalnız ruhi yönəmi malikdir?*................... *13*

*Mötədil və orta mövqeli məktəb*....................... *14*

*Fərdi və ictimai əxlaq*............................... *16*

*Böyük yanlış*....................................... *17*

*Əxlaqi-psixoloji pozuntuların müalicəsi*................ *18*

*Əxlaqın gigiyenası* ................................. *19*

KLASSİK ALİMLƏRİN NƏZƏRİNDƏ ƏXLAQIN ÜSULLARI ........................................ 27

*Təhqiq və tənqid*.................................... *29*

*Yaxşı və pis rəftarın əxlaqi meyarı*.................... *31*

*Əxlaqın fərdi və guşənişin həyat tərzinə baxışı* .......... *34*

*Mədəni-ictimai təfəkkürün tərəfdarlarının dəlilləri*....... *37*

*Tərki-dünyalığın müstəsna halları* .................... *41*

*"Müraqibə" və "mühasibə", yaxud məqsəd və nəticələrin*

*araşdırılması. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42*

ÖZÜNÜİSLAHDA İLK ADDIM DİL VƏ DANIŞIQ . . . . 46

*Dil – zahir və batinin aynası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46*
*Dildən çıxan otuz böyük günah. . . . . . . . . . . . . . . . . . . . . . . . 47*
*Sükut. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49*

DÜZ DANIŞMAQ ŞƏXSİYYƏTİN BARİZ NİŞANƏSİ. . 53

*Doğruluğun dəyər və əhəmiyyəti. . . . . . . . . . . . . . . . . . . . . . . 53*
*Düz danışmağın təsirləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54*
*Yalan – günahların mənşəyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55*
*Yalan imanla uyğun gəlmir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58*
*Yalan insanı dəyərdən salır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60*
*Yalançı özünə də inanmır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60*
*Yalanın mənşəyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61*
*Yalanın müalicəsi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62*
*Yalanın müstəsna halları. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65*
*"Tövriyə" nədir? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68*
*"Tövriyə" yalan sayılırmı və ondan müstəsna hallardan başqa zamanlarda da istifadə etmək olarmı? . . . . . . . . . . . . . . . . . . 68*
*"Tövriyə" haqqında yeni izah . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70*

QEYBƏT. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71

*Namərdlərin qorxulu silahı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71*
*Qeybətin əsas amilləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71*
*Qeybətin təhlükələri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 73*
*Qeybətin fərdi və ictimai təsirləri. . . . . . . . . . . . . . . . . . . . . . 81*
*Qeybətin həddi-hüdudu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 83*

*Qeybətin müstəsna halları* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *86*
*Fasiq kimdir və nə üçün qeybəti caizdir?* . . . . . . . . . . . . . . . *89*

SUİ-ZƏNN VƏ BƏDBİNLİK . . . . . . . . . . . . . . . . . . . . . . . . 91

*Bədbinlikdən uzaq olan sağlam cəmiyyət* . . . . . . . . . . . . . . . *91*
*Bədbinlik və bədgümanlığın səbəbləri* . . . . . . . . . . . . . . . . . *93*
*Bədbinliyin ictimai zərərləri* . . . . . . . . . . . . . . . . . . . . . . . . *95*
*Bədbinliyin fərdi zərərləri* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *97*
*Bədbinliklə mübarizə yolları* . . . . . . . . . . . . . . . . . . . . . . . . *99*
*Bədbinliyin müalicəsi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *101*
*Diqqət* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *103*

ƏXLAQ SAYƏSİNDƏ SAĞLAM CƏMİYYƏT . . . . . . . . . 104

*Əxlaqi normalarsız sağlam cəmiyyətdən söz gedə bilməz!* . . *104*
*İnsanın ictimai həyatındakı məziyyətləri* . . . . . . . . . . . . . . . *105*
*Cəmiyyəti formalaşdıran amil* . . . . . . . . . . . . . . . . . . . . . . . . *106*
*Birgə yaşayışda dəyər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *107*
*İslam və ictimai məsələlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *108*
*Fərdi həyat* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *117*
*İslam və rahiblik* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *118*
*Tarixi fakt* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *118*
*Psixoloji fakt* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *118*
*Xristianlıqda rahiblik* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *120*

İCTİMAİ VAHİD VƏ QURUMLAR . . . . . . . . . . . . . . . . . . 123

*Böyük və qüdrətli cəmiyyətin təşkili* . . . . . . . . . . . . . . . . . . . *123*
*Ən güclü ictimai ittifaq* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *125*
*İslam və vahid dünya icması* . . . . . . . . . . . . . . . . . . . . . . . . *128*
*Vəhdət yaradan baxış* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *134*

*İslamda birliyin rəmzi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *137*
*1. Əxlaqi təkamül* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *138*
*2. Əfv və güzəşt* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *141*
*3. Pisliyi yaxşılıqla ödəmək* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *145*
*4. Sərtliyi tərk etmək* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *148*

MƏNƏVİ TƏSİR AMİLLƏRİ . . . . . . . . . . . . . . . . . . . . . . . . 154

*Nə zaman öyüd-nəsihətlər başqalarına müsbət təsir bağışlayır? 154*
*Həqiqəti aramalı, yoxsa münaqişə salmalı?* . . . . . . . . . . . . . *158*
*Müsbət təsirli amillər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *161*

ƏXLAQLA TƏRBİYƏNİN RABİTƏSİ. . . . . . . . . . . . . . . . . 171

*Tərbiyə nədir?* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *171*
*Quran və tərbiyə* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *172*
*Şəxsiyyət və mənlik* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *173*
*Tərbiyə ilə şəxsiyyətin əlaqəsi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . *175*
*Şəxsiyyəti təşkil edən amillər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . *175*
*MÜNDƏRİCAT* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *177*

**Təhsil Texnologiyaları Mərkəzi**

**MƏTBƏƏSİ**

***Hazırlığa verilmişdir: 28.03.2013***
***Çapa imzalanmışdır: 08.05.2013***
***Nəşrin ölçüsü: 86x60. 1/8***
***Fiziki çap vərəqi: 23***
***Sayı: 1000***